# AZƏRBAYCAN RESPUBLİKASI
# NAXÇIVAN MUXTAR RESPUBLİKASI
# ALİ MƏHKƏMƏSİ

# B Ü L L E T E N

## № 1 (39)

Naxçıvan – 2025


2025-Cİ İL -
KONSTİTUSİYA VƏ
SUVERENLİK İLİ
AZƏRBAYCAN
RESPUBLİKASININ
KONSTİTUSİYASI
İLHAM
ƏLİYEV

**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**

*Bülleten 2006-cı ildən etibarən ildə iki dəfə dərc edilir.*
*Rəsmi sayt: www.nsupremecourt.gov.az*

**Buraxılış üçün məsul şəxs:**
*S.İ.Bəktaşi*

**Redaktor:**
*M.K.Həsənov*

**Redaksiya heyəti:**
*S.Ş.Bəylərli*
*M.D.Allahverdiyev*
*M.Ə.Əliyev*
*C.G.Bayramova*
*Y.F.Xəlilov*
*A.N.İmanova*
*T.M.Əlizadə*

**Məsul katib:**
*G.Ə.Qurbanova*

**Redaksiyanın ünvanı:**
*Naxçıvan şəhəri, Atatürk küçəsi, 19*

*Tel: 550-96-76*
*Faks: 544-61-80*

## M Ü N D Ə R İ C A T

*Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi –100* ...**7**

*Konstitusiya və suverenlik – dövlətçiliyimizin əsası*....**11**

## Yeni sənədlər, normativ aktlar

*Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*........................**17**

*Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*............................................**19**

*"Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*...........................**23**

*M.Ə.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı*.................................................................**25**

*Apellyasiya instansiyası məhkəməsi sədrinin müavininin, apellyasiya instansiyası məhkəmələri məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış*.................................................................**26**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu*.....................**27**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı*..........................................................................................**30**

*“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*...................................................................**32**

*Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış*..................................................................**34**

*“Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu*.........................**35**

*“Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı*..................................................**36**

*“Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ*..........................................................................................**37**

*“Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsviri*...........**38**

*“Dövlət qulluqçularının təltif edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış* .............................**39**

## Məhkəmə fəaliyyəti

### Mülki Kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* ..................................................................... **40**

### Kommersiya Kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* ......................................................................**48**

### İnzibati Kollegiyadan

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* ......................................................................**50**

### Cinayət Kollegiyasından

*Məhkəmə fəaliyyətinə dair 2024-cü ilin yekunları üzrə statistik məlumatların təhlili* ......................................................................**52**

## Vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan məhkəmə aktları

*Mülki işlər üzrə vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan qərarlar*...............................................................................................**62**

*Məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan qərarlar*..................................................................................**75**

*İnzibati xətalara dair işlər üzrə vahid məhkəmə təcrübəsi baxımından əhəmiyyətli olan qərarlar*...................................................................**82**

## Nəzəriyyə və hüquqtətbiqetmə problemləri

*Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi institutu, məhkəmə təcrübəsi və tətbiqi meyarları* .......**85**

## Azad tribuna

*Süni intellekt və hüquq: imkanlar və risklər*........................................**93**

## Ali Məhkəmənin mətbuat xidmətindən

*2025-ci ilin yanvar - iyun aylarında keçirilən tədbirlərin xülasəsi*..........................................................................................**101**

## Hakim studiyası

*"Hakim studiyası" televiziya verilişinin icmalı*................................**121**

## Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi - 100

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 100 illik uzun tarixi inkişaf yolu keçib. Bu tarix Naxçıvan Muxtar Respublikasının, bütövlükdə Azərbaycanın məhkəmə və hüquq tarixi ilə sıx bağlı olub, ölkənin və muxtar respublikanın müxtəlif zaman kəsiyində yaşadığı dövrü özündə əks etdirir. Azərbaycanın ictimai-siyasi və hüquq tarixində ən mütərəqqi dəyişikliklər 1918-ci ilin 28 mayında şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cumhuriyyətinin yaradılması ilə başlamış, Azərbaycan Demokratik Respublikası təşəkkül tapdığı ilk günlərdən ölkədə demokratik prinsiplər əsasında məhkəmə sistemi yaradılmasına böyük diqqət yetirilmiş, lakin gənc respublikanın ömrünün qısa olması bu prosesin başa çatdırılmasına imkan verməmişdir.

Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ keçirməsindən sonra kommunist ideologiyasının tələblərinə cavab verən yeni məhkəmə orqanlarının təşkilinə başlanıldı. Ölkədə məhkəmə quruluşunun təşkil edilməsi üçün görülən tədbirlər çərçivəsində Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1925-ci il 3 oktyabr tarixli iclasının nəticələrinə dair qəbul olunan qərarla Naxçıvan MSSR Baş Məhkəməsi təsis edildi. Həmin gün hazırda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yaranması günü kimi qeyd edilir.

1937-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyası qəbul edilməsi ilə Naxçıvan MSSR Baş Məhkəməsi Naxçıvan MSSR Ali Məhkəməsi adı altında fəaliyyət göstərməyə başlamışdır. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə bağlı Azərbaycan SSR-in məhkəmə orqanları sisteminin statusunu tənzimləyən qanunvericiliyin də dəyişdirilməsi zərurəti yaranmış, nəticədə 1981-ci ilin iyun ayının 16-da “Azərbaycan SSR-də məhkəmə quruluşu haqqında” yeni Qanun qəbul olunmuşdur. Həmin qanunda Naxçıvan MSSR Ali Məhkəməsinin səlahiyyətləri daha da genişləndirilmişdir. 1990-cı il 26 iyun tarixində “Azərbaycan SSR-də

məhkəmə quruluşu haqqında" Qanun qəbul edilmiş və bu Qanunla 1981-ci il tarixli qanunda təsbit edilən qaydalar daha da təkmilləşdirilmişdir.

Azərbaycan Respublikası 1991-ci ilin oktyabrında öz dövlət müstəqilliyini bərpa etsə də, SSRİ-dən miras qalmış hüquq sistemi və qanunlar hüquqi və demokratik dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Bütün bu xüsusatlar cəmiyyətin gələcək inkişafı üçün hüquq sahəsində islahatların həyata keçirilməsini, tamamilə yeni mütərəqqi və demokratik dəyərlərə əsaslanan hüquq və məhkəmə sisteminin, qanunvericilik bazasının formalaşdırılmasını tələb edirdi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi məhkəmə hakimiyyəti sahəsində də köklü islahatların bünövrəsi qoyuldu. Demokratik, hüquqi və dünyəvi dəyərlər üzərində 12 noyabr 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında dövlət hakimiyyəti qanunvericilik, icra və məhkəmə hakimiyyəti qollarına ayrılmış, Azərbaycan Respublikasında məhkəmə hakimiyyətinin ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilməsi müəyyən olunmuşdur.

Azərbaycan Respublikasında ədalət mühakiməsinin qabaqcıl təcrübə əsasında həyata keçirilməsinin təmin edilməsi və məhkəmə sisteminin daha da təkmilləşdirilməsi məqsədi ilə 1997-ci il 10 iyun tarixində "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Həmin qanunun 10-cu fəsli Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin statusunun tənzimlənməsinə həsr olunmuşdur.

Konstitusiyanın qəbulundan ötən qısa müddət ərzində Naxçıvan Muxtar Respublikasının Konstitusiyası hazırlanaraq qəbul olunmuş, 1999-cu ilin 8 yanvar tarixindən qüvvəyə minmişdir. Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının məhkəmə hakimiyyətinə həsr olunmuş 4-cü fəslində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanı kimi təsis edildi. Konstitusiyaya görə Ali Məhkəmə Naxçıvan Muxtar Respublikasının ərazisində apellyasiya qaydasında ədalət mühakiməsini həyata keçirməklə yanaşı, konstitusiya nəzarətini də təmin edir.

Ölkədə aparılan islahatlar Ulu öndərin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən mərhələlərlə davam etdirildi. Azərbaycan Respublikasının 2005-ci il 30 dekabr tarixli Qanunu ilə "Məhkəmələr və hakimlər haqqında" Qanuna, Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi, 2007-ci il 16 iyun tarixli Qanunu ilə müvafiq prosessual qanunvericiliyə əlavə və

dəyişikliklərin edilməsi və Azərbaycan Respublikası Prezidenti tərəfindən məhkəmə hakimiyyətinin müasirləşdirilməsi məsələlərinə həsr olunmuş 2006-cı il 19 yanvar tarixli Fərmanın verilməsi nəticəsində məhkəmə islahatları növbəti mərhələyə yüksəldi və bu mərhələdə Naxçıvan Muxtar Respublikasının məhkəmələri, xüsusilə də Naxçıvan MR Ali Məhkəməsində köklü, struktur dəyişiklikləri aparıldı. 2007-ci il iyun ayının 16-dan Naxçıvan MR Ali Məhkəməsi tərəfindən işlərə birinci instansiya qaydasında baxılması istisna olundu və Ali Məhkəmə sırf apellyasiya instansiyası məhkəməsi kimi fəaliyyət göstərməyə başladı.

Məhkəmə öz fəaliyyətində yalnız ədalət mühakiməsinin həyata keçirilməsi ilə məhdudlaşmır, vaxtaşırı yerli media resursları ilə sıx əməkdaşlıq edərək maarifləndirici televiziya layihələri və nəşrləri ilə muxtar respublikanın hüquq mühitinə, sosial və xeyriyyə tədbirləri ilə cəmiyyətə öz töhfələrini verir. Məhkəmənin televiziya layihəsi olan "Hakim Studiyası" verilişi vasitəsilə ictimaiyyətə aktual hüquqi problemlər barədə məlumatlar verilir, qanunvericilikdəki yeniliklər və dəyişikliklər izah edilir, hüquqi biliklər geniş auditoriyaya çatdırılmaqla hüquqi məsələlərin cəmiyyət üçün aktual olan tərəfləri müzakirə edilir. Bu da hüquqi savadlılığın artmasına və vətəndaşların hüquqi müdafiə imkanlarının genişlənməsinə xidmət edir.

Hüququn tətbiqi istiqamətində uzunmüddətli fəaliyyətin aparılması Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin həm də gənc hüquqşünasların yetişməsi üçün "məktəb" rolu oynamasına şərait yaradır. Fəaliyyət göstərdiyi bölgədə hüquqşünas yetişdirən yeganə təhsil ocağı olan Naxçıvan Dövlət Universiteti ilə 2023-cü ildə bağlanmış birgə əməkdaşlığa dair Memoranduma uyğun olaraq müxtəlif layihə və proqramlarla tələbə və məzunların iş mühitinə hazırlanmaları üçün öz əvəzedilməz töhfəsini davam etdirir.

İnkişaf edən texnoloji mühitin tələblərinə uyğun olaraq məhkəmənin cari fəaliyyəti rəsmi internet saytı vasitəsilə azərbaycan, ingilis və rus dillərində istifadəçilərin diqqətinə çatdırılır, sosial şəbəkələrdə yaradılmış hesablar isə bu informasiyanı daha da əlçatan edir.

Dövlətin, cəmiyyətin və hüquqi mühitin inkişafına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi də inkişaf edir. Müqayisə üçün qeyd edək ki, əgər 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi sədr və müavindən başqa, 3 hakim və 11 məhkəmə aparatı işçisindən ibarət olmuşdursa, hazırda Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində sədr və müavindən başqa 11 hakim və 70 məhkəmə aparatı işçisi fəaliyyət göstərir.

Bir tərəfdən qanunvericiliyə gətirilən yeniliklər, digər tərəfdən isə məhkəmələrin maddi təminat məsələlərinə göstərilən diqqət, o cümlədən

hakimlərin, məhkəmə işçilərinin iş şəraitinin müasir meyarlar səviyyəsinə çatdırılması muxtar respublikada fəaliyyət göstərən məhkəmələr, eləcə də **100 illik** tarixə malik Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi üzrə vəzifələrin keyfiyyətlə yerinə yetirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli şəkildə müdafiə olunmasına xidmət edir.

**REDAKSİYA HEYƏTİ**

***Səadət Bəktaşi***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin sədri,***
***Azərbaycan Respublikası Məhkəmə-***
***Hüquq Şurasının üzvü***

## *"Konstitusiya və suverenlik" – dövlətçiliyimizin əsası*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi tariximizə, hüquqi dövlətçiliyimizə, suverenliyimizə və milli iradəmizə dərin ehtiramın ifadəsidir. Bu qərar müstəqil dövlətçilik tariximizin mühüm dövrlərini əhatə etməklə yanaşı, həm də gələcəyə hesablanmış strateji bir çağırışdır.

Bu il Azərbaycan Respublikasının Konstitusiyasının qəbulunun 30 illiyi ilə yanaşı, dövlət suverenliyimizin tam bərpasının və ərazi bütövlüyümüzün təmin olunmasının real nəticələrini yaşadığımız dövrdür.

Hər bir dövlətin müstəqilliyini şərtləndirən başlıca amillərdən biri onun xalqın iradəsinə əsaslanan, dövlət quruluşunu, əsas insan və vətəndaş hüquqlarını, qanunvericilik, icra və məhkəmə hakimiyyətini və dövlət həyatının digər bu kimi əsas məsələlərini özündə əks etdirən əsas qanununun - konstitusiyasının mövcud olmasıdır.

Konstitusiya hər bir ölkədə əsas qanun kimi ali hüquqi qüvvəyə malikdir. Dövlətin təməl prinsiplərini, siyasi, hüquqi və sosial-iqtisadi əsaslarını təsbit edən bu ali sənəd vətəndaşların hüquq və azadlıqlarına zəmanət verir, ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirir. Bütövlükdə, cəmiyyət həyatının başlıca sahələrində dövlət siyasətinin ümumi istiqamətlərini müəyyən edən Konstitusiya hər bir xalqın və dövlətin həyatında xüsusi əhəmiyyət daşıyır.

Tarixdən məlum olduğu kimi yeni yaranan, müstəqilliyə qovuşan və ya köklü siyasi-iqtisadi dəyişikliklərin həyata keçirildiyi ölkələrdə ilk vəzifələrdən biri məhz dövrün tələblərinə uyğun Konstitusiyanın qəbulu olmuşdur. Bu mənada təsadüfi deyil ki, 1991-ci il oktyabr ayının 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda ölkəmizin yeni Konstitusiyasının hazırlanması ilə bağlı müddəa öz əksini tapmışdır.

Ölkəmizi müstəqil dövlət quruculuğuna aparan keşməkeşli və şərəfli yol Ulu Öndərin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra başlamışdır. Tarixə "Milli Qurtuluş Günü" kimi düşmüş bu əlamətdar hadisə təkcə Heydər Əliyev ömrünün deyil, həm də bütün tariximizin xüsusi mərhələsi, əsaslı dönüş nöqtəsi olmuşdur.

Azərbaycan dövlətçiliyinin müqəddəratının həll olunduğu həmin illərdə dünya miqyaslı siyasi dövlət xadimi Heydər Əliyevin yenidən hakimiyyətə dəvət olunması dövlətimizi yalnız parçalanmaqdan, çevrilişlərdən, özbaşınalıqlardan xilas etməmiş, həm də xalqımıza yeni, firavan, qüdrətli, ildən-ilə gözəlləşən və tərəqqi edən müstəqil Azərbaycan dövlətini bəxş etmişdir.

Bütün həyatını və siyasi fəaliyyətini şanlı tarixi keçmişi və zəngin mədəni irsi ilə fəxr etdiyi xalqının inkişafına bəxş etmiş Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanı çox çətin və ağır sınaqlardan müvəffəqiyyətlə çıxarmış, ölkənin tarixi ənənələri ilə müasirliyin uğurlu vəhdəti əsasında demokratik dəyərlərə söykənən yeni inkişaf strategiyasının əsasını qoymuşdur.

Dahi rəhbərin hakimiyyətə qayıdışından sonra 1993-cü il ölkədə sabitlik və inkişaf ilinin başlanğıcı kimi tarixə düşməklə, hüquqi islahatların, qanunvericiliyin, iqtisadi, sosial sistemlərin sürətlə dəyişən şəraitə uyğunlaşdırılmasına yol açmış, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda inamlı addımlar atan Azərbaycan Respublikasında cəmiyyətin təkamül sistemini, dövlət idarəçilik mexanizmlərinin səmərəli fəaliyyətini tənzimləyən qanunların müasirləşdirilməsi və təkmilləşdirilməsi davamlı prosesə çevrilmişdir.

Zəngin dövlətçilik təcrübəsinə malik olan böyük strateq Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. 12 noyabr 1995-ci ildə keçirilən ümumxalq səsverməsi yolu ilə Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildi. *“Yeni Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik, vətəndaş cəmiyyətinin yaranması üçün bütün əsaslar yaradıbdır, bütün təminatları veribdir. Bizim borcumuz bu təminatlardan, Konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir”* - deyən ümummilli lider bununla konstitusiyanın başlıca hədəflərini müəyyən etmişdi.

Tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu cəmiyyət həyatında demokratik dəyişikliklərə böyük yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı, bütün sahələrin inkişafına təkan verdi, xalqın tarixi ənənələrinə, milli və mədəni dəyərlərinə uyğun olan, eyni zamanda, ölkədə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində mühüm addım oldu.

Konstitusiya qəbul olunduğu gündən etibarən o, yalnız normativ sənəd kimi qalmadı. O, islahatların "mayak"ına, hüquqi dövlət quruculuğunun bələdçisinə çevrildi. Dövlət idarəçiliyindən tutmuş məhkəmə sisteminə, seçki institutlarından vətəndaş cəmiyyətinə qədər bütün sahələrdə islahatların hüquqi bazası oldu.

Mütərəqqi Konstitusiyamıza əsaslanaraq mükəmməl hüquq sistemi formalaşdırmaq üçün Ulu Öndər qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutmaqla, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparmağa başladı və bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyasını yaratdı. Qeyd etmək lazımdır ki, həmin dövrdə ölkəmizdə müxtəlif sahələr üzrə islahat komissiyaları yaradılsa da, hüquqi dövlət quruculuğuna və hüquq sisteminin islahatına müstəsna əhəmiyyət verən ümummilli liderimiz Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü və islahatlara şəxsən özü rəhbərlik etdi.

Konstitusiya layihəsi hazırlandıqdan sonra cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə onun açıq müzakirələrinin keçirilməsi bu ümumxalq əhəmiyyətli sənədin ən təkmil formada ərsəyə gətirilməsinə şərait yaratdı. 1995-ci il noyabrın 12-də referendum, yəni ümumxalq səsverməsi yolu ilə Azərbaycanın ilk milli konstitusiyası qəbul edildi. Bu xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsinin qəti qələbəsini əks etdirən hadisə idi. Konstitusiyamız ümumbəşəri ideyalara, ən qabaqcıl dünya təcrübəsinə əsaslanmaqla yanaşı, özündə tarixi ənənələrimizi, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini əks etdirdi.

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquqlarının və azadlıqlarının təminatları müəyyən edilmişdir. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi konstitusiyamızın demokratik dəyərlərini vurğulayır.

Ulu Öndər ədalətli idarəçilik sistemi yaratmadan cəmiyyətin dövlətə etimad və inamının formalaşdırılmasını qeyri-mümkün hesab edərək bunun üçün ilk növbədə məhkəmə-hüquq sistemində dövrün tələblərinə cavab verən mütərəqqi islahatların aparılmasına nail olmuşdu.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu nəticəsində ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına olduqca müsbət təsir göstərmişdir. Konstitusiyada təsbit edilmiş hakimiyyətlər bölgüsü prinsipinə müvafiq olaraq məhkəmə hakimiyyəti orqanları həm də keyfiyyətcə yeni funksiyalar əldə etmiş, məhkəmə hakimiyyətinin özü isə demokratik quruluşun təməli hesab olunan hakimiyyətlər bölgüsü prinsipini reallaşdıran "tarazlaşdırma və çəkindirmə" sisteminin zəruri tərkib hissəsinə çevrilmişdir.

Konstitusiyanın gətirdiyi əhəmiyyətli yeniliklərdən biri həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan institutun – konstitusiya nəzarəti orqanının yaradılması olmuşdur. Bu baxımdan konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsinin əsas məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin əsas hüquq və azadlıqlarını müdafiə etməkdir. Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunarkən hüquqi dövlət quruculuğunun müasir meyllərindən çıxış edilərək ölkəmizdə konstitusiya ədalət mühakiməsi orqanının təsis edilməsinin nəzərdə tutulması, bu təsisatın dövlət hakimiyyəti sistemində yerinin və rolunun müəyyənləşdirilməsi olduqca mütərəqqi və əhəmiyyətli hadisə idi.

Ulu Öndərin siyasi irsi bu gün Azərbaycan Respublikasında, həm də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında hüquq sisteminin inkişafına istiqamət verir.

Əsas qanunumuzda "Naxçıvan Muxtar Respublikası" adlanan 8-ci fəslin müddəaları ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olaraq muxtar dövlət statusu verilir, hakimiyyətlər bölgüsü təsbit olunur və onların səlahiyyət dairələri müəyyənləşdirilir. Məhz Azərbaycan Respublikasının Konstitusiyası əsasında 1998-ci ildə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası qəbul edilmiş, bu konstitusiya muxtar dövlət statusunun möhkəmləndirilməsinə, sabit dövlət quruculuğunun genişləndirilməsinə, idarəçiliyin təkmilləşdirilməsinə, vəzifə və səlahiyyətlərin bölgüsü sahəsində demokratik prinsiplərdən istifadə edilməsinə xidmət etməklə konstitusiya quruculuğunun mühüm tarixi sənədi olmuşdur.

2005-ci il 21 oktyabr tarixli Konstitusiya Qanunu ilə Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına edilmiş əlavə və dəyişikliklə Naxçıvan

Muxtar Respublikası Ali Məhkəməsinə muxtar respublika ərazisində konstitusiya nəzarəti səlahiyyəti verilmişdir. Sözügedən Konstitusiyanın 22-ci maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi konstitusiya nəzarətini həyata keçirən orqandır. Konstitusiya nəzarəti sistemində Naxçıvan Ali Məhkəməsinin səlahiyyətləri müstəsna əhəmiyyət daşıyır. Məhkəmə yalnız mübahisəli hüquq məsələlərinə baxmaqla kifayətlənmir, eyni zamanda muxtar respublika səviyyəsində qəbul olunmuş qanun və digər normativ aktların Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğunluğunu yoxlamaq səlahiyyətinə malikdir. Konstitusiya nəzarəti vasitəsilə hüquqi boşluqların və pozuntuların qarşısı alınır, vətəndaşların fundamental hüquqlarının müdafiəsi təmin olunur. Bu institut vasitəsilə həm muxtariyyətin konstitusion prinsipləri qorunur, həm də hüquqi dövlətin vacib şərti olan qanunun aliliyi təmin olunur.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş mütərəqqi məhkəmə-hüquq islahatlarını 2003-cü ildən inamla davam etdirən və yeni dövrün tələblərinə uyğun təkmilləşdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesinin mühüm tərkib hissəsi olaraq məhkəmə hakimiyyətinin yenilənməsini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Son 20 ildə yeni dövrün tələblərinə adekvat şəkildə reallaşdırılan bu islahatların əsas hədəfi məhkəmə-hüquq sistemini müasirləşdirmək, məhkəmə orqanlarının özünüidarə imkanlarını genişləndirmək və ədalət mühakiməsinin səmərəliliyini artırmaq olmuşdur. Bu istiqamətdə mühüm addımlardan biri də "Məhkəmə-Hüquq Şurası haqqında" Qanunun qəbulu və həmin Qanun əsasında Məhkəmə-Hüquq Şurasının yaradılması olmuşdur. Şuranın 2005-ci ildə fəaliyyətə başlaması ilə məhkəmə sistemində köklü dəyişikliklərə səbəb olan islahatlar geniş vüsət almışdır.

Məhkəmə hüquq islahatlarının məntiqi davamı kimi ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə" 2006-cı il 19 yanvar tarixli Fərmanı qəbul edilmişdir.

Ölkə başçısı cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə aparılan, vətəndaşların hüquq və azadlıqlarının ədalət mühakiməsi yolu ilə qorunması prinsiplərinin inkişafına xidmət göstərən məhkəmə-hüquq islahatları Azərbaycanın bütün regionlarını əhatə etməkdədir.

Ulu Öndərin qurub-yaratdığı, müstəqilliyə qovuşdurduğu Azərbaycan hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında sürətlə inkişaf edir, qarşıya qoyduğu hədəflərə doğru inamla irəliləyir. Respublikamız

ümumbəşəri dəyərlərə əsaslanaraq mütərəqqi inkişaf kursu keçməklə, demokratikləşmə, insan hüquq və azadlıqlarının təminatı sahəsində ciddi nailiyyətlərə imza atır.

Ümummilli liderin silinməz dəsti xətti olan Konstitusiyamız – dövlətin ali hüquqi aktı olmaqla, yalnız normativ sənəd deyil, xalqın suveren iradəsinin, müstəqil dövlət qurmaq və yaşatmaq əzminin təcəssümü, Azərbaycan xalqının suverenliyinin hüquqi ifadəsidir.

Azərbaycan dövlətinin suverenliyinin tam şəkildə təmin olunmasında və möhkəmləndirilməsində Prezident İlham Əliyevin müdrik və uzaqgörən liderliyi həlledici rol oynamışdır. Cənab Prezidentin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və sistemli siyasət nəticəsində Azərbaycan təkcə hüquqi və siyasi müstəvidə deyil, hərbi, diplomatik və iqtisadi sahələrdə də tam suverenliyini təmin etmişdir.

Müstəqillik tariximizdə ən mühüm dönüş nöqtələrindən biri – 2020-ci ildə Vətən müharibəsində qazanılan Zəfər, ilk növbədə, Prezident İlham Əliyevin güclü siyasi iradəsinin, xalq-iqtidar birliyinin və dövlətin suverenliyini bərpa etməkdə qətiyyətli mövqeyinin parlaq nəticəsidir.

Otuz ilə yaxın işğal altında olan ərazilərimizin azad olunması ilə ölkəmizin ərazi bütövlüyü və konstitusion suverenliyi tam bərpa olundu. Bu yalnız hərbi uğur deyildi – bu, tarixi ədalətin, beynəlxalq hüququn və Konstitusiyamızın real bərqərar olunması idi. Bu gün işğaldan azad olunmuş ərazilərdə bərqərar olunan hüquqi idarəetmə, ədalət mühakiməsinin tətbiqi, vətəndaş hüquqlarının təmin olunması və Konstitusiyamızın tam şəkildə tətbiq olunması suveren hüququmuzun bərqərar olunmasının ən parlaq nümunəsidir.

Bu, Cənab Prezidentin ***"Biz hüquqi dövlət qururuq və bu dövlətin hər qarışı qanunla idarə olunacaq"*** prinsipinə sadiqliyinin göstəricisidir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan təkcə suverenliyini bərpa edən deyil, onu müasir dövrün çağırışlarına uyğun qoruyub inkişaf etdirən güclü, öz sözünü deyən bir dövlətdir.

Qarşıda bizi azad edilmiş ərazilərdə qanunun aliliyini tam təmin etmək, milli qanunvericiliyi təkmilləşdirmək, konstitusiya dəyərlərini gənc nəslə aşılamaq və dövlət suverenliyini hər sahədə möhkəmləndirmək kimi böyük hədəflər gözləyir. Bu yolda hər birimizin üzərinə böyük məsuliyyət düşür.

Əminliklə qeyd edirik ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə günü gündən inkişaf edən Azərbaycan hüquqi dövlət quruculuğu yolunda daim irəliləyəcəkdir.

# YENİ SƏNƏDLƏR, NORMATİV AKTLAR

## Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzillər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlamış, öz ideallarına həmişə sadiq qalmış və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etmişdir.

1991-ci il oktyabrın 18-də qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktında yeni Konstitusiyanın hazırlanması nəzərdə tutulsa da, 1991–1993-cü illərdə hakimiyyətin yarıtmaz fəaliyyəti cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə anarxiyanın yaranmasına gətirib çıxarmış, dövlət idarəçiliyi mexanizmləri formalaşdırılmamış, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi mümkün olmamışdır.

Yalnız 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin böyük xilaskarlıq missiyası sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Konstitusiyanın preambulasında Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması başlıca niyyətlərdən biri kimi bəyan edilmişdir. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması

Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19–20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir.

Konstitusiyamızın bəyan etdiyi niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğunu, 2025-ci ildə Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünü nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. 2025-ci il Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 28 dekabr 2024-cü il.

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251 (Cild I); 2024, № 1, maddələr 8, 18, № 3, maddə 250, № 7, maddə 772, № 11, maddə 1189; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD və 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD, 114-VIIQD və 115-VIIQD nömrəli qanunları) 308-2-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"Maddə 308-2. Dövlət satınalmaları haqqında qanunvericiliyi pozma

308-2.1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən satınalma prosedurları keçirilmədən, habelə nəzarət orqanının razılığı tələb olunan satınalma metodlarını belə razılıq olmadan tətbiq etməklə və ya keçirilmiş satınalmanın nəticələri haqqında yekun protokol nəzarət orqanı tərəfindən təsdiq edilmədən bağlanılmış müqavilələr əsasında maliyyə vəsaitlərinin xərclənməsi, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.2. Satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının, habelə müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları ilə bağlı satınalmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma prosedurları keçirilmədən baş tutması, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul

olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.3. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilatın vəzifəli şəxsi tərəfindən həmin Qanunda müəyyən edilən maraqlar toqquşması ilə bağlı tələblərə cavab verməyən təchizatçı ilə satınalma müqaviləsi bağlanılaraq maliyyə vəsaitlərinin xərclənməsi, bu əməllər xeyli miqdarda ziyan vurduqda –

cinayət nəticəsində vurulmuş ziyanın iki mislindən üç mislinədək miqdarda cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

308-2.4. Bu Məcəllənin 308-2.1–308-2.3-cü maddələrində nəzərdə tutulmuş əməllər:

308-2.4.1. qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

308-2.4.2. təkrar törədildikdə;

308-2.4.3. külli miqdarda ziyan vurduqda;

308-2.4.4. hədə-qorxu tətbiq olunmaqla törədildikdə –

cinayət nəticəsində vurulmuş ziyanın üç misli miqdarında cərimə edilməklə üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, yaxud üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə iki ildən dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Qeyd:

1. Bu Məcəllənin 308-2.1–308-2.3-cü maddələrində "xeyli miqdar" dedikdə əlli min manatdan iki yüz əlli min manatadək olan məbləğ, bu Məcəllənin 308-2.4.3-cü maddəsində "külli miqdar" dedikdə isə iki yüz əlli min manatdan yuxarı olan məbləğ başa düşülür.

2. Bu Məcəllənin 308-2-ci maddəsində "nəzarət orqanı" və "satınalan təşkilat" dedikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan nəzarət orqanı və satınalan təşkilatlar başa düşülür.".

Maddə 2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202 (Cild I); 2024, № 1, maddə 18, № 2, maddə 135, № 4, maddə 362,

№ 5 (I kitab), maddələr 487, 489, 492, 503, № 7, maddələr 750, 768, 771, 772, № 12 (I kitab), maddə 1280; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 72-VIIQD və 77-VIIQD nömrəli, 27 dekabr tarixli 111-VIIQD və 115-VIIQD nömrəli, 29 dekabr tarixli 118-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 38.1-ci maddənin ikinci cümləsinə “mübarizə haqqında,” sözlərindən sonra “dövlət satınalmaları haqqında,” sözləri əlavə edilsin;

2.2. 445-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“Maddə 445-1. Dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması

445-1.1. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalan təşkilat tərəfindən satınalma prosedurları keçirilmədən, habelə nəzarət orqanının razılığı tələb olunan satınalma metodlarını belə razılıq olmadan tətbiq etməklə və ya keçirilmiş satınalmanın nəticələri haqqında yekun protokol nəzarət orqanı tərəfindən təsdiq edilmədən bağlanılmış müqavilələr əsasında maliyyə vəsaitlərinin xərclənməsinə görə –

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

445-1.2. Satınalan təşkilat tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınmasının, habelə müdafiə və ya dövlət təhlükəsizlik ehtiyacları ilə bağlı satınalmaların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma prosedurları keçirilmədən baş tutmasına görə –

vəzifəli şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

445-1.3. Müşahidə şurasının (direktorlar şurasının) tərkibi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırılmaqla təsdiq edilən kommersiya hüquqi şəxsləri tərəfindən “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məlumatların və elanların özlərinin rəsmi internet səhifələrində yerləşdirilməməsinə görə –

vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

445-1.4. “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, açıq tender və ya ikimərhələli tenderdən yayınmaq və (və ya) təchizatçılar arasında rəqabəti məhdudlaşdırmaq məqsədilə eyni xüsusiyyətli (xarakterli, növlü, tipli) və ya

müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş satınalma predmetlərinin təsnifat kodları üzrə eyni sinifdə olan oxşar satınalma predmetinin ayrı-ayrı hissələrə (müqavilələrə) bölünməsinə görə –

vəzifəli şəxslər iki min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

445-1.5. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, satınalma komissiyası tərəfindən təchizatçıların satınalmalarda iştirakının məhdudlaşdırılmasına, habelə onlar arasında ayrı-seçkilik yaradan tələblərin, meyarların və prosedurların müəyyənləşdirilməsinə görə –

vəzifəli şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

445-1.6."Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun yol verdiyi hallar istisna olmaqla, həmin Qanunda müəyyən edilən maraqlar toqquşması ilə bağlı tələblərə cavab verməyən təchizatçı ilə satınalma müqaviləsi bağlanılaraq maliyyə vəsaitlərinin xərclənməsinə görə–

vəzifəli şəxslər dörd min manatdan altı min manatadək məbləğdə cərimə edilir.

445-1.7. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş müddətlərdə:

445-1.7.1. satınalan təşkilatın qalib təchizatçının təklifini aksept etməməsinə və ya satınalma müqaviləsini imzalamamasına;

445-1.7.2. satınalan təşkilat tərəfindən satınalma müqaviləsi üzrə ödəmələrin (o cümlədən avans ödənişinin) aparılmamasına;

445-1.7.3. satınalan təşkilat tərəfindən təchizatçıların şikayətlərinin və müraciətlərinin araşdırılaraq müvafiq qərarın qəbul edilməməsinə və həmin qərarın şikayət edən və ya müraciət edən təchizatçıya göndərilməməsinə görə

vəzifəli şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

445-1.8. Satınalma müqaviləsinin icrasına başlanılması üçün müvafiq dövlət orqanlarından (qurumlarından) razılıq (müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan icazələr istisna olmaqla) alınması tələb olunduğu təqdirdə, satınalan təşkilat tərəfindən belə icazələrin müqavilə imzalanana qədər əldə olunmasının təmin edilməməsinə görə –

vəzifəli şəxslər dörd min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

445-1.9. Nəzarət orqanının satınalma predmetinə (onun icrasına) baxış keçirə bilməsi üçün satınalan təşkilat tərəfindən lazımi şərait yaradılmamasına görə –

vəzifəli şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

445-1.10. Satınalmaların həyata keçirilməsi zamanı satınalan təşkilat tərəfindən nəzarət orqanının qanuni tələblərinin və ya qərarlarının yerinə yetirilməməsinə görə –

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

Qeyd:

1. Bu Məcəllənin 445-1-ci maddəsi həmin maddədə göstərilən əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir.

2. Bu Məcəllənin 445-1-ci maddəsində "nəzarət orqanı" və "satınalan təşkilat" dedikdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan nəzarət orqanı və satınalan təşkilatlar başa düşülür.".

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 28 fevral 2025-ci il

§

## "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28

fevral tarixli 143-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-2.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 308-2.2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 445-1.2-ci, 445-1.3-cü (hər iki halda) və 445-1.4-cü maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Məcəllənin 445-1.3-cü maddəsində hər iki halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 445-1.2-ci və 445-1.4-cü maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 143-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 8 fevral tarixli 278 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 257 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "və 137.2-ci" sözləri ", 137.2-ci və 308-2.2-ci" sözləri ilə əvəz edilsin;

3.2. 2.1-1-ci bənddə "maddəsində" sözü "və 308-2.2-ci maddələrində" sözləri ilə əvəz edilsin.

4. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr

1359, 1378, 1384; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 fevral tarixli 335 nömrəli Fərmanı) 4-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4.1-ci bəndə "429.0.2," rəqəmlərindən sonra "445-1.2, 445-1.3 (hər iki halda), 445-1.4," sözləri əlavə edilsin;

4.2. 4.2-ci bənd 4.2-1-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 4.2-ci bənd əlavə edilsin:

"4.2. həmin Məcəllənin 445-1.3-cü maddəsində (hər iki halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

4.3. 4.3-1-ci bəndə "363.2-ci," sözlərindən sonra "445-1.2-ci, 445-1.4-cü," sözləri əlavə edilsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 19 mart 2025-ci il

§

**M.Ə.Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarı**

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 10-cu bəndinə, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinin ikinci hissəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi qərara alır:

1. Mehdi Ədalət oğlu Əliyev vəzifəsi dəyişdirilərək Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilsin.

2. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə Qafarova***
*Azərbaycan Respublikası Milli Məclisinin sədri*

Bakı şəhəri, 11 aprel 2025-ci il

**Apellyasiya instansiyası məhkəməsi sədrinin müavininin, apellyasiya instansiyası məhkəmələri məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından**
**ÇIXARIŞ**

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

***apellyasiya instansiyası məhkəmələri üzrə:***

1.1. Müşfiq Kamil oğlu Həsənov Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi sədrinin müavini təyin edilsin;

1.2. Mehman Dünyamalı oğlu Allahverdiyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

...

***inzibati məhkəmələr üzrə:***

1.5. Hicran Xasay oğlu Muradov Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin sədri təyin edilsin;

***Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:***

1.6. Günay Mikayıl qızı İsmayıl Naxçıvan Muxtar Respublikası Babək Rayon Məhkəməsinin sədri təyin edilsin;

...

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 15 aprel 2025-ci il

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərini rəhbər tutaraq, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alır:

Maddə 1. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283) 10-1.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının" sözləri "Məhkəmə-Hüquq Şurasının" sözləri ilə əvəz edilsin.

Maddə 2. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585 (Cild I); 2024, № 1, maddə 4, № 4, maddələr 362, 365, 368, № 6 (I kitab), maddə 631; Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 77-VIIQD nömrəli və 27 dekabr tarixli 114-VIIQD nömrəli Qanunu) 51-1.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının" sözləri "Məhkəmə-Hüquq Şurasının" sözləri ilə əvəz edilsin.

Maddə 3. Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 762 (Cild I); 2024, № 12 (I kitab), maddə 1281) 9-1.2-ci maddəsində "müvafiq icra hakimiyyəti orqanının" sözləri "Məhkəmə-Hüquq Şurasının" sözləri ilə əvəz edilsin.

Maddə 4. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 7 noyabr tarixli 65-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 11-ci maddə üzrə:

4.1.1. 11.0.4-1-ci maddədə hər iki halda "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin və həmin maddədən ", habelə müvafiq icra hakimiyyəti orqanının müraciəti olduqda, tədris fəaliyyətində və ya birinci və apellyasiya instansiyası məhkəmələrində "Məhkəmələr və hakimlər haqqında"

Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinin ikinci hissəsində nəzərdə tutulmuş sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılmasında iştirak etmək üçün həmin quruma" sözləri çıxarılsın;

4.1.2. aşağıdakı məzmunda 11.0.4-4–11.0.4-9-cu maddələr əlavə edilsin:

"11.0.4-4. məhkəmə statistikasının aparılması, məhkəmələrdə kargüzarlığın təşkil edilməsi, icra və əmək intizamına riayət olunması üçün tədbirlər görür, birinci və apellyasiya instansiyası məhkəmələrində bu sahələr üzrə işin təşkili vəziyyətini yoxlayır;

11.0.4-5. hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi üçün tədbirlər görür;

11.0.4-6. məhkəmələr tərəfindən məhkəmə fəaliyyətinin təşkilinə dair ümumiləşdirmələri öyrənir, təhlil edir, məhkəmə statistikası sahəsində statistika hesabatının formasını müəyyənləşdirir, habelə statistika hesabatlarını ümumiləşdirir və dərc edir;

11.0.4-7. birinci instansiya məhkəməsinin hakimi öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda, həmin məhkəməyə digər müvafiq məhkəmənin hakiminin onun razılığı ilə 1 ilədək müddətə ezam edilməsi məsələsini müzakirə edir;

11.0.4-8. birinci instansiya məhkəmələrində sədr və sədr müavini öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə həvalə edilməsi məsələsini müzakirə edir;

11.0.4-9. Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və apellyasiya məhkəmələri istisna olmaqla, digər məhkəmələrin hakimlərinə məzuniyyət verir;";

4.1.3. 11.0.12-1-ci maddədə "və 3–5-ci" sözləri ", 3–5-ci, 8-ci (hakimin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi halında) və ya 9-cu" sözləri ilə əvəz edilsin;

4.2. 12-ci maddə üzrə:

4.2.1. aşağıdakı məzmunda 12.0.1-1-ci maddə əlavə edilsin:

"12.0.1-1. məhkəmələrdə kargüzarlığın aparılması, o cümlədən işlərin təsadüfi və avtomatik şəkildə elektron qaydada bölüşdürülməsi və elektron qaydada yayılan məhkəmə qərarlarının anonimləşdirilməsi qaydalarını müəyyən etmək;";

4.2.2. 12.0.4-1-ci maddədə hər iki halda "2" rəqəmi "1" rəqəmi ilə əvəz edilsin və həmin maddədən ", habelə müvafiq icra hakimiyyəti orqanının müraciəti olduqda, tədris fəaliyyətində və ya birinci və apellyasiya instansiyası məhkəmələrində "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinin ikinci hissəsində

nəzərdə tutulmuş sahələr üzrə işin təşkili vəziyyətinin yoxlanılmasında iştirak etmək üçün həmin quruma” sözləri çıxarılsın;

4.2.3. aşağıdakı məzmunda 12.0.4-3-cü və 12.0.4-4-cü maddələr əlavə edilsin:

“12.0.4-3. birinci instansiya məhkəməsinin hakimi öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya hakim vəzifəsi vakant olduqda, həmin məhkəməyə digər müvafiq məhkəmənin hakimini onun razılığı ilə 1 ilədək müddətə ezam etmək;

12.0.4-4. birinci instansiya məhkəmələrində sədr və sədr müavini öz vəzifələrini yerinə yetirə bilmədikdə və ya sədr və sədr müavini vəzifələri vakant olduqda onların vəzifələrinin icrasını müvəqqəti olaraq həmin məhkəmənin hakimlərindən birinə həvalə etmək;”;

4.2.4. 12.0.8-1-ci maddədə “və 3–5-ci” sözləri “, 3–5-ci, 8-ci (hakimin Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi halında) və ya 9-cu” sözləri ilə əvəz edilsin;

4.2.5. aşağıdakı məzmunda 12.0.16-1-ci maddə əlavə edilsin:

“12.0.16-1. Azərbaycan Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi və apellyasiya məhkəmələri istisna olmaqla, digər məhkəmə aparatlarının strukturunu və ştat cədvəlini müəyyən etmək;”;

4.2.6. 12.0.20-ci maddəyə “keçirmək” sözündən sonra “, hakimlərin peşə hazırlığının artırılması, məhkəmə aparatı işçilərinin peşə hazırlığına və ixtisasının artırılmasına cəlb edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanına müraciət etmək” sözləri əlavə edilsin;

4.3. 19-cu maddə üzrə:

4.3.1. 19.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“19.2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hakimlər barəsində intizam icraatı Məhkəmə-Hüquq Şurasının öz təşəbbüsü ilə və ya həmin Qanunun 112-ci maddəsinin birinci hissəsində göstərilmiş şəxslərin müraciətinə əsasən yalnız Məhkəmə-Hüquq Şurası tərəfindən başlanıla bilər.”;

4.3.2. 19.3-cü maddədə “etməyə borcludurlar” sözləri “etməlidirlər” sözü ilə əvəz edilsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 28 fevral 2025-ci il

**“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun 12.0.20-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2025-ci il 28 fevral tarixli 147-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 22 yanvar tarixli 265 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 44 (Cild I) 2.1-2-ci bəndi ləğv edilsin.

4. “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq

edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945) 2-ci hissəsinin yeddinci abzasından "51-1.2-ci maddəsində," sözləri çıxarılsın.

5. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 yanvar tarixli 183 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 17 (Cild I); 2024, № 12 (II kitab), maddə 1354) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.2-ci bəndə "6.2.6-cı" sözlərindən sonra ",12.0.20-ci" sözləri əlavə edilsin;

5.2. 2.3-cü bənd ləğv edilsin.

6. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 790 (Cild I) 2.2-ci bəndindən "9-1.2-ci maddəsində və" sözləri çıxarılsın.

7. "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 770-IVQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 18 dekabr tarixli 50 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1517 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

8. "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1436-VQD nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 28 dekabr tarixli 455 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2612 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

9. "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 23 dekabr tarixli 757-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 30 oktyabr tarixli 177 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası

Prezidentinin 2023-cü il 7 fevral tarixli 2032 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 2, maddə 240 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 19 aprel 2025-ci il

§

**“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli 1115-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 323 (Cild I); 2024, № 1, maddə 31, № 3, maddə 257, № 5 (II kitab), maddələr 516, 518, № 9, maddə 999, № 12 (II kitab), maddə 1378) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 8.9-cu bənddə “fəaliyyətinin təşkilati” sözləri “maliyyə və digər maddi-texniki” sözləri ilə əvəz edilsin;

1.2. 9.20-ci, 9.21-ci və 10.10–10.14-cü bəndlər ləğv edilsin;

1.3. 16.4-cü bənddən “, habelə müvafiq məhkəmə aparatlarının” sözləri çıxarılsın və həmin bəndə “təsdiq edir” sözlərindən sonra “, habelə müvafiq məhkəmə aparatlarının xərclər smetasını müəyyən edir” sözləri əlavə edilsin.

2. “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 604 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 604 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5.4.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.5-ci bənd əlavə edilsin:

"5.5. ədalət mühakiməsinin əlçatanlığını və şəffaflığını daha da artırmaq məqsədilə:

5.5.1. "Elektron məhkəmə" informasiya sistemində dərc edilən məhkəmə qərarları üzrə müxtəlif meyarlar əsasında effektiv axtarış aparmaq üçün müvafiq funksional imkan yaradılması üçün tədbirlər görsün;

5.5.2. fiziki və hüquqi şəxslərin "Elektron məhkəmə" informasiya sistemindən istifadəsinin təşviqi üçün tədbirlər görsün.";

2.2. 7.5-ci bənd ləğv edilsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104 (Cild I) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"na aşağıdakı məzmunda 2.1.8-2-ci yarımbənd əlavə edilsin:

"2.1.8-2. Məhkəmə-Hüquq Şurası;".

4. "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyun tarixli 1043 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 685 (Cild I); 2024, № 6 (I kitab), maddə 654, № 8, maddə 937) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissəyə "Ali Məhkəməsinə" sözlərindən sonra "və Məhkəmə-Hüquq Şurasına" sözləri əlavə edilsin və həmin hissədən "və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın" sözləri çıxarılsın;

4.2. 6-cı hissə aşağıdakı redaksiyada verilsin:

"6. Məhkəmə-Hüquq Şurasına tövsiyə edilsin ki, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə "Elektron məhkəmə" informasiya sisteminin təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görsün.";

4.3. həmin Fərmanla təsdiq edilmiş "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə" üzrə:

4.3.1. 1.4-cü bənddə "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin" sözləri "Məhkəmə-Hüquq Şurasının" sözləri ilə əvəz edilsin;

4.3.2. 2.1.3-cü yarımbənddə "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi" sözləri "Məhkəmə-Hüquq Şurası" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1206 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020,

№ 12 (I kitab), maddə 1468 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə" altsisteminə inteqrasiya olunacaq dövlət orqanlarının (qurumlarının) və digər aidiyyəti qurumların informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.3-cü bənd ləğv edilsin;

5.2. aşağıdakı məzmunda on birinci hissə əlavə edilsin:

| | Məhkəmə-Hüquq Şurası üzrə |
|---|---|
| 11.1. | "Elektron məhkəmə" informasiya sistemi |

6. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 13 fevral tarixli 268 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 156 (Cild I) 3-cü hissəsi ləğv edilsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 19 aprel 2025-ci il

§

## Bir sıra birinci instansiya məhkəmələri hakimlərinin təyin edilməsi və bəzi birinci instansiya məhkəmələri hakimlərinin vəzifələrinin dəyişdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından ÇIXARIŞ

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 94-cü və 96-cı maddələrinə uyğun olaraq, hakim vəzifəsinə aşağıdakı namizədlər birinci instansiya məhkəmələrinin hakimləri təyin edilsinlər:

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri üzrə:
***Naxçıvan Şəhər Məhkəməsi***
Heydarov Aslan Nazim oğlu

***Şərur Rayon Məhkəməsi***
Zeynalov İlkin Cəlal oğlu
...

2. “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq, aşağıdakı hakimlərin vəzifələri dəyişdirilsin:

Abil Elmar oğlu Orucəliyev Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Naxçıvan Muxtar Respublikası Şərur Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

...

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 3 iyun 2025-ci il

§

**“Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

Maddə 1. “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 23, maddə 996; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2025, № 2, maddə 104; Azərbaycan Respublikasının 2025-ci il 1 may tarixli 191-VIIQD nömrəli Qanunu) 2-ci maddəsinə “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923–2023)” yubiley medalı;” hissəsindən sonra aşağıdakı məzmunda yeni hissə əlavə edilsin:

“Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” yubiley medalı;”.

Maddə 2. "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə" təsdiq edilsin.

Maddə 3. "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri" təsdiq edilsin.

***İlham Əliyev***

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 23 may 2025-ci il

§

**"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun tətbiqi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası nəzərdə tutulur.

2. "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli 203-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 iyun 2025-ci il

§

## "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında ƏSASNAMƏ

*Azərbaycan Respublikasının 2025-ci il 23 may tarixli Qanunu ilə təsdiq edilmişdir*

**Maddə 1. Təltif edilən şəxslər**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə Məhkəmə-Hüquq Şurasının üzvləri və üzvü olmuş şəxslər, öz vəzifələrini nümunəvi yerinə yetirən, qüsursuz fəaliyyəti ilə fərqlənən hakimlər, Məhkəmə-Hüquq Şurasının aparatında və məhkəmələrin aparatlarında qulluq keçən dövlət qulluqçuları, məhkəmə sisteminin inkişafına töhfə vermiş və məhkəmə orqanları ilə səmərəli əməkdaşlıq edən digər şəxslər, habelə beynəlxalq tərəfdaşlar təltif edilirlər.

**Maddə 2. Təltif edən orqan**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə bu Əsasnamənin 1-ci maddəsində qeyd olunan şəxslər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təltif edilirlər.

**Maddə 3. Taxılma qaydası**

"Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda, onlardan sonra taxılır.

§

## "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalının təsviri

**Maddə 1**. Medalın ümumi təsviri "Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)" Azərbaycan Respublikasının yubiley medalı (bundan sonra – medal) bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, diametri 38 mm olan səkkizguşəli ulduz formalı lövhədən ibarətdir.

**Maddə 2. Medalın ön tərəfi**

2.1. Medalın ön tərəfində hər bir guşəsi qabarıq olan səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış dairəvi lövhə yerləşdirilmiş, xarici çevrənin ulduz təsviri yaradan səkkiz kənar çıxıntılı hissəsi relyefli xətlərlə işlənmiş və 1,3 mm enində hamar zolaqlarla konturlanmışdır.

2.2. Xarici və daxili konturların arasında tünd qırmızı minalı fonda yuxarı hissədə qövs boyunca "MƏHKƏMƏ-HÜQUQ ŞURASI" sözləri, aşağı hissədə mərkəzdə "20" rəqəmləri yazılmış, həmin rəqəmlərin sağında və solunda dəfnə yarpaqlarından ibarət çələng təsvir olunmuşdur.

2.3. Daxili çevrənin içərisində ay və səkkizguşəli ulduz, tərəzi və qılınc atributları, Azərbaycan xəritəsi təsvir edilmişdir. 2.4. Bütün yazılar, rəqəmlər və atributlar qızılı rəngdədir, qabarıqdır.

**Maddə 3. Medalın arxa tərəfi**

3.1. Medalın arxa tərəfinin səthi hamardır, 1,3 mm enində zolaqlarla konturlanmışdır və mərkəzində dörd sətrə bölünməklə "AZƏRBAYCAN RESPUBLİKASININ MƏHKƏMƏ-HÜQUQ ŞURASI" sözləri, sözlərdən aşağıda bir sətirdə "2005–2025" rəqəmləri yazılmışdır. Bütün yazılar qızılı rəngdədir.

3.2. Medalın arxa tərəfinin aşağı hissəsində medalın seriyası və nömrəsi göstərilir.

**Maddə 4. Medalın elementləri**

4.1. Medal paltarın yaxasına bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçülü beşbucaqlı xara lentə iki halqa və ilgək vasitəsilə birləşdirilir.

4.2. Xara lentin yuxarı hissəsinə üzərində dəfnə yarpaqlarından ibarət çələng təsvir olunmuş 40 mm x 5,5 mm ölçülü lövhə bərkidilmişdir.

4.3. Xara lentin mərkəzində 12 mm enində tünd qırmızı rəngli, mərkəzdən sol və sağ kənarlara doğru ardıcıl olaraq 3 mm enində açıq qırmızı rəngli, 3 mm enində tünd qırmızı rəngli, 3,5 mm enində açıq qızılı rəngli, 3 mm enində tünd qırmızı rəngli şaquli zolaqlar təsvir olunmuşdur.

4.4. Medala paltarın yaxasına bərkidilmək üçün elementi olan, eyni xara lentdən üz çəkilmiş 37 mm x 10 mm ölçülü qəlib əlavə edilir.

§

## Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamından Çıxarış

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq qərara alıram:

1. Dövlət qulluğunda səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

...

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

...

Qurbanova Gülay Əjdər qızı

…

**İlham Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 21 iyun 2025-ci il



# MƏHKƏMƏ FƏALİYYƏTİ

***MÜLKİ KOLLEGİYADAN***

## Məhkəmə fəaliyyətinə dair 2024-cü il üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2024-cü ildə 4143 mülki işə baxılmaqla nəticə verilmişdir. 2023-cü ildə isə həmin məhkəmələr tərəfindən 3935 mülki işə baxılmışdır. Bu onu göstərir ki, baxılan mülki işlərin sayı 2023-cü illə müqayisədə 2024-cü ildə 5,29% artmışdır.

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələrinin mülki işlər üzrə çıxardıqları qətnamə və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasında 192 apellyasiya şikayətinə baxılıb nəticə verilmişdir.

Apellyasiya şikayətləri ilə bağlı 192 mülki işdən 173 işə apellyasiya qaydasında baxılaraq 87 qətnamə və 30 qərardad dəyişdirilmədən saxlanılmış, 15 qətnamə dəyişdirilmiş, 36 qətnamə və 5 qərardad isə ləğv edilmişdir.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 369-cu maddəsində göstərilən əsasla 19 apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Apellyasiya şikayəti ilə əlaqədar kollegiyada baxılıb nəticə verilmiş işləri mülki hüquq münasibətlərinin mahiyyətinə görə təsnif etdikdə bu işlər üzrə göstəricilər aşağıdakı qaydada müəyyən olunur:

- ailə münasibətləri üzrə mübahisələr – 72 iş
- əmək mübahisələri – 5 iş
- mənzil mübahisələri – 12 iş
- mülkiyyət hüququ ilə əlaqədar mübahisələr– 5 iş
- torpaq mübahisələri – 4 iş
- müqavilənin bağlanması, dəyişdirilməsi və ləğv edilməsi, etibarsız hesab edilməsi, məcburi bağlanması üzrə mübahisələr – 10 iş

- müqavilələrdən əmələ gələn öhdəliklər üzrə mübahisələr – 34 iş
- mülki hüquq pozuntularından (deliktlərdən) əmələ gələn öhdəliklər üzrə mübahisələr – 9 iş
- vərəsəlik hüququ üzrə mübahisələr – 9 iş
- xüsusi icraat işləri – 1 iş
- sair mülki işlər – 12 iş

Naxçıvan Muxtar Respublikasının rayon (şəhər) məhkəmələri tərəfindən 2024-cü ildə baxılmış mülki işlər üzrə çıxarılan qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə məhkəmə təcrübəsinin təhlili göstərir ki, 2023-cü illə müqayisədə 2024-cü ildə apellyasiya şikayətlərinin sayı 23,87% artmışdır. Belə ki, 2023-cü ildə birinci instansiya məhkəmələri tərəfindən mülki işlər üzrə qəbul edilmiş qərarlardan verilmiş apellyasiya şikayətləri üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında 155 apellyasiya şikayətinə baxılmışdır.

Qəbul edilmiş qərarların sabitliyi üzrə göstərici 2023-cü illə müqayisədə 2024-cü ildə aşağı olmuşdur. Belə ki, 2024-cü ildə rayon (şəhər) məhkəmələri tərəfindən qəbul edilən 4143 qətnamə və qərardaddan 1,35%-i apellyasiya qaydasında dəyişdirilmiş və yaxud ləğv edilmişdirsə, 2023-cü ildə məhkəmələrin baxdığı işlər üzrə çıxarılan 3935 qətnamə və qərardaddan 1,19%-i dəyişdirilmiş və yaxud ləğv edilmişdir. Bu isə o deməkdir ki, məhkəmə qərarlarının sabitlik göstəricisi 2023-cü ildə 98,81%, 2024-cü ildə isə 98,65% təşkil etmişdir.

Statistik məlumatlara görə kollegiya tərəfindən 2024-cü ildə apellyasiya qaydasında baxılan qərarların 32,37%-nin ləğv edilməsinə və yaxud dəyişdirilməsinə həmin işlərə baxılarkən birinci instansiya məhkəmələri tərəfindən maddi və prosessual hüquq normalarının tələblərinin pozulması və məhkəmənin gəldiyi nəticə üçün mühüm əhəmiyyəti olan bütün halların aydınlaşdırılmaması səbəb olmuşdur.

Apellyasiya baxışının nəticələrinə görə muxtar respublikanın ayrı-ayrı məhkəmələri üzrə 2023 və 2024-cü illərə dair göstəricilər aşağıdakı cədvəllərdə göstərildiyi kimi olmuşdur.

2023-cü ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə | | | | | | Qərardad | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | | Ləğv edilmişdir | Dəyişdirilmişdir | Qüvvədə |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxlanılıb | İş aidiyyəti üzrə 1-ci ins.məhk.göndərilib | İşin icraatına xitam verilib | | | |
| Naxçıvan | 64 | 7 | 30 | 5 | 6 | 2 | 2 | 1 | 1 | | 10 |
| Babək | 18 | 2 | 8 | 1 | 1 | | | | 1 | | 5 |
| Şərur | 41 | 1 | 20 | 3 | 7 | | | 2 | 1 | | 7 |
| Şahbuz | 6 | | 1 | 1 | | | | 2 | 1 | | 1 |
| Kəngərli | 3 | | 1 | | | | | | 1 | | 1 |
| Culfa | 9 | | 6 | | | | | 1 | | | 2 |
| Ordubad | 11 | | 4 | | 3 | 1 | | 1 | 1 | | 1 |
| Sədərək | 3 | | 1 | 1 | 1 | | | | | | |
| YEKUN | 155 | 10 | 71 | 11 | 18 | 3 | 2 | 7 | 6 | | 27 |

2024-cü ildə apellyasiya qaydasında baxılan işlər üzrə məlumat:

| Məhkəmənin adı | Cəmi baxılıb | Ap.şik icr. xit.verilib | Q ə t n a m ə | | | | | | | Qərardad | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | Dəyişdirilmədən saxlanılıb | Dəyişdirilmişdir | Ləğv edilərək | | | | Qismən ləğv edilib | Ləğv edilmişdir | Dəyişdirilmişdir | Qüvvədə |
| | | | | | Yeni qətnamə çıxarılıb | Ərizə baxılmamış saxlanılıb | İş aidiyyəti üzrə 1-ci ins.məhk.göndərilib | İşin icraatına xitam verilib | | | | |
| Naxçıvan | 88 | 7 | 40 | 9 | 10 | 3 | | 3 | | 2 | | 14 |
| Babək | 15 | 1 | 5 | 1 | 1 | | | | | | | 7 |
| Şərur | 44 | 5 | 22 | 3 | 5 | 1 | | 2 | | 2 | | 4 |
| Şahbuz | 6 | 1 | 2 | | | | | | 2 | | | 1 |
| Kəngərli | 9 | 1 | 4 | | | | 1 | 1 | | | | 2 |
| Culfa | 18 | 4 | 10 | 1 | 1 | | 1 | | 1 | | | |
| Ordubad | 12 | | 4 | 1 | 3 | | 1 | | | 1 | | 2 |
| YEKUN | 192 | 19 | 88 | 15 | 19 | 4 | 3 | 6 | 3 | 5 | | 30 |

Apellyasiya qaydasında 2024-cü ildə ləğv edilmiş və yaxud dəyişdirilmiş məhkəmə qərarları üzrə ayrı-ayrı məhkəmələrin göstəricilərini bir-biri ilə, eləcə də həmin məhkəmələr tərəfindən çıxarılmış qətnamə və qərardadların ümumi sayı ilə müqayisə etdikdə müəyyən olur ki, qətnamə və qərardadların sabitliyi üzrə ən aşağı göstəriciyə Naxçıvan Şəhər Məhkəməsi, ən yüksək göstəriciyə isə Sədərək Rayon Məhkəməsi malikdir. Belə ki, 2024-cü ildə *Naxçıvan Şəhər Məhkəməsində* çıxarılan 1207 qərardan 25 qətnamə və 2 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 2,24%-i dəyişdirildiyinə və ya ləğv edildiyinə görə məhkəmə qərarlarının sabitliyi üzrə göstərici 97,76% olduğu halda, *Sədərək Rayon Məhkəməsinin* qətnamə və qərardadlarının sabitliyi üzrə göstərici 100% təşkil etmişdir. Çünki həmin dövrdə *Sədərək Rayon Məhkəməsi* tərəfindən çıxarılmış 147 qətnamə və qərardaddan apellyasiya şikayəti verilməmişdir.

*Babək Rayon Məhkəməsi* tərəfindən 2024-cü ildə çıxarılan 622 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,32%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,68% təşkil etmişdir.

*Kəngərli Rayon Məhkəməsi* tərəfindən 2024-cü ildə çıxarılan 261 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,77%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,23% təşkil etmişdir.

*Şahbuz Rayon Məhkəməsi* tərəfindən 2024-cü ildə çıxarılan 212 qətnamə və qərardaddan 2 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 0,94%-i ləğv edilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 99,06% təşkil etmişdir.

*Şərur Rayon Məhkəməsi* tərəfindən 2024-cü ildə çıxarılan 1071 qətnamə və qərardaddan 11 qətnamə və 2 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,21%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,79% təşkil etmişdir.

*Culfa Rayon Məhkəməsi* tərəfindən 2024-cü ildə çıxarılan 311 qətnamə və qərardaddan 4 qətnamə, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,29%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,71% təşkil etmişdir.

*Ordubad Rayon Məhkəməsi* tərəfindən 2024-cü ildə çıxarılan 312 qətnamə və qərardaddan 5 qətnamə və 1 qərardad, yəni həmin dövr ərzində çıxarılan qərarların 1,92%-i ləğv edilmiş və ya dəyişdirilmiş, beləliklə, məhkəmə qərarlarının sabitlik göstəricisi 98,08% təşkil etmişdir.

2023-cü ildə isə baxılmış işlər üzrə qəbul edilmiş qətnamə və qərardadların sabitlik göstəriciləri aşağıdakı kimi olmuşdur:

- *Culfa Rayon Məhkəməsi* – 99,69% (326 qətnamə və qərardaddan 1 qətnamə, yəni 0,31%-i ləğv edilmişdir);
- *Kəngərli Rayon Məhkəməsi*– 99,66% (290 qətnamə və qərardaddan 1 qərardad, yəni 0,34%-i ləğv edilmişdir);
- *Babək Rayon Məhkəməsi* – 99,45% (545 qətnamə və qərardaddan 2 qətnamə və 1 qərardad, yəni 0,55%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şərur Rayon Məhkəməsi* – 98,69% (993 qətnamə və qərardaddan 12 qətnamə və 1 qərardad, yəni 1,31%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Şahbuz Rayon Məhkəməsi* – 98,54% (274 qətnamə və qərardaddan 3 qətnamə və 1 qərardad, 1,46%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Naxçıvan Şəhər Məhkəməsi* – 98,51% (1144 qətnamə və qərardaddan 16 qətnamə və 1 qərardad, yəni 1,49%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Sədərək Rayon Məhkəməsi* – 98,31% (118 qətnamə və qərardaddan 2 qətnamə, yəni 1,69%-i ləğv edilmiş və ya dəyişdirilmişdir);
- *Ordubad Rayon Məhkəməsi* – 97,55% (245 qətnamə və qərardaddan 5 qətnamə və 1 qərardad, yəni 2,45%-i ləğv edilmişdir);

Qətnamə və qərardadların sabitliyi üzrə 2023 və 2024-cü illərə dair göstəricilərin müqayisəsi onu göstərir ki, Naxçıvan şəhər, Culfa və Kəngərli rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi 2023-cü illə müqayisədə aşağı düşmüş, Babək, Şahbuz, Ordubad, Şərur və Sədərək rayon məhkəmələrinin qətnamə və qərardadlarının sabitlik göstəricisi isə yüksəlmişdir.

Qətnamə və qərardadların sabitlik göstəricisi, yəni buraxılan məhkəmə səhvlərinin həcmi bir çox amillərlə yanaşı, həm də məhkəmələrin üzərinə düşən iş yükündən də asılı olmuşdur.

Muxtar respublika məhkəmələrinin mülki mühakimə icraatı üzrə iş yükünə görə təsnif etdikdə müəyyən olunur ki, 2023-cü ildə olduğu kimi 2024-cü ildə də ən çox mülki işə Naxçıvan Şəhər Məhkəməsində baxılmışdır. Belə ki, bu məhkəmədə 2023-cü ildə 1144 mülki işə, 2024-cü ildə isə 1207 mülki işə baxılmışdır.

Digər məhkəmələr üzrə iş yükü aşağıdakı kimi olmuşdur:

- *Şərur Rayon Məhkəməsi* – 1071 iş (2023-cü ildə 993 işə baxılmışdır);
- *Babək Rayon Məhkəməsi* – 622 iş (2023-cü ildə 545 işə baxılmışdır);
- *Culfa Rayon Məhkəməsi* – 311 iş (2023-cü ildə 326 işə baxılmışdır);
- *Ordubad Rayon Məhkəməsi* – 312 iş (2023-cü ildə 245 işə baxılmışdır);
- *Kəngərli Rayon Məhkəməsi* – 261 iş (2023-cü ildə 290 işə baxılmışdır);

- *Şahbuz Rayon Məhkəməsi* – 212 iş (2023-cü ildə 274 işə baxılmışdır);
- *Sədərək Rayon Məhkəməsi* – 147 iş (2023-cü ildə 118 işə baxılmışdır);

Göründüyü kimi 2023-cü illə müqayisədə 2024-cü ildə muxtar respublika məhkəmələrində mülki mühakimə icraatı üzrə iş yükü artmışdır.

*Məhkəmələr üzrə “nikahın pozulması” tələbinə dair işlər üzrə isə statistik göstəricilər aşağıdakı kimi olmuşdur:*

**Naxçıvan Şəhər Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 63 iş qalıq qalmış, 2024-cü ildə 233 mülki iş, ümumilikdə 296 mülki iş icraata daxil olmuşdur. 164 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 26 qərardad çıxarılmaqla 13 iş üzrə iddia baxılmamış saxlanılmış, 13 iş üzrə icraata xitam verilmişdir. 45 mülki iş üzrə ərizə geri qaytarılmış, 61 iş 2025-ci ilə qalıq qalmışdır.

**Şərur Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 67 iş qalıq qalmış, 2024-cü ildə 208 mülki iş, ümumilikdə 275 mülki iş icraata daxil olmuşdur. 148 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 30 qərardad çıxarılmaqla 9 iş üzrə iddia baxılmamış saxlanılmış, 21 iş üzrə icraata xitam verilmişdir. 20 mülki iş üzrə ərizə geri qaytarılmış, 77 iş 2025-ci ilə qalıq qalmışdır.

**Babək Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 31 iş qalıq qalmış, 2024-cü ildə 117 mülki iş, ümumilikdə 148 mülki iş icraata daxil olmuşdur. 92 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 12 qərardad çıxarılmaqla 5 iş üzrə iddia baxılmamış saxlanılmış, 7 iş üzrə icraata xitam verilmişdir. 9 mülki iş üzrə ərizə geri qaytarılmış, 35 iş 2025-ci ilə qalıq qalmışdır.

**Culfa Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 18 iş qalıq qalmış, 2024-cü ildə 77 mülki iş, ümumilikdə 95 mülki iş icraata daxil olmuşdur. 50 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 11 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 10 iş üzrə icraata xitam verilmişdir. 2 mülki iş üzrə ərizə geri qaytarılmış, 32 iş 2025-ci ilə qalıq qalmışdır.

**Kəngərli Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 19 iş qalıq qalmış, 2024-cü ildə 55 mülki iş, ümumilikdə 74 mülki iş icraata daxil olmuşdur. 48 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 5 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 4 iş üzrə icraata xitam verilmişdir. 4 mülki iş üzrə ərizə geri qaytarılmış, 17 iş 2025-ci ilə qalıq qalmışdır.

**Ordubad Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 25 iş qalıq qalmış, 2024-cü ildə 48 mülki iş, ümumilikdə 73 mülki iş icraata daxil

olmuşdur. 56 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 3 qərardad çıxarılmaqla 1 iş üzrə iddia baxılmamış saxlanılmış, 2 iş üzrə icraata xitam verilmişdir. 14 iş 2025-ci ilə qalıq qalmışdır.

**Şahbuz Rayon Məhkəməsi üzrə** - 2023-cü ildən 2024-cü ilə 15 iş qalıq qalmış, 2024-cü ildə 53 mülki iş, ümumilikdə 68 mülki iş icraata daxil olmuşdur. 41 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 2 qərardad çıxarılmaqla 2 iş üzrə icraata xitam verilmişdir. 8 mülki iş üzrə ərizə geri qaytarılmış, 17 iş 2025-ci ilə qalıq qalmışdır.

**Sədərək Rayon Məhkəməsi üzrə** - 2023-ci ildən 2024-cü ilə 19 iş qalıq qalmış, 2024-cü ildə 27 mülki iş, ümumilikdə 46 mülki iş icraata daxil olmuşdur. 23 mülki iş üzrə qətnamə çıxarılaraq iddia təmin edilmişdir. Həmin kateqoriya işlər üzrə 7 qərardad çıxarılmaqla 2 iş üzrə iddia baxılmamış saxlanılmış, 5 iş üzrə icraata xitam verilmişdir. 1 mülki iş üzrə ərizə geri qaytarılmış, 15 iş 2025-ci ilə qalıq qalmışdır.

2024-cü ildə məhkəmələr tərəfindən "nikahın ləğvi" tələbinə dair 64 iş (8,91%) üzrə icraata tərəflərin barışması səbəbindən xitam verilmişdir. Xitam verilmiş işlər üzrə məhkəmələrin göstəriciləri aşağıdakı kimi olmuşdur:

- Sədərək Rayon Məhkəməsi – 16,67% (30 işdən 5 işin icraatına xitam verilib);
- Culfa Rayon Məhkəməsi – 16,39% (61 işdən 10 işin icraatına xitam verilib);
- Şərur Rayon Məhkəməsi – 11,80% (178 işdən 21 işin icraatına xitam verilib);
- Kəngərli Rayon Məhkəməsi – 7,55% (53 işdən 4 işin icraatına xitam verilib);
- Naxçıvan Şəhər Məhkəməsi – 6,84% ( 190 işdən 13 işin icraatına xitam verilib);
- Babək Rayon Məhkəməsi – 6,73% (104 işdən 7 işin icraatına xitam verilib);
- Şahbuz Rayon Məhkəməsi – 4,65 % (43 işdən 2 işin icraatına xitam verilib);
- Ordubad Rayon Məhkəməsi – 3,39% (59 işdən 2 işin icraatına xitam verilib);

2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasında baxılan mülki işlər üzrə qəbul olunmuş qətnamə və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki

Kollegiyasına 36 kassasiya şikayəti verilmiş, onlardan 31 kassasiya şikayətinə baxılaraq 22 qətnamə və 4 qərardad dəyişdirilmədən saxlanılmış, 4 qətnamə və 1 qərardad ləğv edilmişdir. 1 qətnamə və 1 qərardaddan verilən kassasiya şikayəti qeyri-mümkün hesab edilərək geri qaytarılmış, 3 qətnamədən verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ildə qəbul edilən qərarlar üzrə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının sabitlik göstəricisi 97,11 % təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***KOMMERSİYA KOLLEGİYASINDAN***

**Məhkəmə fəaliyyətinə dair 2024-cü il üzrə statistik məlumatların təhlili**

2024-cü ildə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatında ümumilikdə 661 kommersiya mübahisələrinə dair iş olmuş, onlardan 120 iş 2023-cü ildən cari ilə qalıq qalmış, 541 iş isə 2024-cü ildə daxil olmuşdur.

Kommersiya mübahisələrinə dair işlərdən 563 işə mahiyyəti üzrə baxılmaqla 525 iş üzrə iddia təmin edilmiş, 7 iş üzrə iddia rədd edilmiş, 10 iş üzrə iddia baxılmamış saxlanılmış, 21 işin icraatına xitam verilmişdir. 38 iş üzrə iddia ərizəsi geri qaytarılmış, 60 kommersiya mübahisələri üzrə iş isə 2025-ci ilə qalıq qalmışdır.

2023-cü illə müqayisədə 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsinin icraatına daxil olan kommersiya mübahisələrinə dair işlərin sayı 62,81% artmışdır. Belə ki, 2023-cü ildə həmin məhkəmənin icraatına kommersiya mübahisələrinə dair 406 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, Kommersiya Məhkəməsinə 2024-cü ildə daxil olan işlərin böyük əksəriyyətini vergi ödəyicisi olan fiziki şəxslərin və ya hüquqi şəxslərin icra orqanının rəhbərinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə mübahisələr üzrə (373 iş - yəni 56,43%) və hüquqi şəxslər və fərdi sahibkarlıq fəaliyyəti subyektləri arasında yaranan mübahisələr üzrə (218 iş - yəni 32,98%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının Kommersiya Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş məhkəmə aktlarından 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasına 26 apellyasiya şikayəti verilmiş, onlardan 22 apellyasiya şikayətinə baxılaraq 9 qətnamə və 2 qərardad dəyişdirilmədən saxlanılmış, 2 qətnamə dəyişdirilmiş, 7 qətnamə və 2 qərardad ləğv edilmişdir. 3 qətnamədən verilən apellyasiya şikayəti qeyri-mümkün hesab edilmiş, 1 qətnamədən verilən apellyasiya şikayətinin icraatına isə xitam verilmişdir.

Müqayisə üçün qeyd edək ki, kommersiya mübahisələrinə dair işlər üzrə çıxarılan məhkəmə aktlarından verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ildə kollegiyada 20 apellyasiya şikayətinə baxılmışdır.

2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasında baxılan kommersiya mübahisələri üzrə qəbul olunmuş qətnamələrdən Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasına 7 kassasiya şikayəti verilmiş, həmin kassasiya şikayətlərinə baxılaraq 6 qətnamə dəyişdirilmədən saxlanılmış, 1 qətnamə isə ləğv edilmişdir.

Beləliklə, 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sabitlik göstəricisi 96,15% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

***İNZİBATİ KOLLEGİYADAN***

**Məhkəmə fəaliyyətinə dair 2024-cü il üzrə statistik məlumatların təhlili**

2024-cü ildə Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatında ümumilikdə 1628 inzibati mübahisələrə dair iş olmuş, onlardan 638 iş 2023-cü ildən cari ilə qalıq qalmış, 990 iş isə 2024-cü ildə daxil olmuşdur.

İnzibati mübahisələrə dair işlərdən 879 işə mahiyyəti üzrə baxılmaqla 313 iş üzrə iddia tələbi təmin edilmiş, 25 iş üzrə iddia tələbi rədd edilmiş, 541 işin icraatına xitam verilmişdir. 114 iş üzrə iddia mümkünsüz hesab edilmiş, 1 iş üzrə iddia tələbi aidiyyatı üzrə başqa məhkəməyə göndərilmiş, 634 iş isə 2025-ci ilə qalıq qalmışdır.

2023-cü illə müqayisədə 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsinin icraatına daxil olan inzibati mübahisələrə dair işlərin sayı 9,56% azalmışdır. Belə ki, 2023-cü ildə həmin məhkəmənin icraatına inzibati mübahisələrə dair 1800 iş daxil olmuşdur.

Məhkəmə təcrübəsinin təhlili göstərir ki, İnzibati Məhkəməyə 2024-cü ildə daxil olan işlərin böyük əksəriyyətini öhdəliyin icrası haqqında (1470 iş - yəni 90,29%) və mübahisələndirmə haqqında (110 iş - yəni 6,76%) iddia tələbinə dair işlər təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının İnzibati Məhkəməsində baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasına 111 apellyasiya şikayəti verilmiş, onlardan 99 apellyasiya şikayətinə baxılaraq 50 qərar və 31 qərardad dəyişdirilmədən saxlanılmış, 1 qərar dəyişdirilmiş, 9 qərar və 8 qərardad ləğv edilmişdir. 1 qərar və 4 qərardaddan verilən şikayətin icraatına xitam verilmiş, 1 qərardaddan verilən şikayət apellyasiya baxışından çıxarılmış, 1 qərar və 5 qərardaddan verilən apellyasiya şikayəti isə mümkün sayılmayaraq şikayətin qəbulundan imtina edilmişdir.

Müqayisə üçün qeyd edək ki, inzibati mübahisələrə dair işlər üzrə çıxarılan qərar və qərardadlardan verilmiş apellyasiya şikayətləri üzrə 2023-cü ildə kollegiyada 58 apellyasiya şikayətinə baxılmışdır.

2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasında baxılan işlər üzrə qəbul olunmuş qərar və qərardadlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasına 72 kassasiya şikayəti verilmiş, onlardan 20 kassasiya şikayətinə baxılaraq 9 qərar və 5 qərardad dəyişdirilmədən saxlanılmış, 5 qərar və 1 qərardad ləğv edilmişdir. 32 qərar və 11 qərardaddan verilən kassasiya şikayəti mümkün sayılmayaraq şikayətin qəbulundan imtina edilmiş, 9 qərardan verilmiş kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin İnzibati Kollegiyasının sabitlik göstəricisi 94,59% təşkil etmişdir.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈

≈ ≈ ≈ ≈ ≈ ≈

≈ ≈ ≈

***CİNAYƏT KOLLEGİYASINDAN***

## Məhkəmə fəaliyyətinə dair 2024-cü il üzrə statistik məlumatların təhlili

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin ərazi yurisdiksiyasına aid olan muxtar respublika məhkəmələri tərəfindən 2024-cü ildə 311 nəfərin barəsində 284 cinayət işinə mahiyyəti üzrə baxılmışdır. Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə həmin məhkəmələr tərəfindən 269 nəfərin barəsində 237 cinayət işinə baxılmışdır.

Birinci instansiya məhkəmələri tərəfindən 2024-cü ildə baxılmış 248 cinayət işi üzrə 270 nəfərin barəsində ittiham hökmü çıxarılmışdır.

*İttiham hökmünün çıxarılması ilə nəticələnən işləri* obyektə görə qruplaşdırdıqda 2023 və 2024-cü illərə dair göstəricilər aşağıdakı kimi olmuşdur:






Diaqramlardan göründüyü kimi 2023-cü ildən fərqli olaraq 2024-cü ildə ekoloji, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı, hərbi xidmət əleyhinə, həyat və sağlamlıq əleyhinə, mülkiyyət əleyhinə, ədalət mühakiməsi əleyhinə, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə və ictimai mənəviyyat əleyhinə olan cinayətlər artmış, idarəetmə qaydası əleyhinə, ictimai təhlükəsizlik əleyhinə və iqtisadi fəaliyyət sahəsində olan cinayətlər azalmış, insan və vətəndaşın konstitusiya hüququ və azadlıqları əleyhinə, şəxsiyyətin azadlığı və ləyaqəti əleyhinə olan cinayətlər üzrə göstəricilər isə dəyişməmişdir. 2023-cü ildən fərqli olaraq 2024-cü ildə sair cinayətlərə dair işlər daxil olmamış, dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə dair işlər daxil olmuşdur.

2023 və 2024-cü illərdə məhkumlara təyin olunan cəzalar aşağıdakı kimi olmuşdur:







Diaqramlardan göründüyü kimi müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilənlər 2023-cü ildə məhkum edilmiş şəxslərin 36,19%-ni, 2024-cü ildə isə məhkum olunanların 42,96%-ni təşkil etmiş, yəni 2023-cü illə müqayisədə 2024-cü ildə cəzaların ümumi kütləsində azadlıqdan məhrum etmə cəzasının həcmi 6,77% artmış, azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaların həcmi isə əksinə 6,77% azalmışdır (ümumilikdə götürüldükdə).

2023 və 2024-cü illərdə baxılan cinayət işlərinə dair göstəricilər ayrı-ayrılıqda muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə aşağıdakı kimi olmuşdur:






Diaqramlardan göründüyü kimi 2023-cü ildən fərqli olaraq 2024-cü ildə Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsində, Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsində, Naxçıvan şəhər, Şərur və Babək rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı artmış, Culfa, Kəngərli, Şahbuz və Sədərək rayon məhkəmələrində baxılmış cinayət işlərinin sayı azalmış, Ordubad Rayon Məhkəməsində baxılmış cinayət işlərinin sayı isə dəyişməmişdir.

2024-cü ildə birinci instansiya məhkəmələrində baxılmış cinayət işləri üzrə çıxarılan hökmlərdən verilmiş apellyasiya şikayətlərinə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasında baxılaraq 52 hökm dəyişdirilmədən saxlanılmış, 23 hökm dəyişdirilmiş, 3 hökm isə ləğv edilmişdir.

Dəyişdirilən və ləğv edilən hökmlər muxtar respublikanın birinci instansiya məhkəmələrinin 2024-cü ildə çıxardıqları bütün hökmlərin 10,48%-ni təşkil etdiyi üçün məhkəmələr üzrə hökmlərin sabitlik göstəricisi 89,52% olmuşdur.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış hökmlərin sabitlik göstəricisi 92,89% təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələri tərəfindən xüsusi icraat qaydasında 2024-cü ildə 621 işə (materiala) baxılmışdır. 2023-cü illə müqayisədə bu göstərici 30,19% artmışdır (həmin dövrdə 477 işə baxılmışdır).

2024-cü ildə xüsusi icraat qaydasında həll edilən işlərdən 392 iş (63,12%) telefon danışıqlarına qulaq asma, 76 iş (12,24%) həbs qətimkan tədbirinin seçilməsi, 17 iş (2,74%) həbsdə saxlam müddətinin uzadılması, 18 iş (2,90%) cəza çəkməkdən şərti olaraq vaxtından əvvəl azad etmə, 4 iş (0,64%) texniki rabitə kanallarından və digər texniki vasitələrdən məlumatların çıxarılması, 9 iş (1,45%) ev dustaqlığı, 6 iş (0,97%) təqsirləndirilən şəxsin tibb müəssisəsinə yerləşdirilməsi, 34 iş (5,48%) maliyyə əməliyyatları barədə məlumatların ələ keçirilməsi, 4 iş (0,64%) cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətlərinin və ya qərarlarının qanuniliyinin yoxlanılması, 8 iş (1,29%) tibbi xarakterli məcburi tədbirlərin ləğv edilməsi, 6 iş (0,97%) cəzaçəkmə müəssisəsinin növünün dəyişdirilməsi, 1 iş (0,16%) xəstəliyə görə cəza çəkməkdən azad etmə, 2 iş (0,32%) cəzanın çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəzləşdirilməsi, 1 iş (0,16%) hökmün və ya məhkəmənin digər yekun qərarının icrası zamanı şübhələrin və anlaşılmazlıqların həll edilməsi, 23 iş (3,70%) hökmün və məhkəmənin digər yekun qərarının

icrasına dair başqa məsələlərin həll edilməsi və 20 iş (3,22%) digər məsələlər barədə olmuşdur.

Muxtar respublikanın birinci instansiya məhkəmələri üzrə xüsusi icraat qaydasında baxılan işlərlə əlaqədar 2023 və 2024-cü illərin göstəriciləri aşağıdakı diaqramlarda təsvir edildiyi kimi olmuşdur:






Naxçıvan Muxtar Respublikasının birinci instansiya məhkəmələrində 2024-cü ildə 1134 nəfərin barəsində 1134 inzibati xəta haqqında işə baxılmışdır. Bunlardan 40 nəfərin barəsində 40 iş səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət olmuşdur.

2023-cü illə müqayisədə 2024-cü ildə baxılan inzibati xəta haqqında işlərin sayı 4,42%, inzibati xəta törətmiş şəxslərin sayı 4,23 % artmışdır (2023-cü ildə 1088 nəfərin barəsində 1086 inzibati xəta haqqında işə baxılmışdır).

2024-cü ildə barəsində inzibati tənbeh tətbiq olunan şəxslərdən 321 nəfərə (28,31%) inzibati həbs, 375 nəfərə (33,07%) inzibati cərimə, 40 nəfərə (3,53%) inzibati xəta törətməkdə alət və ya inzibati xətanın bilavasitə obyekti olmuş predmetin müsadirəsi, 29 nəfərə (2,56%) inzibati xəta törətmiş şəxsin ona verilmiş xüsusi hüququn məhdudlaşdırılması, 5 nəfərə (0,44%) ictimai işlər növündə inzibati tənbeh tədbirləri tətbiq olunmuş, 324 nəfərin (28,57%) barəsində 324 inzibati xəta haqqında işin icraatına isə xitam verilmişdir.

Səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən şikayət üzrə 13 qərar ləğv edilmiş, 27 qərar isə dəyişdirilmədən saxlanılmışdır.

İnzibati tənbeh tədbirinin tətbiqinə dair qərarın çıxarılması ilə nəticələnən inzibati xətaları növünə görə qruplaşdırdıqda 2023 və 2024-cü illərə dair göstəricilər aşağıdakı diaqramlarda təsvir olunduğu kimi olmuşdur:






Göründüyü kimi 2023-cü illə müqayisədə 2024-cü ildə muxtar respublika məhkəmələri tərəfindən baxılan sağlamlıq əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 7,69%, siyasi, sosial və əmək hüquqları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 2 dəfə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 2,15 dəfə, yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 8,89%, gömrük qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 9,30%, hərbi xidmət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 80,49% artmış, mülkiyyət əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 52%, ticarət qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 50%, ictimai qayda, ictimai təhlükəsizlik və ictimai mənəviyyat əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 36,55%, idarəçilik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 27,74%, digər inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı 31,11% azalmış, əhalinin sanitariya-gigiyena və sanitariya-

epidemioloji salamatlığı qaydaları əleyhinə olan inzibati xətalarla bağlı barəsində inzibati tənbeh tətbiq edilən şəxslərin sayı dəyişməmişdir.

Ötən ildən fərqli olaraq 2024-cü ildə muxtar respublika məhkəmələrinin icraatına iqtisadi fəaliyyət qaydaları əleyhinə, ətraf mühitin mühafizəsi, təbiətdən istifadə və ekoloji təhlükəsizlik qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər daxil olmuşdur.

Baxılmış inzibati xətalara dair işlər üzrə muxtar respublika məhkəmələrinin 2023 və 2024-cü illərə dair göstəriciləri aşağıdakı diaqramlarda təsvir edildiyi kimi olmuşdur:




2024-cü ildə muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən baxılmış inzibati xətalara dair işlər üzrə çıxarılmış qərarlardan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasına 60 apellyasiya şikayəti verilmişdir.

Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin 7, Naxçıvan Şəhər Məhkəməsinin 17, Babək Rayon Məhkəməsinin 6, Şərur Rayon Məhkəməsinin 10, Ordubad Rayon Məhkəməsinin 1, Culfa Rayon Məhkəməsinin 3, Şahbuz Rayon Məhkəməsinin 1, Sədərək Rayon Məhkəməsinin 1 qərarından, Naxçıvan Şəhər Məhkəməsinin 1, Culfa Rayon Məhkəməsinin 1, Ordubad Rayon Məhkəməsinin 1 qərardadından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərar və qərardadlar dəyişdirilmədən saxlanılmış, Şərur Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətinə baxılaraq qərar dəyişdirilmiş, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin 2, Naxçıvan Şəhər Məhkəməsinin 3, Şərur Rayon Məhkəməsinin 4, Kəngərli Rayon Məhkəməsinin 1 qərarından verilmiş apellyasiya şikayətlərinə baxılaraq qərarlar ləğv edilmişdir.

Beləliklə, muxtar respublikanın birinci instansiya məhkəmələri tərəfindən 2024-cü ildə inzibati xətalar haqqında işlər üzrə çıxarılan qərarlardan 0,97% ləğv edildiyindən və dəyişdirildiyindən qərarların sabitlik göstəricisi 99,03% təşkil etmişdir.

Müqayisə üçün qeyd edək ki, 2023-cü ildə birinci instansiya məhkəmələri tərəfindən çıxarılmış qərarların sabitlik göstəricisi 96,78% təşkil etmişdir.

2024-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasında baxılan işlər üzrə çıxarılan qərarlardan Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasına 22 kassasiya şikayəti verilmiş, onlardan 16 kassasiya şikayətinə baxılaraq qərarlar dəyişdirilmədən saxlanılmış, 2 kassasiya şikayətinə baxılaraq qərarlar dəyişdirilmiş, 4 kassasiya şikayəti isə hazırda Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının icraatında baxılmaqdadır.

Beləliklə, 2024-cü ilin birinci yarısında Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasında qəbul edilən qərarların sabitlik göstəricisi 96,67% təşkil etmişdir.

≈≈≈≈≈≈≈≈≈

≈≈≈≈≈≈

≈

# VAHİD MƏHKƏMƏ TƏCRÜBƏSİ BAXIMINDAN ƏHƏMİYYƏTLİ OLAN MƏHKƏMƏ AKTLARI

## Mülki işlər üzrə ** statuslu qərar

*İşin nömrəsi: 2(108)-4/2025*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***

İddiaçı XX ASC-nin cavabdehlərə qarşı "ölmüş şəxsin kredit borcunun mirası qəbul etmiş vərəsələrdən tutulması" tələbinə dair mülki iş üzrə Babək Rayon Məhkəməsinin xx.xx. 2024-cü il tarixli qətnaməsi ilə iddianın qismən təmin edilməsi qərara alınmışdır. Birinci instansiya məhkəməsi isə mövqeyini borclunun ölümü halında onun hüquq və vəzifələrinin universal hüquq varisliyi qaydasında mirası qəbul etmiş vərəsələrə keçməsi və cavabdehlərin miras qoyanın kreditorları qarşısında qəbul etdikləri miras əmlak həddində birgə məsuliyyət daşıması ilə əsaslandırmışdır.

***Apellyasiya instansiyası məhkəməsinin mövqeyi***

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1146-cı maddəsinə görə miras qoyanın öldüyü gün və ya fiziki şəxsin ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı vaxt sayılır.

Həmin Məcəllənin 1151.1-ci maddəsinə görə mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir.

Həmin Məcəllənin 1151.2-ci maddəsinə görə mirasa ümumi mülkiyyətdən ölənə çatası pay, əmlakın naturada bölünməsi mümkün olmadıqda isə bu əmlakın dəyəri daxildir.

Həmin Məcəllənin 1159.1-1159.1.1-ci maddələrinin tələbinə əsasən qanun üzrə vərəsəlik zamanı ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) bərabər pay hüquqlu birinci növbədə vərəsələr sayılırlar.

Həmin Məcəllənin 1255-ci maddəsinə görə qəbul edilmiş miras onun açıldığı gündən vərəsənin mülkiyyəti sayılır.

Həmin Məcəllənin 1256-cı maddəsinə görə vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzrlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər. Mirasın qəbulundan imtina notariat orqanında rəsmiləşdirilməlidir.

Həmin Məcəllənin 1306.1-ci maddəsinə görə vərəsələr miras qoyanın kreditorlarının mənafelərini alınmış aktivdə özlərindən hər birinin payına mütənasib surətdə birgə borclu kimi tam ödəməyə borcludurlar.

Həmin Məcəllənin 1307-ci maddəsinə görə mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir.

***"İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun*** *14.1 və 14.1.3-cü maddələrinə əsasən fərdi qəza sığortası üzrə sığorta olunanın və ya mülki məsuliyyət sığortası üzrə üçüncü şəxsin ölümü sağlamlığına dəyən zərər hesab edilir.*

*Həmin Qanunun 14.2-14.2.1-ci maddələrinin tələbinə görə sığorta hadisəsi nəticəsində sığorta olunanın və ya üçüncü şəxsin sağlamlığına vurulan zərərin əvəzi zərərçəkənin ölməsi zamanı, sığorta məbləğinin 100 faizi nisbətində ödənilir.*

Mübahisə iddiaçı ilə miras qoyan arasında bağlanmış 13.10.2020-ci il tarixli tam kart çərçivə müqaviləsinə əsasən 2499,97 manat əsas, 54,45 manat faiz borcu olmaqla, cəmi 2554,42 manat borcun və 22.10.2021-ci il tarixli kredit müqaviləsinə əsasən 3891,25 manat borcun, ümumilikdə 6445,67 manat kredit borcunun mərhumun vərəsələri olan cavabdehlər tərəfindən iddiaçıya ödənilməməsi ilə bağlıdır.

İddiaçı və miras qoyan azad surətdə, hər iki tərəfin razılaşdırılmış iradə ifadəsi əsasında, tələb olunan formada kredit müqavilələri bağlamaqla rəsmiləşdirmiş, hər bir tərəfin hüquq, vəzifə və öhdəlikləri müəyyən olunmuş, yəni həmin müqavilələr mülki qanunvericilikdə müəyyənləşdirilmiş şərtlərə riayət olunmaqla bağlanmışdır. Bu müqavilələr mübahisələndirilməmiş, onların etibarsızlığını təsdiq edən hər hansı bir sübut təqdim olunmamış və bununla bağlı heç bir mötəbər dəlil müəyyən edilməmişdir.

Miras qoyan 27.04.2022-ci il tarixdə vəfat etmiş, cavabdehlər Mülki Məcəllənin 425.1 və 427.3-cü maddələrinin tələblərinə əməl etməyərək iddiaçı qarşısında kredit müqavilələri üzrə öhdəlikləri icra etməmiş, iddiaçı isə öz hüququnun və ya qanunla qorunan mənafeyinin müdafiəsi və yaxud təsdiqi üçün məhkəməyə müraciət etmişdir.

Belə ki, borclunun ölümü ilə onun öhdəliklərinin aradan qalxmasının və bununla da bağlanmış müqavilələrin hüquqi təminatdan məhrum olmasının qarşısının alınmasına xidmət edən institutlardan biri vərəsəlik institutudur...

"Mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən miras qoyanın əmlak xarakterli öhdəlikləri üzrə borcluya çevrildiyindən, onlar miras qoyanın kreditorları qarşısında öhdəliyin icrasına görə birgə məsuliyyət daşıyırlar". *("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269.1, 269.5, 460.1 və 1306.1-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2023-cü il 19 aprel tarixli qərar).*

Borclunun kredit müqaviləsindən irəli gələn vəzifələri şəxsə bağlı olmayan və şəxsən icranı tələb etməyən, üçüncü şəxslər tərəfindən icrası mümkün olan əmlak xarakterli öhdəliklərdir. Bu səbəbdən də kredit müqaviləsi üzrə borclunun ölümü ilə öhdəliklərinə xitam verilmir və bu öhdəliklər miras qoyanın vərəsələri tərəfindən icra edilməlidir.

Borclunun ölümündən sonra, ilk növbədə, mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar. Miras qoyanın kreditorları tərəfindən vərəsələrə qarşı öhdəliyin icrası tələbi irəli sürülərkən, mirasın qəbulu ilə bağlı qanunvericilikdə müəyyən edilmiş müddətlər nəzərə alınmalıdır. Vərəsələr və zamin borclu öldükdən sonra əsas borcdan əlavə, faiz borcuna görə də məsuliyyət daşıyırlar *("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 472.1 və 1306-cı maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2018-ci il 4 iyun tarixli qərar).*

Vərəsəlik hüququ vasitəsilə mülki dövriyyə iştirakçıları olan fiziki şəxslərin ölməsi halında onların sağlığında qurduqları hüquqi münasibətlərdən irəli gələn hüquq və öhdəliklərinin aradan qalxmaması, vərəsələri tərəfindən həyata keçirilməsi üçün hüquqi şərait yaradılır ki, nəticədə mülki dövriyyənin davamlılığı və fasiləsizliyi təmin edilməklə hüquqi müəyyənlik və hüquqi etimad prinsipləri qorunmuş olur *("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246, 1248.1 və 1268.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2022-ci il 14 oktyabr tarixli qərar).*

İddia ərizəsinə əlavə olunan, Bakı şəhəri 23 saylı notariat ofisi tərəfindən verilmiş 12.02.2023-cü il tarixli, 2V-37 reyestr nömrəli "qanun üzrə vərəsəlik hüququ haqqında şəhadətnamə"dən məlum olur ki, 27.04.2022-ci il tarixdə vəfat etmiş miras qoyanın vərəsələri: cavabdeh 1, cavabdeh 2 və cavabdeh 3-dür və onların hər biri miras əmlakdan 1/3 irs almalıdır. Şəhadətnamə verilən miras əmlak "X Sığorta" ASC-nin 06.02.2023-cü il tarixli 05/01-288 nömrəli

məktubuna əsasən miras qoyanın ölümü ilə əlaqədar Azərbaycan Respublikasının "İcbari sığortalar haqqında" Qanununun 14.2.1-ci maddəsinə əsasən ***5000*** manat pul məbləğindən ibarətdir.

Qanun üzrə vərəsəlik zamanı ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) bərabər pay hüquqlu birinci növbədə vərəsələr sayılırlar *(Mülki Məcəllənin 1159.1-1159.1.1-ci maddələri).*

Kollegiya qeyd edir ki, birinci instansiya məhkəməsi "cavabdehlərin miras qoyanın kreditorları qarşısında qəbul etdikləri miras əmlak həddində birgə məsuliyyət daşımalarını, iş üzrə mirasın açılması faktını, vərəsələrin dairəsini və miras kütləsini özündə əks etdirən vərəsəlik şəhadətnaməsinin məhkəmə üçün iş üzrə miras kütləsinin həcmini və vərəsələrin mirası qəbulu faktını təsdiqləyən sənəd olmasını və bunun əksini təsdiq edən sübutların cavabdehlər tərəfindən məhkəməyə təqdim olunmamasını" nəzərə almaqla "iddianın qismən təmin olunması, iki müqavilə üzrə cəmi 6445,67 manat borcdan mirasın qəbul edilmiş 1/3 hissəsinə müvafiq olaraq cavabdehlərin hər birindən 1666,66 manat borcun birgə borclu kimi tutularaq iddiaçının xeyrinə ödənilməsi, iddianın qalan hissədə rədd edilməsi" qənaətinə gəlməkdə haqlı olmamış və düzgün nəticəyə gəlməmişdir.

***Kollegiya bununla bağlı cavabdeh tərəfin apellyasiya şikayətinin dəlilləri ilə razılaşaraq hesab edir ki, qeyd olunan 5000 manat məbləğində birdəfəlik ödəmə miras qoyanın ölümü ilə əlaqədar onun ailə üzvlərinə (cavabdehlərə) verilməklə sağlığında əldə etdiyi əmlak və digər maddi nemət, yəni miras qoyana məxsus əmlak dəyəri olmadığından miras əmlak sayıla bilməz.***

Belə ki, fərdi qəza sığortası üzrə sığorta olunanın və ya mülki məsuliyyət sığortası üzrə üçüncü şəxsin ölümü sağlamlığına dəyən zərər hesab edilir.

Sığorta hadisəsi nəticəsində sığortaolunanın və ya üçüncü şəxsin sağlamlığına vurulan zərərin əvəzi zərərçəkənin ölməsi zamanı, sığorta məbləğinin 100 faizi nisbətində ödənilir *("İcbari sığortalar haqqında" Qanunun14.1 və 14.1.3, 14.2-14.2.1-ci maddələri).*

Mirasa (miras əmlaka) miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir (Mülki Məcəllənin 1151.1-ci maddəsi).

Həmçinin, *Konstitusiya Məhkəməsi Plenumunun "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.5-ci maddəsinin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1151.1, 1152, 1243, 1255 və 1321-ci maddələri baxımından şərh edilməsinə dair"*

*2022-ci il 8 dekabr tarixli qərarında* formalaşdırdığı hüquqi mövqeyə görə, icbari sığorta münasibətləri üzrə sığorta ödənişinin, eləcə də ailə başçısını itirməyə görə əmək pensiyasının ödənilməsinin nəzərdə tutulmasında qanunvericinin məqsədi ailə başçısının itirilməsi və ya sığortaolunanın ölümü ilə əlaqədar ailəsinin maddi dəstəkdən məhrum olması səbəbindən yaranan zərərin pensiya və ya sığorta ödənişinin ödənilməsi yolu ilə qismən də olsa aradan qaldırılmasıdır...

Sığorta ödənişi hər bir halda sığortaolunanın ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılmasına yönəlmişdir...

Vərəsəlik institutu hər bir şəxsin sağlığında əldə etdiyi əmlak və digər maddi nemətlərin (onların yüklülükləri ilə birlikdə) ölümündən sonra onun iradəsinə uyğun olaraq ifadə etdiyi vərəsələrinə, iradəsini ifadə etmədiyi təqdirdə isə qanunla müəyyən edilən vərəsələrinə keçməsini ehtiva edir. Yəni, miras əmlak miras qoyanın öldüyü anadək mövcud olan və ona mənsub olan əmlakı ifadə edir. Hər hansı iqtisadi dəyərin miras əmlaka daxil olması üçün həmin iqtisadi dəyərin miras qoyanın sağlığında onun əmlakında olması mütləqdir.

Fiziki şəxsin ölümü ilə xitam olunmayan bütün əmlak hüquq və vəzifələri qanunda nəzərdə tutulan qaydada vərəsələrə keçir. Həmin hüquq və vəzifələrin məcmusu vərəsəlik hüquq münasibətinin obyektini (predmetini) təşkil edir və mülki qanunvericilikdə miras əmlak (miras, miras kütləsi) anlayışı ilə əhatə olunur.

Miras əmlak (miras) dedikdə, ölən fiziki şəxsin (miras qoyanın) vərəsəlik hüquq normaları ilə müəyyənləşdirilən qaydada vərəsələrə keçən əmlak hüquq və vəzifələrinin məcmusu başa düşülür.

Əmlak hüquqlarının məcmusunu miras aktivi, əmlak vəzifələrinin məcmusunu isə miras passivi təşkil edir. Passiv miras qoyanın öldüyü məqamadək icra etməyə borclu olduğu öhdəliklərdir, yəni ödəməli olduğu borclardır.

Qanunvericiliyə əsasən mirasın tərkibinə miras qoyanın sağlığında mülkiyyət hüququ əldə etdiyi daşınmaz (torpaq, mənzil, bağ evi və s.) və rəsmi reyestdə qeydə alınan daşınar əmlak (nəqliyyat vasitələri və s.), daş-qaş (qızıl-gümüş, cəvahirat) məmulatları və digər zinət şeyləri, nağd pul, qiymətli kağızlar, ümumi mülkiyyətdəki pay hüququ və s. daxil edilir.

Vərəsəlik hüququ haqqında şəhadətnamə isə həm bütün miras, həm də onun bir hissəsi üçün verilə bilər.

Vərəsələrin mirası qəbul etməsi faktını təsdiqləyən sənəd vərəsəlik şəhadətnaməsidir və Mülki Məcəllənin 1321.1-ci maddəsinə müvafiq olaraq

vərəsəliyə çağırılmış şəxslər mirasın açıldığı yerdəki notariat orqanından vərəsəlik şəhadətnaməsi tələb edə bilərlər. Lakin vərəsəlik şəhadətnaməsi mirasın qəbulu faktını rəsmiləşdirən sənəd olmaqla, sadəcə hüquqtəsdiqedici xarakter daşıyır və şəhadətnamənin olmaması vərəsənin mirası qəbul etməməsini ifadə etmir *("Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1291 və 1321.1-ci maddələrinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 24.1-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair" 2021-ci il 26 iyul tarixli qərar).*

Kollegiya nəzərə alır ki, iş üzrə sübutetmə predmetinə daxil olan halların təqdim edilməsi yükü tərəflərin üzərinə düşür; məhz tərəflər bu halların mövcud olub-olmamasını sübut etməyə borcludurlar; prosesdə həqiqəti isə ədalət mühakiməsi orqanı olaraq məhkəmə müəyyən edir. Nəticədə hüquqi həqiqət prinsipi mülki prosesdə tərəflər və məhkəmə arasında müəyyən iş bölgüsünə gətirib çıxarır: tərəflər işin faktiki hallarını təqdim edir, məhkəmə isə sübutları qiymətləndirir və sonda hüququ tətbiq edir *("Azərbaycan Respublikası Konstitusiyasının 125-ci maddəsinin VII hissəsinin Azərbaycan Respublikasının mülki prosessual qanunvericiliyi baxımından şərh edilməsinə dair" 2019-cu il 18 mart tarixli qərar).*

Sübutetmə vəzifəsinin tərəflər arasında bölüşdürülməsinin ümumi qaydalarını Mülki-Prosessual Məcəllənin 77.1-ci maddəsi müəyyən edir. İşdə iştirak edən hər bir şəxs istinad etdiyi halların mövcudluğunu və doğruluğunu yalnız özü sübut etməlidir, heç kəs, o cümlədən məhkəmə onu bu vəzifədən azad edə bilməz. İstisnanı yalnız Mülki-Prosessual Məcəllənin 82 və 106.3-cü maddələrində göstərilən hallar təşkil edir.

Mülki prosesin dispozitivlik, çəkişmə prinsiplərindən və sübutetmə yükünün iddiaçının üzərində olmasından irəli gələrək miras qoyanın kreditoru öz hüquq və qanuni mənafelərinin müdafiəsi üçün hüquq varisliyini və ya digər tələbini təsdiq edən sübutları məhkəməyə təqdim etməlidir *("Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1243-cü maddəsinin və Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 307.2.9-cu maddəsinin əlaqəli şəkildə şərh edilməsinə dair" 2020-ci il 16 oktyabr tarixli qərar).*

İş materiallarından göründüyü kimi, iddiaçı tərəfindən kredit müqavilələri, kreditin və ona hesablanmış faizlərin ödəniş cədvəli, maliyyə arayışları, hesablardan çıxarışlar, cavabdehlərin hüquq varisliyini təsdiq edən qanun üzrə vərəsəlik hüquq haqqında şəhadətnamə və s. yazılı sübutlar birinci instansiya məhkəməsinə təqdim olunmuşdur.

Cavabdeh tərəf isə, ümumiyyətlə, məhkəmə iclaslarında iştirak etməmiş, yalnız cavabdehin vəkil-nümayəndəsi tərəfindən məhkəməyə iddiaya münasibətdə 20.07.2024-cü il tarixli etiraz göndərilmiş, mirasın siyahıya alınması barədə məhkəməyə hər hansı sübut təqdim etməmişdir.

Halbuki Mülki Məcəllənin "Vərəsələr tərəfindən kreditorların təmin edilməsi zamanı sübutetmə yükü" adlanan 1307-ci maddəsinə əsasən, mirasın notarius tərəfindən siyahıya alındığı haldan başqa, vərəsə miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etməlidir.

Başqa sözlə, əsas borclunun (miras qoyanın) ölümündən sonra onun vərəsəlik qaydasında keçə biləcək miras əmlaklarının olması, həmin əmlakların vərəsələri tərəfindən qanunla müəyyən olunmuş müddətdə qəbul və ya imtina edilməsi, vərəsəlik işinin açılması və sair kimi halların mövcudluğu vərəsələr tərəfindən sübuta yetirilməlidir. Qanunvericilik bir halda vərəsələri miras qoyanın borclarının mirasdan çox olduğunu sübut etmək yükündən azad edir ki, bu da mirasın notarius tərəfindən siyahıya alındığı haldır.

Kollegiya həmçinin bildirir ki, cavabdehlər miras qoyanın ölümündən sonra onun sözügedən kredit müqavilələrindən irəli gələn öhdəliklərindən məlumatlı olmuş, həmin müqavilələr üzrə yaranmış borc öhdəliyinin gələcəkdə onlara qarşı yönələ biləcəyi ehtimalını bilmiş olsalar da, qanunvericiliklə onlara verilmiş mirasdan imtina hüququndan istifadə etməmişlər. Belə ki, vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın qəbulundan imtina edə bilər. Üzrlü səbəb olduqda məhkəmə bu müddəti iki aydan çox olmayaraq uzada bilər. Mirasın qəbulundan imtina notariat orqanında rəsmiləşdirilməlidir, yəni qanunla müəyyən edilmiş müddət ərzində mirasdan imtina etməyən vərəsə mirası qəbul etmiş sayılır (Mülki Məcəllənin 1256-cı maddəsi).

Məhkəmə tərəfindən iddiaçının apellyasiya şikayətinin qismən təmin edilməsi, cavabdehin apellyasiya şikayətinin təmin olunmaması, Babək Rayon Məhkəməsinin xx.xx.2024-cü il tarixli qətnaməsinin ləğv edilməsi, yeni qətnamə qəbul edilərək iddianın qismən təmin olunması nəticəsinə gəlinmişdir.

## Mülki işlər üzrə **statuslu qərar

*İşin nömrəsi: 2(108)-67/2025*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***
*İddiaçılar cavabdehə qarşı əmlak, əmlak tam yararsız vəziyyətə düşdükdə və ya mövcud olmadıqda əmlakın dəyərinin və əldən çıxmış faydanın ödənilməsi tələbinə dair iddia ərizəsi ilə Naxçıvan Şəhər Məhkəməsinə müraciət etmiş, Naxçıvan Şəhər Məhkəməsinin xx.xx.2025-ci il tarixli, qərardadı ilə iddia ərizəsi geri qaytarılmış, iddia ərizəsinin geri qaytarılması isə Hökumət Ödəniş Portalı vasitəsilə ödənilmiş dövlət rüsumunun Naxçıvan Şəhər Məhkəməsinin iddia ərizəsinin geri qaytarılması haqqında "xx" xx. 2025-ci il tarixli qərardadı ilə iddiaçıya geri qaytarılmasının qərara alınması, hazırkı iddia ərizəsinə iddiaçıların yenidən 10 fevral 2025-ci il tarixli, 1712962687 nömrəli qəbzin surətini əlavə etməsi, yəni iddiaçı tərəfin qanunvericilikdə nəzərdə tutulmuş qaydada dövlət rüsumunu ödəməməsi ilə əsaslandırılmışdır.*

***Apellyasiya instansiya məhkəməsinin mövqeyi:***
Hər bir şəxs məhkəmə müdafiəsi hüququnun tam həcmdə həyata keçirilməsi və özünün qanunla qorunan hüquq və mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Bu hüquq Azərbaycan Respublikası Konstitusiyasının 60-cı, həmçinin mülki məhkəmə icraatı üzrə Mülki-Prosessual Məcəllənin 4-cü maddəsindən irəli gəlir. Belə ki, həmin Məcəllənin 4.1-ci maddəsinə əsasən bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə **qanunla müəyyən edilmiş qaydada** məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Qeyd edilən prosessual normanın tələbindən də görünür ki, məhkəməyə müraciət etmək hüququ mütləq hüquq deyil, yəni bu hüququn məhdudiyyətə məruz qalması istisna edilmir. Həmin hüquqa olan məhdudiyyətlərdən ən başlıcası isə şəxsin qanunvericiliyin tələblərinə əməl etməklə məhkəməyə müraciət etməsidir.

Qanunların aliliyi prinsipi hüquqi dövlətin ən mühüm prinsipidir. Belə ki, hüquqi dövlətdə bütün münasibətlər, hakimiyyət növlərinin sərhədləri, davranışları qanunla tənzimlənməlidir. Sözügedən prinsipin mahiyyətinə görə hər bir kəs vəzifəsindən, səlahiyyətindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq qanunun müəyyənləşdirdiyi norma və tələblərə əməl etməlidir, heç bir kəs özünü qanunlardan yüksəkdə tutmamalıdır.

Qanunun aliliyi prinsipi həmçinin mövcud qanunların pozulmasını qadağan edir. Bu prinsip hamının qeyd-şərtsiz qanunlara əməl etməsini tələb edir. Bu prinsipə görə qanunlar icra edilməsə, ona tabe olunmasa hüquqi dövlətin strukturları formalaşmaz, onun varlığı hiss edilməz. Buna görə də hüquqi dövlətin formalaşması üçün qanunların aliliyini təmin etmək olduqca əhəmiyyətlidir.

Azərbaycan Respublikası Konstitusiyasının preambulasında elan edilən Azərbaycan xalqının ülvi niyyətlərindən biri də qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaqdır.

Bundan başqa qanunçuluq hər kəs tərəfindən normativ-hüquqi aktların dəqiq və dönmədən əməl olunmasında və həyata keçirilməsində ifadə olunan hüquqi rejimdir. Qanunçuluq, əsasən özündə qanunların və digər normativ-hüquqi aktların qəbul edilməsini, qanunların icra edilməsi və onlara əməl olunmasını və qanunların icrasına nəzarətin həyata keçirilməsini ehtiva edir.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 1.1-ci maddəsinə əsasən dövlət rüsumu - dövlət orqanları və müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumlar tərəfindən hakimiyyət səlahiyyətlərinin icrası zamanı göstərilən və hüquqi nəticələrin yaranmasına səbəb olan xidmətlərə və hüquqi hərəkətlərə görə (sənədlərin tərtibi, qeydiyyatı, razılıqların verilməsi və s.) ödənilən haqdır (ödənişdir).

Həmin Qanunun 2.0-cı və 2.0.1-ci maddələrinin mahiyyətindən görünür ki, dövlət rüsumunun tutulduğu hallardan biri məhkəməyə iddia ərizəsinin, digər ərizənin və ya şikayətin verilməsi, məhkəmə aktının surətinin təkrar verilməsidir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin tələblərinə görə iddia ərizəsinə əlavə edilən sənədlər sırasına dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd də daxildir ki, bu sənədin əlavə edilməməsi iddia ərizəsinin geri qaytarılmasına səbəb olur (150.1,150.1.2, 152.1 və 152.1.5-ci maddələr).

İddiaçıların vəkili-nümayəndəsinin şikayəti Naxçıvan Şəhər Məhkəməsinin "xx" xx.2025-ci il tarixli qərardadı ilə geri qaytarılması qərara alınmış dövlət rüsumunun yenidən istifadə edilə bilmə imkanına yönəlmişdir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin:

- 1.1-ci maddəsinə əsasən Azərbaycan Respublikasının məhkəmələrində mülki işlər və kommersiya mübahisələri üzrə məhkəmə icraatının qaydası Azərbaycan Respublikasının Konstitusiyası, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanunu, bu Məcəllə, digər

qanunlar, habelə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə müəyyən edilir;

- 2.2-ci maddəsinə görə mülki məhkəmə icraatı qanunçuluğun və ictimai qaydanın bərqərar edilməsinə, vətəndaşların qanunlara dönmədən hörmət ruhunda tərbiyə edilməsinə rəvac verir;

- 3.1-ci maddəsi ilə müəyyən edilir ki, məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır;

- 15.1 və 15.2-ci maddələrinin tələbinə görə məhkəmə aktlarını qətnamə, qərardad, qərar və əmr formasında qəbul edir. Məhkəmələrin qanuni qüvvəyə minmiş qətnaməsi, qərardadı, qərarı, əmri bütün dövlət hakimiyyəti, yerli özünüidarə orqanları, onların vəzifəli şəxsləri, ictimai birliklər, siyasi partiyalar, həmkarlar ittifaqları, onların vəzifəli şəxsləri, həmçinin fiziki və hüquqi şəxslər üçün məcburidir və Azərbaycan Respublikasının bütün ərazisində hökmən icra olunmalıdır;

- 114.1, 114.1.2 və 114.1.3-cü maddələrinin mahiyyətindən aydın olur ki, bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla ərizəni baxılmaq üçün qəbul etməkdən imtina edilərsə, bu Məcəllə ilə nəzərdə tutulmuş əsaslarla ərizə geri qaytarılarsa ödənilmiş dövlət rüsumu geri qaytarılır.

Yuxarıda qeyd edilən prosessual normaların tələbindən aydın olur ki, qanunçuluq prinsipinin tələbi baxımından birinci instansiya məhkəməsi mülki məhkəmə icraatının başlanmasına səbəb olan ərizənin və iddia ərizəsinin geri qaytarılması zamanı mütləq şəkildə ödənilmiş dövlət rüsumunun da geri qaytarması barədə məhkəmə aktı qəbul etməlidir.

Məhkəmə aktının qəbul edilib, qanuni qüvvəyə minməsindən sonra isə onun icrası prosesi başlayır ki, bununla bağlı kollegiya "İcra haqqında" Azərbaycan Respublikası Qanununun aşağıdakı normalarını diqqətə çatdırmağı vacib hesab edir.

- 1-1-ci maddəsinə əsasən icra qanunvericiliyi **qanunun aliliyinin təmin olunması** və hamının qanun qarşısında bərabərliyi, obyektivlik, ədalətlilik prinsiplərinə əsaslanır;

- 6.1 və 6.1.1-ci maddələrinin mahiyyətindən aydın olur ki, Azərbaycan Respublikası məhkəmələrinin qərarları əsasında verilən icra vərəqələri icra sənədi sayılır;

- 8.1-ci maddəsinə görə icra sənədinin icraya yönəldilməsi bilavasitə müvafiq qərarı çıxarmış məhkəmənin və ya digər orqanın **vəzifəsidir**.

- 13.1 və 13.1.1-ci maddələrinin mahiyyətindən görünür ki, həmin Qanunun 13.1.3-2-ci, 13.1.4-1-ci və 13.1.5-ci maddələrində nəzərdə tutulan

hallar istisna olmaqla, məhkəmələrin qərarları əsasında verilən icra vərəqələri və məhkəmə əmrləri - bir ay ərzində icraya **yönəlməlidir**;

- 13.2 və 13.2.1-ci maddələrinin tələbinə görə Qanunun 13.1-ci maddəsi ilə müəyyən olunmuş müddətlər həmin Qanunun 13.1.1-ci, 13.1.4-cü və 13.1.4-2-ci maddələrində göstərilmiş icra sənədlərinin (məhkəmə əmrləri istisna olmaqla) icraya yönəldilməsi zamanı - məhkəmə qərarının qanuni qüvvəyə mindiyi yaxud onun icrasının təxirə salınması və ya icrasına möhlət verilməsi ilə bağlı müəyyən edilmiş müddətin başa çatdığı vaxtdan, məhkəmə qərarı dərhal icra edilməli olduqda - onun qəbul edildiyi günün ertəsi günündən hesablanır.

Həmçinin “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 99-cu maddəsi ilə hakimlərin vəzifəsi kimi ədalət mühakiməsini həyata keçirərkən **qanunların tələblərinə dəqiq və dönmədən əməl etmək**, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etmək, ədalətli və qərəzsiz olmaq müəyyən edilmişdir.

Qeyd olunanlardan görünür ki, qanuni qüvvəyə minmiş məhkəmə aktı onu qəbul edən məhkəmə tərəfindən qanunvericiliklə müəyyən edilmiş müddət ərzində **icraya yönəlməlidir**. Yəni faktiki baxılan mübahisə üzrə Naxçıvan Şəhər Məhkəməsinin “xx” xx.2025-ci il tarixli qərardadı ləğv edilməyibsə və o qanuni qüvvəyə minibsə, artıq həmin məhkəmə aktı icraya yönəlməlidir.

Məhkəmə aktının icraya yönəlməməsinin hüquqi nəticələrinə gəldikdə isə “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 86-cı maddəsinə görə Məhkəmə-Hüquq Şurası məhkəmə statistikasının aparılması, məhkəmə qərarlarının icrası, məhkəmələrdə kargüzarlığın təşkil edilməsi, hakimlərin əmək və sosial hüquqlarının təmin edilməsi, məhkəmələrdə icra və əmək intizamına riayət edilməsi üçün tədbirlər görür.

Həmin Qanunun 111-1-ci maddəsindən aydın olur ki, işlərə baxarkən qanunvericiliyin tələblərini **dəfələrlə və ya kobudcasına**, həmçinin hakim etikasını, habelə **əmək və icra intizamı haqqında qanunvericiliyin tələblərini pozması** hakimlərin intizam məsuliyyətinə cəlb edilməsinin əsasları kimi müəyyən edilib.

Beləliklə yuxarıda qeyd edilənlərə əsaslanaraq kollegiya belə nəticəyə gəlir ki, qanunun aliliyi prinsipinin tələblərinə uyğun olaraq iddiaçı tərəfindən ödənilmiş dövlət rüsumunun geri qaytarılmasını qərara almış birinci instansiya məhkəməsinin müvafiq məhkəmə aktı qanuni qüvvəyə mindikdən sonra onu icraya yönəltməlidir ki, bu özlüyündə müvafiq qəbzin yenidən

istifadə olunma imkanını istisna edir. Yəni həmin qəbzin "Elektron məhkəmə" informasiya sistemində aktiv sənəd kimi müəyyən edilməsi qanunvericiliyin tələbinə zidd olduğu üçün birbaşa qəbuledilən sayıla bilməz. Ən əsası ona görə ki, müvafiq dövlət rüsumunun geri qaytarılması barədə məhkəmə aktının icraya yönəlməsi, həmin qəbzin yenidən istifadə halına, yəni yaranmış boşluqdan bəhrələnərək bir qəbzdən iki dəfə istifadə etmə imkanına şərait yaradır.

Dispozitivlik prinsipinin tələblərini nəzərə alaraq kollegiya onu qeyd etməyi zəruri hesab edir ki, sonuncu qeyd edilən hal, müvafiq rüsumu ödəmiş şəxsi "Elektron məhkəmə" informasiya sistemində "istifadə edilməmiş" statusuna malik dövlət rüsumu qəbzindən, yenidən istifadə etmək imkanından **birbaşa** məhrum etmir.

Belə ki, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 23.1 və 23.1.1-ci maddələrinin mahiyyətinə görə **tələbkarın ərizəsi əsasında** tələbin icra edilmədiyi və ya qismən icra edildiyi icra sənədi icra sənədini vermiş məhkəməyə və ya digər orqana *(notariusun icra qeydi isə tələbkara)* qaytarılır.

Həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 iyun tarixli, 98 nömrəli qərarı ilə təsdiq edilmiş "Düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumunun qaytarılması Qaydaları"nın 2.1, 2.1.1, 2.1.2 və 2.1.3-cü bəndlərinə görə dövlət rüsumu qanunla müəyyən edilmiş miqdardan artıq ödənildikdə; ərizələr (şikayətlər) qaytarıldıqda və ya ərizə baxılmamış saxlanıldıqda, habelə notariat əməliyyatlarının icrasından imtina edildikdə; məhkəmələr tərəfindən iş üzrə icraata xitam verildikdə ödənilmiş dövlət rüsumu dövlət büdcəsindən qismən və ya tamamilə qaytarılır.

Həmin Qaydaların 3.1-ci bəndinə əsasən düzgün tutulmamış və ya artıq ödənilmiş dövlət rüsumu dövlət rüsumunun ödəyicisinin yazılı müraciətinə əsasən 20 gün müddətində qaytarılır.

Dispozitivlik prinsipi işdə iştirak edən şəxslərin prosesin əmələ gəlməsi, gedişatı və sona yetməsi ilə əlaqədar öz hüquqları barəsində sərbəst sərəncam verməsində ifadə olunur. Bu prinsipə əsasən hakim deyil, yalnız tərəflər mülki prosesin başlanması, onun predmetinin dairəsi və mülki prosesin yekunlaşdırılması barədə qərar qəbul edirlər. Proses məhkəmənin publik iradəsindən deyil, tərəflərin iradəsi və fəallığından asılı olaraq həyata keçirilir. Bu baxımdan **tələbkarın ərizəsi əsasında** tələbin icra edilmədən geri qaytarılması dispozitivlik prinsindən irəli gələn hüquqi addımdır. Yəni qanunvericiliklə müəyyən edilmiş hallar istisna olmaqla (məs: aliment tələbi) tələbkar onun xeyrinə olan məhkəmə aktının icrasından imtina edə və ya onun

icra edilməməsini tələb edə bilər. Sözügedən hüquqi imkanı hazırkı mübahisə ilə əlaqələndirdikdə deyə bilərik ki, məhkəmə qərarı ilə qaytarılmalı olan, lakin dövlət büdcəsində saxlanılan pul məbləği ilə, natura formasında olan ayrıca pul məbləği arasında mülkiyyət hüququnun tələbi baxımından fərq yoxdur, yəni onların hər biri müvafiq tələbkarın mülkiyyəti sayılır.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 152.4-cü maddəsinin mahiyyətinə görə isə mülkiyyətçi əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməkdə sərbəstdir. Belə olan halda müvafiq qəbzlə ödənilən, lakin məhkəmə aktı əsasında ona qaytarılmalı olan və dövlət büdcəsində saxlanılan pul məbləğindən **istifadə etmək imkanı** onun mülkiyyətçisinin iradəsindən asılıdır. Yəni o, müvafiq məhkəmə aktının qanuni qüvvəyə minib icraya **yönəlməsinədək** həmin məbləğin geri qaytarılmaması və yenidən istifadə etmək istəyi barədə həmin məhkəməyə **vəsatət** verdikdə, prosessual qənaət prinsipi baxımından bunun təmin edilməsi qanunilik prinsipinin mahiyyətinə zidd deyil.

Yuxarıda qeyd edilənlərin nəticəsi olaraq kollegiya belə hesab edir ki, müvafiq məhkəmə aktı ilə geri qaytarılması qərara alınmış dövlət rüsumunun ödənilməsi ilə bağlı qəbzin "Elektron məhkəmə" informasiya sistemində aktiv olmasının məhkəmə tərəfindən qəbuledilən hesab edilməsi üçün aşağıdakı iki şərt **birlikdə** mövcud olmalıdır: dövlət rüsumunun geri qaytarılması barədə məhkəmə aktı icraya yönəlməməli; həmin rüsumun yenidən istifadə edə bilmə imkanından yararlanmaq üçün onun geri qaytarılmaması barədə ödəyicinin vəsatəti olmalıdır. Çünki icra mərhələsində tələbkarın rüsumun geri qaytarılmasının icra edilməməsi, yəni icra sənədinin icra edilmədən geri qaytarılması ilə bağlı etdiyi müraciət, "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 23.3-cü maddəsinin tələbi baxımından **sonradan icra sənədinin tələbkarın müraciəti əsasında yenidən icraya yönəlməsini, yəni dövlət rüsumunun ona geri qaytarılmamasını istisna etmir.**

Mülki iş materiallarını nəzərdən keçirdikdə isə 10 fevral 2025-ci il tarixli, 1712962687 nömrəli qəbzlə dövlət rüsumu ödəmiş iddiaçı və ya onun vəkili-nümayəndəsinin Naxçıvan Şəhər Məhkəməsinin "xx" xx.2025-ci il tarixli qərardadının, dövlət rüsumunun geri qaytarılmasına dair hissəsinin icraya yönəldilməməsi ilə bağlı vəsatətinin olması öz təsdiqini tapmır.

Bu səbəbdən kollegiya iddiaçıların vəkili-nümayəndəsinin şikayətinin dəlili kimi göstərdiyi elektron məhkəmə sisteminin 10 fevral 2025-ci il tarixli, 1712962687 nömrəli qəbzi qəbul etməsi və geri qaytarılması qərara alınmış

dövlət rüsumunu geri almayacağı ilə bağlı hüquqi mövqeyini əsaslı hesab etmir.

Onun şikayətində qeyd etdiyi "formalaşmış məhkəmə təcrübəsinə əsasən digər məhkəmələrin oxşar hüquqi şəraitlə əlaqədar dövlət rüsumu qəbzlərini qəbul etməsinə dair" hüquqi mövqeyinin həllinə gəldikdə isə kollegiya bildirir ki, "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununun 79-1-ci maddəsinə görə vahid məhkəmə təcrübəsi məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsini təmin etmək məqsədilə formalaşdırılır. Ali Məhkəmə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsini baxdığı işlər üzrə məhkəmə kollegiyalarının və Ali Məhkəmənin Plenumunun qərarları, habelə Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair verdiyi izahlar vasitəsilə formalaşdırır.

Hazırkı məsələ ilə bağlı kollegiyaya Azərbaycan Respublikası Ali Məhkəməsinin hər hansı bir hüquqi mövqeyinin mövcudluğu məlum olmadığından, iddiaçıların vəkili-nümayəndəsinin bu dəlilini də kollegiya əsaslı hesab etmir.

Məhkəmə iddiaçıların cavabdehə qarşı əmlak, əmlak tam yararsız vəziyyətə düşdükdə və ya mövcud olmadıqda əmlakın dəyərinin və əldən çıxmış faydanın ödənilməsi tələbinə dair iddia ərizəsinin geri qaytarılması barədə Naxçıvan Şəhər Məhkəməsinin xx.xx.2025-ci il tarixli, 2(078)-503/2025 nömrəli qərardadı qanunun tələblərinə uyğun qəbul edildiyindən dəyişdirilmədən saxlamışdır.

≈≈≈

## Məhkəmə qətnamələrinin (qərarlarının) icrası qaydasında icraat üzrə ** statuslu qərar

*İşin nömrəsi: 8(108)-1/2025*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***

*Şərur Rayon İcra və Probasiya Şöbəsi Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 146.1-1-ci maddəsinə əsaslanaraq inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın qanuni qüvvəyə mindiyi gündən 5 (beş) il müddətində icra edilmədiyini əsas gətirərək, xx.xx.2019-cu il tarixli inzibati tənbeh vermə haqqında qərarının icraatına*

*xitam verilməsi haqqında xx.xx.2024-cü il tarixli qərar qəbul etmiş, məhkəmə işə baxaraq xx.xx.2024-cü il tarixində Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin Bakı Ərazi şöbəsinin inzibati tənbeh vermə haqqında xx.xx.2019-cu il tarixli qərarına dair icra sənədi üzrə icraata xitam verilməsi barədə Şərur rayon İcra və probasiya şöbəsinin xx.xx.2024-cü il tarixli qərarından Əmlak Məsələləri Dövlət Xidmətinin Bakı ərazi şöbəsinin verdiyi şikayətin təmin edilməməsi barədə qərardad qəbul etmişdir.*

***Apellyasiya instansiya məhkəməsinin mövqeyi:***

1. Məhkəmənin xx.xx.2024-cü il tarixli qərardadından Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Bakı ərazi şöbəsinin verdiyi şikayəti, ona baxılması ilə bağlı məhkəmədə araşdırılmış sübutları nəzərdən keçirən kollegiya bildirir ki, hər bir şəxs məhkəmə müdafiəsi hüququnun tam həcmdə həyata keçirilməsi və özünün qanunla qorunan hüquq və mənafelərinin müdafiəsi üçün məhkəməyə müraciət etmək hüququna malikdir. Bu hüquq Azərbaycan Respublikası Konstitusiyasının 60-cı, həmçinin mülki məhkəmə icraatı üzrə Mülki-Prosessual Məcəllənin 4-cü maddəsindən irəli gəlir.

Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 4.1-ci maddəsinə əsasən bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Bakı ərazi şöbəsinin məhkəməyə etdiyi müraciət-şikayət Şərur Rayon İcra və Probasiya Şöbəsinin "İcraata xitam verilməsi haqqında" xx.xx.2024-cü il tarixli qərarının ləğvi ilə bağlı olduğundan, həmçinin həmin icra işi şikayət edən orqanın xx.xx.2019-cu il tarixli inzibati tənbeh vermə haqqında qərarı əsasında başladığından kollegiya bununla bağlı Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin aşağıdakı tələblərini nəzərə çatdırmağı vacib hesab edir. Həmin Məcəllənin:

-1.1 və 1.2-ci maddələrinə əsasən Azərbaycan Respublikasının inzibati xətalar qanunvericiliyi bu Məcəllədən ibarətdir. İnzibati Xətalar Məcəlləsi Azərbaycan Respublikasının Konstitusiyasına, hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarına və prinsiplərinə əsaslanır;

- 25.1-ci maddəsinə görə inzibati cərimə bu Məcəllədə nəzərdə tutulmuş hallarda hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən təyin edilən və təqsirkar şəxsdən dövlətin xeyrinə məcburi tutulan pul məbləğidir;

-138-ci maddəsindən aydın olur ki, inzibati xəta haqqında iş üzrə qərar, habelə şikayət və ya protest üzrə qəbul edilmiş qərar əgər bu qərardan şikayət və ya protest verilməmişdirsə, inzibati xəta haqqında iş üzrə qəbul edilmiş qərardan şikayətin verilməsi müddətinin bitdiyi gün; əgər bu qərardan şikayət və ya protest verilməmişdirsə, inzibati xəta haqqında iş üzrə qərardan şikayət və ya protest üzrə hakim (vəzifəli şəxs) tərəfindən qəbul edilmiş qərardan şikayətin verilməsi müddətinin bitdiyi gün; apellyasiya instansiyası məhkəməsinin şikayət və ya protest üzrə qəbul edilmiş qərarı elan olunduğu andan dərhal sonra qanuni qüvvəyə minir;

- 139.1 və 139.2-ci maddələrinin tələbinə əsasən inzibati xəta haqqında iş üzrə qərarın icrası bütün dövlət orqanları, bələdiyyələr, vəzifəli şəxslər, fiziki şəxslər, hüquqi şəxslər üçün məcburidir. İnzibati xəta haqqında iş üzrə qərar qanuni qüvvəyə mindiyi vaxtdan dərhal icra olunmalıdır;

-140-cı maddəsinə görə inzibati xəta haqqında iş üzrə qərarın icraya yönəldilməsi vəzifəsi hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) üzərinə qoyulur;

- 141-ci maddəsinin mahiyyətindən görünür ki, inzibati xəta haqqında iş üzrə qərar bu Məcəllədə və “İcra haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada icra edilir. Məhkəmələr tərəfindən baxılan inzibati xətalara dair işlər üzrə inzibati **cərimə** tətbiq edilməsi barədə qərarlar, bu Məcəllənin 142, 143, 144.1, **145**, 146.3, 147, 150.2, 150.8, 150.9 və 150.10-cu maddələrinin tələbləri nəzərə alınmaqla, “İcra haqqında” Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq icra edilir. Bir şəxs barəsində bir neçə inzibati tənbeh tətbiq etmə haqqında qərar qəbul edildikdə, hər bir qərarın icrası müstəqil həyata keçirilir;

- 146.1-ci maddəsinə görə bu Məcəllənin 146.1-1-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, digər inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən sonra bir il müddətində icra edilməmişdirsə, daha icra edilmir;

- 146.1-1-ci maddəsinə əsasən inzibati cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərar qanuni qüvvəyə mindiyi gündən 5 (beş) il müddətində icra edilməmişdirsə, daha icra edilmir.

Yuxarıda qeyd edilən hüquq normalarının iş materialları ilə əlaqəli şəkildə tədqiqindən aydın olur ki, XX oğlu Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Bakı ərazi şöbəsinin xx.xx.2019-cu il tarixli, MN 0367113 nömrəli qərarı ilə inzibati məsuliyyətə cəlb edilərək, onun barəsində 800 (səkkiz yüz) manat məbləğində cərimə inzibati tənbeh tədbiri tətbiq edilmişdir.

İnzibati tənbeh vermə haqqında qərar onu qəbul edən orqan tərəfindən 04 aprel 2019-cu il tarixli məktubla icra olunması üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Şərur Rayon İcra və Probasiya Şöbəsinə göndərilmiş *(iş vərəqə 44)*, sonuncunun xx.xx.2019-cu il tarixli qərarı ilə icra sənədi üzrə icraata başlamaq haqqında qərar qəbul edilmişdir.

Daha sonra isə Şərur Rayon İcra və Probasiya Şöbəsinin icra məmuru xx.xx.2024-cü il tarixdə icra sənədi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edərək, bu nəticəyə gəlməsinin əsası kimi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 146.1-1-ci maddəsini göstərmişdir.

İşin qeyd edilən sonuncu faktiki halından yola çıxan kollegiya qeyd edir ki, "İcra haqqında "Azərbaycan Respublikası Qanununun:

- 1.1-1-ci maddəsinə əsasən inzibati xətalara dair işlər üzrə inzibati **cərimə** tətbiq edilməsi barədə qərarlar Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 142, 143, 144.1, **145**, 146.3, 147, 150-ci maddələrinin tələbləri nəzərə alınmaqla bu Qanuna müvafiq icra olunur;
- 2.1-ci maddəsinə görə Azərbaycan Respublikasında məhkəmə və digər orqanların qərarlarının məcburi icrası icra məmurları tərəfindən həyata keçirilir;
- 6.1-ci və 6.1.5-ci maddələrinin mahiyyətindən aydın olur ki, inzibati xətalara dair işlərə baxmaq səlahiyyəti olan orqanların (vəzifəli şəxslərin) qərarları icra sənədi sayılır.

İcra işi üzrə icraata xitam verilmənin əsasları həmin Qanunun 20.1-ci maddəsi ilə tənzimlənir ki, həmin normaya görə icra sənədi üzrə icraata aşağıdakı hallarda xitam verilir:

- məhkəmə tələbkarın tələbdən imtinasını qəbul etdikdə;
- məhkəmə tələbkar ilə borclu arasında barışıq sazişini təsdiq etdikdə;
- tələbkar və ya borclu öldükdə, ölmüş elan edildikdə və ya xəbərsiz itkin düşmüş hesab edildikdə, əgər məhkəmə və ya digər orqanın qərarı ilə müəyyən edilmiş tələblər və ya vəzifələr həmin şəxsin vərəsəsinə və ya qanunvericiliklə müəyyən edilmiş qaydada onun əmlakını idarə edən şəxsə keçə bilməzsə;
- icra sənədinin verilməsi üçün əsas olmuş məhkəmə və ya digər orqanın qərarı və yaxud qanuna görə icra sənədi sayılan sənəd ləğv edildikdə;
- qanun əsasında borclunun dövlətə olan borcu silindikdə;
- qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna

olmaqla) dövlət büdcəsinə alınması barədə məhkəmə qərarının qüvvəyə mindiyi tarixdən 5 illik müddət keçdikdə;

- icra sənədi tam icra olunduqda.

Şərur Rayon İcra və Probasiya Şöbəsinin "İcraata xitam verilməsi haqqında" xx.xx.2024-cü il tarixli qərarının hüquqi əsasını "İcra haqqında "Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsində göstərilən əsaslarla qarşılıqlı şəkildə tədqiq etdikdə aydın olur ki, icra qanunvericiliyində cərimə növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın qanuni qüvvəyə mindiyi gündən 5 (beş) il müddətində icra edilməməsi ilə bağlı icraata xitam verilmə əsası müəyyən edilməyib. Sözü gedən əsasa oxşar olan icra sənədi üzrə icraata xitam verilmə əsası "İcra haqqında" Azərbaycan Respublikası Qanunun 20.1.4-2-ci maddəsi ilə (*qanuni qüvvəyə minmiş məhkəmə qərarı ilə təmin edilmiş vergilər üzrə borcların və faizlərin, tətbiq edilmiş maliyyə sanksiyalarının (məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları istisna olmaqla) dövlət büdcəsinə alınması barədə məhkəmə qərarının qüvvəyə mindiyi tarixdən 5 illik müddət keçdikdə*) oxşarlıq təşkil etsə də, sonuncu normanın dispozitiv şərtlərindən icra sənədinin **məhkəmə qərarı əsasında verilməsi və bunun vergi borclarının tutulması ilə bağlı olması** müəyyən edilir.

Sözü gedən məsələ birbaşa "İcra haqqında" Azərbaycan Respublikası Qanunu, həmçinin İnzibati Xətalar Məcəlləsinin 145-ci maddəsi ilə tənzimlənməsə də, həmin Qanunun 1.1-1-ci və İnzibati Xətalar Məcəlləsinin 141-ci maddələrindən aydın olur ki, **cərimə növündə inzibati tənbeh tədbirinin icrası zamanı nəzərə alınmalı müddəalardan biri İnzibati Xətalar Məcəlləsinin 145-ci maddəsidir**.

İnzibati Xətalar Məcəlləsinin 6.3-cü maddəsində inzibati xətalar qanunvericiliyinin analogiya üzrə tətbiqinə məhdudiyyət qoysa da Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 128.1-ci maddəsinin şərh edilməsinə dair" 2016-cı il 2 noyabr tarixli Qərarında formalaşdırdığı hüquqi mövqeyə görə bu məhdudiyyət həmin hüquq sahəsinin maddi hüquq normalarına (məsuliyyəti müəyyən edən normalara) aiddir. Konstitusiya Məhkəməsinin həmin qərarda qeyd etdiyi hüquqi mövqe "Normativ hüquqi aktlar haqında" Azərbaycan Respublikası Qanununun 13.5-ci maddəsi ilə də üst-üstə düşür. Belə ki, həmin normaya əsasən cinayət, inzibati xətalar və vergi qanunvericiliyində, **məsuliyyətə cəlb olunma, hüquqların məhdudlaşdırılması və vəzifələrin müəyyən edilməsi**

**hallarında** hüququn analogiyasından və ya qanunun analogiyasından istifadə oluna bilməz.

Göründüyü kimi qanunvericilik şəxsin məsuliyyətə cəlb edilməsi, həmçinin bunun ağırlaşdırılması hallarına münasibətdə analogiyanın tətbiqini qadağan edir.

Hazırkı vəziyyətdə mübahisələndirilən qərar şəxsin inzibati məsuliyyətdən azad edilməsinə yönəldiyindən işə baxan birinci instansiya məhkəməsi icra məmuru tərəfindən icra sənədi üzrə icraata xitam verilməsinin əsaslarını və qaydasını yoxlayarkən "İcra haqqında" Azərbaycan Respublikası Qanununun 1.1-1-ci və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 141-ci maddələrini rəhbər tutmaqla inzibati tənbeh tətbiq etmə haqqında qərarın icrasına xitam verilməsinin əsasları və qaydasını müəyyən edən Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 145-ci maddəsini tətbiq etməli idi.

Həmin normadan aydın olur ki, İnzibati Xətalar Məcəlləsinin inzibati məsuliyyət müəyyən edən müvafiq müddəaları qüvvədən düşmüş hesab edildikdə; barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxs öldükdə və ya Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada ölmüş hesab edildikdə; inzibati tənbeh tətbiq etmə haqqında qərarın bu Məcəllənin 146.1-ci maddəsində müəyyən edilmiş icra müddəti keçdikdə; Məcəlləyə əsasən şəxsin inzibati məsuliyyətdən azad edilməsi üçün əsaslar yarandıqda; ictimai işlər növündə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icrası zamanı bu Məcəllənin 28.4-cü maddəsində nəzərdə tutulmuş hallar yarandıqda; barəsində inzibati xəta haqqında iş üzrə qərar çıxarılmış şəxs həmin qərarı icra etməməyə görə bu Məcəllənin 529.1, 529.2 və ya 529.4-cü maddələrinə əsasən inzibati məsuliyyətə cəlb edildikdə inzibati tənbeh tətbiq etmə haqqında **qərarı qəbul etmiş** hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) qərarın icrasına xitam verir. İnzibati tənbeh tətbiq etmə haqqında qərarın icrasına xitam verilməsi barədə hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən **qərardad** qəbul edilir.

Həmçinin Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 142-ci maddəsinə görə inzibati tənbeh tətbiq etmə haqqında qərarın icrasının təxirə salınması, dayandırılması, onun icrasına möhlət və ya **xitam verilməsi**, yaxud yetkinlik yaşına çatmayan şəxsin üzərinə qoyulmuş cərimənin onun valideynlərindən və ya digər qanuni nümayəndələrindən tutulması məsələlərinin baxılmasına əsaslar olduqda, **həmin məsələlərə dair qərar çıxarmış hakim, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən üç gün müddətində baxılır**. Bu Məcəllənin 142.1-ci maddəsində göstərilən

məsələlərin həllində maraqlı olan şəxslərə həmin məsələlərə baxılmanın yeri və vaxtı barədə məlumat verilir. **Maraqlı şəxslərin** üzrlü səbəblər olmadan iştirak etməmələri göstərilən məsələlərə baxılması üçün maneə yaratmır. Qərarın icrasının təxirə salınması, dayandırılması, onun icrasına möhlət və ya xitam verilməsi, yaxud yetkinlik yaşına çatmayan şəxsin üzərinə qoyulmuş cərimənin onun valideynlərindən və ya digər qanuni nümayəndələrindən tutulması barədə **qərardad** qəbul edilir. Qərardadın surəti, barəsində bu qərardad qəbul edilmiş fiziki şəxsə və ya hüquqi şəxsin nümayəndəsinə, yetkinlik yaşına çatmayan şəxsin qanuni nümayəndəsinə, habelə zərər çəkmiş şəxsə bu barədə müvafiq qeyd aparılmaqla verilir.

Normanın mahiyyətinə əsasən inzibati tənbeh tətbiq etmə haqqında qərarın icra müddəti keçdikdə ona xitam verilməsi üçün maraqlı şəxs həmin qərarı qəbul etmiş orqana müraciət etməli, onun müraciətinə üç gün müddətində baxılaraq müvafiq qərardad qəbul edilməlidir.

“İcra haqqında” Azərbaycan Respublikası Qanununun 20.4-cü maddəsinin tələbinə əsasən icra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarı daxil olduqdan sonra məhkəmə 10 gün müddətində həmin qərarın bu Qanunun tələblərinin **pozulmaqla** qəbul edilməsini müəyyən edərsə həmin qərarı ləğv edir.

Qeyd edilənlərə əsaslanaraq məhkəmə tərəfindən Şərur Rayon İcra və Probasiya Şöbəsinin “İcraata xitam verilməsi haqqında” xx.xx.2024-cü il tarixli qərarı qanunvericiliyin tələblərinin pozulması ilə qəbul edildiyi üçün Şərur Rayon Məhkəməsi həmin qərarı dəyişdirmədən saxlamaqla düzgün nəticəyə gəlmədiyindən Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Bakı ərazi şöbəsinin şikayəti əsaslı sayılması, Şərur Rayon Məhkəməsinin xx.xx.2024-cü il tarixli qərardadının ləğv edilməsi, icra məmurunun icra sənədi üzrə icraata xitam verilməsi barədə qərarının ləğv edilməsi səlahiyyəti həmin icra məmurunun yerləşdiyi yer üzrə birinci instansiya məhkəməsinə aid olduğundan sonrakı prosessual hərəkətləri yerinə yetirmək üçün işin həmin məhkəməyə geri qaytarılması qərara alınmışdır.

## İnzibati xətalara dair işlər üzrə * statuslu qərar

*İşin nömrəsi: 3(078)-408/2024*

***Mübahisəli hüquqi məsələnin qısa məzmunu:***

Naxçıvan Şəhər Prokurorluğu tərəfindən XX1 oğlunun barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 157 və 206-cı maddələri ilə icraat başlanmış və baxılması üçün məhkəməyə göndərilmişdir. İnzibati xəta haqqında icraatın materiallarından aydın olur ki, XX1 oğlu və XX2 oğlu mübahisə edən zaman XX1 oğlu XX2 oğlunun sifət nahiyyəsindən bir yumruq zərbəsi vurmuş və həmin zərbə nəticəsində XX2 oğlunun bədən səthi üzərində dərəcəsi təyin edilməyən xəsarətlər yaranmış, eyni zamanda məhkəmə kimya tədqiqatı zamanı təqsirləndirilən şəxs XX1 oğlundan götürülmüş qan nümunəsində psixotrop maddə hesab edilən amfetamin aşkar edilmişdir. Bununla da, XX1 oğlu Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 157-ci maddəsi ilə nəzərdə tutulmuş döymə və 206-cı maddəsi ilə nəzərdə tutulmuş qanunsuz olaraq narkotik vasitələrin, psixotrop maddələrin istehlakı, satış məqsədi olmadan az miqdarda hazırlanması, əldə edilməsi, saxlanılması, daşınması və ya göndərilməsi inzibati xətasını törətmişdir.

***Birinci instansiya məhkəməsinin mövqeyi:***

xx.xx.2024-cü il tarixli qərara əsasən, inzibati xəta törətmiş şəxs barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 157 və 206-cı maddələri ilə inzibati xəta haqqında iş üzrə icraat başlanmışdır. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 3-cü maddəsinə əsasən, yalnız bu Məcəllə ilə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli hesab edilən və inzibati xəta tərkibinin bütün digər əlamətlərini daşıyan əməli (hərəkət və ya hərəkətsizliyi) törətmiş şəxs inzibati məsuliyyətə cəlb olunur. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 39.1-ci maddəsinə görə bu Məcəllənin 157 və 158-ci maddələrində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat yalnız zərər çəkmiş şəxsin ərizəsinə əsasən başlanır, zərər çəkmiş şəxslə barəsində inzibati icraat aparılan şəxs barışdıqda isə həmin iş üzrə icraata xitam verilir.

İnzibati xəta haqqında icraat materiallarına XX2 tərəfindən hadisə baş verməzdən əvvəl onun XX1 tərəfindən döyülməsi barədə müvafiq polis orqanına müraciət ərizəsi əlavə edilməmişdir. Belə olan halda XX1 barəsində Azərbaycan Respublikası İXM-in 157-ci maddəsi ilə inzibati icraat başlana bilməzdi.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanunun 25.1-ci maddəsinə görə tibbi müayinə yalnız narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Narkotik sərxoşluq vəziyyətində olması və ya öz bədəni daxilində narkotik vasitələr və psixotrop maddələr daşıması haqqında əsaslı şübhələr olan, habelə özündə narkotik vasitələr və psixotrop maddələr aşkar edilmiş şəxs Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada tibbi müayinədən keçirilir. Tibbi müayinə dövlət narkoloji-tibb müəssisələrində həyata keçirilir.

Həmin qanunun 25.2-ci maddəsinə əsasən tibbi müayinə həkim-narkoloq, həkim olmadıqda isə feldşer-narkoloq tərəfindən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir. Şəxsin tibbi müayinədən keçməsi haqqında tərtib edilən rəydə onun narkotik sərxoşluq vəziyyətində olub-olmaması, orqanizmdə insanın bioloji mühitlərinin tədqiqatı nəticəsində aşkarlanan narkotik vasitələrin və psixotrop maddələrin növü, ehtiyac olduqda miqdarı və təxmini istehlak etmə vaxtı əks etdirilməlidir.

Həmin qanunun 25.3-cü maddəsinin tələbinə əsasən şəxsin tibbi müayinədən keçməsi qaydaları Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur.

İş materiallarına əlavə edilən rəydən görünür ki, XX1 oğlunun qanında amfetamin psixotrop maddəsinin izlərinə rast gəlinməsi barədə rəy tibb eksperti tərəfindən verilmişdir. Həmin rəyin əsaslandırıcı hissəsində müstəntiq tərəfindən ekspert qarşısına qoyulan suala cavab verilməsi üçün qan nümunəsinin kimyəvi laboratoriyaya təqdim edilməklə kimyəvi akt təqdim edilməsi qeyd edilmişdir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 71.1-ci maddəsinə görə elm, incəsənət, texnika və ya sənət sahəsində məsələlərin izahı üçün ekspertizanın aparılması və ekspert rəyinin verilməsi üçün kifayət qədər xüsusi biliyə malik olan və inzibati xəta haqqında işin nəticəsində şəxsən maraqlı olmayan şəxs ekspert kimi dəvət olunur. Həmin Məcəllənin 71.3-cü maddəsinə görə verilən suallar ekspertin xüsusi biliyindən kənara çıxdıqda, tədqiqat obyektləri və iş üzrə materiallar rəy verilməsi üçün yararsız olduqda və ya kifayət qədər olmadıqda, ekspert rəy verməkdən imtina edir.

Yuxarıda qeyd edilən qanun normasından da aydın olduğu kimi canlı şəxsin ekspertizası rəyində məhkəmə tibb eksperti xüsusi biliyindən kənara çıxaraq sahəsinə aid olmayan 5-ci suala cavab verməkdən imtina etməli olduğu, səlahiyyəti olmadığı halda tədqiqat aparmış, həkim-narkoloq tərəfindən verilməli rəyi imzalamışdır.

Azərbaycan Respublikası İXM-in 76.1-ci maddəsinə görə inzibati xətanın olub-olmamasını, inzibati xəta törədən şəxsin təqsirini və işin düzgün həlli üçün əhəmiyyətli olan digər halları müəyyən etmək üçün hakimin, səlahiyyətli orqanın (vəzifəli şəxsin) əsaslana bildiyi hər cür faktik məlumatlar inzibati xətalar haqqında işlər üzrə sübutlar sayılır. Bu məlumatlar maddi sübutlarla, barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin, zərər çəkmiş şəxsin, şahidlərin izahatları ilə, digər sənədlərlə, xüsusi texniki vasitələrin göstəriciləri ilə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemində, habelə digər dövlət informasiya sistemlərində (ehtiyatlarında) aşkar olunan məlumatlarla, ekspertin rəyi ilə, inzibati xəta haqqında protokolla, bu Məcəllə ilə müəyyən edilmiş digər protokollarla müəyyən edilir.

Azərbaycan Respublikası İXM-in 76.2-ci maddəsinə görə görə qanuna zidd olaraq əldə edilmiş sübutların istifadə edilməsinə yol verilmir. Beləliklə şəxsin qanından amfetamin psixotrop maddəsinin aşkar edilməsinə dair yeganə sübut qanunu pozmaqla verilmiş ekspert rəyidir. Həmin rəyin də heç bir sübut əhəmiyyəti yoxdur.

Azərbaycan Respublikası İXM-in 53.0.2-ci maddəsinə əsasən, inzibati xəta tərkibi olmadıqda, inzibati xəta haqqında işin icraatına xitam verilməlidir. XX1 oğlunun əməlində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 157 və 206-cı maddələrində nəzərdə tutulmuş inzibati xəta tərkibi olmadığı üçün onun barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 157 və 206-cı maddələri ilə başlanılmış inzibati işin icraatına məhkəmə tərəfindən xitam verilmişdir.



# NƏZƏRİYYƏ VƏ HÜQUQTƏTBİQETMƏ PROBLEMLƏRİ

***Vüqar Quliyev***
***Naxçıvan Muxtar Respublikası***
***Ali Məhkəməsinin hakimi***

## Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi institutu, məhkəmə təcrübəsi və tətbiqi meyarları

Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi institutu cinayət hüququnda xüsusi əhəmiyyət kəsb edən institutlardan biridir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra CM) 62-ci maddəsində təsbit edilən bu institut, məhkəmələrə xüsusi hallarda cəzaların fərdiləşdirilməsi üçün geniş diskresion hüquqlar tanıyır. Bununla belə, maddənin tətbiqi ilə əlaqədar məhkəmə təcrübəsində qeyri-müəyyənliklər və mübahisələr mövcuddur. Bu məqalədə milli qanunvericiliklə yanaşı, anqlo-sakson və roman-german hüquq sistemlərinin müqayisəsi əsasında CM-in 62-ci maddəsinin tətbiq meyarları və nəzəri əsasları təhlil ediləcəkdir.

Cinayətə görə müəyyən edilmiş cəzadan daha yüngül cəza təyin edilməsi institutunun tətbiqi ilə bağlı fikirlərimizə keçməzdən öncə həmin maddənin məzmunununu oxucuların diqqətinə çatdımaq istərdik. CM-in 62.1-ci maddəsinə görə *cinayətin məqsədi və motivi, təqsirkarın cinayətin törədilməsində rolu, cinayətin törədilməsi zamanı və bundan sonra onun davranışı ilə bağlı müstəsna hallar, habelə cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan başqa hallar olduqda, eləcə də iştirakçılıqla törədilmiş cinayətin iştirakçısı həmin cinayətin açılmasına fəal kömək etdikdə, bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddəsində müəyyən edilmiş aşağı həddən də az cəza təyin edilə bilər və ya məhkəmə həmin maddədə müəyyən ediləndən daha yüngül cəza növü təyin edə bilər, yaxud təyin edilməsi məcburi olan əlavə cəzanı təyin etməyə bilər. CM-in 62.2-ci maddəsinə görə isə cəzanı yüngülləşdirən həm ayrı-ayrı hallar, həm də bu cür halların məcmusu müstəsna hal hesab edilə bilər.*

Məhkəmə təcrübəsində hakimlər tərəfindən həmin maddənin tətbiqi zamanı bir sıra **"müstəsna hallar"**ın müəyyən olunması və həmin hallara

sözügedən normanın tətbiqində fikir ayrılıqları ortaya çıxır. Buna görə də məqalədə oxucularla CM-in 62.2-ci maddəsinin tətbiqinin əsasları və istifadə oluna bilən meyarlarla bağlı fikirlərimizi bölüşəcəyik.

Qeyd edilən maddənin məzmunundan **“müstəsna hallar”ın məhz hansı hallardan** ibarət olması konkret anlaşılmasa da, həmin halların cinayət mühakimə icraatı zamanı araşdırılan hansı sahələrə aid olması və yaxud cəza təyini zamanı hansı istiqamətlər üzrə müəyyən edilib nəzərə alınması aydın görünür.

Ona görə də sözü gedən maddənin ilkin olaraq ehtiva etdiyi **cinayətin məqsədi və motivi** ilə bağlı aşağıdakıları qeyd etmək məqsədəmüvafiq olar.

“Motiv” cinayət hüquq sahəsinə keçmiş psixologiya elminin anlayışlarından biridir. “Motiv” *(latın sözü moveo - hərəkətə gətirmək)* anlayışı ümumi mənada insanın hərəkətlərinin niyyətini, təhrikedici səbəbini bildirir. Belə qəbul olunur ki, tələbatların ödənilməsi ilə əlaqədar olaraq insanı hər hansı bir məqsədə yönəlmiş işə, fəaliyyətə təhrik edən amillərə, səbəblərə motiv deyilir. Ümumi anlamda ehtiyacları, cazibəni, motivasiyanı, eləcə də keçirilən narahatlıqları, emosiyaları, istəkləri, həyati məqsədləri, idealları da motiv adlandırırlar.

Motiv anlayışı həm anqlo-sakson, həm də roman-german hüquq sistemlərində geniş araşdırılır. Psixoloji aspektdən motiv, fərdin hərəkətlərini istiqamətləndirən səbəblərdir. Cinayət hüququnda motivin araşdırılması cinayətin subyektiv cəhətini və təqsirin dərəcəsini müəyyənləşdirmək üçün mühüm əhəmiyyət daşıyır. Bununla belə, cinayətin törədilməsində müsbət motivlərin mövcudluğu cəzanın yüngülləşdirilməsi üçün mühüm əsas ola bilər. ABŞ hüququnda motivin pozitiv qiymətləndirilməsi nadir hallarda mümkündür, lakin Almaniya və Fransa kimi ölkələrdə müsbət motivlər (məsələn, altruizm və ya zərurət halı ilə bağlı) cəza təyini zamanı əhəmiyyətli rol oynayır.

Cinayətin motivinin müəyyən edilməsi ilk növbədə cinayət əməlinin tövsif edilməsi üçün mühüm əhəmiyyətə malikdir. Eyni zamanda cəza təyini, cəzadan azad etmə zamanı motiv nəzərə alınmalı olan hallardan biridir.

Əlbəttə ki, cinayətin tövsif əlaməti kimi çıxış edən motiv (məsələn, qısqanclıq, qisas və sair) eyni zamanda “müstəsnalıq” təşkil edən hal kimi nəzərə alına bilməz.

Eləcə də müstəsna hal kimi qiymətləndirilən cəzanı yüngülləşdirən motivlə bağlı hallar da cinayətin tövsif əlaməti olduqda təkrar nəzərə alına bilməz.

Cinayət hüququnda qeyri-normal davranışın hərəkətverici mənbəyi kimi çıxış edən motivin cəzanı yüngülləşdirən hal və yaxud müstəsna hal kimi qiymətləndirilməsi paradoksal mülahizələrə yol açır.

Belə ki, motiv və məqsəd fakultativ tərkib əlaməti olduğundan onların cinayət əməlində necə həyata keçirilməsi və məqsədə nail olunub-olunmaması məsələləri onlara hüquqi qiymət verilməsini çətinləşdirir. Ona görə də müsbət mövqedən xarakterizə olunan motivlər müəyyənləşdirərkən motivin əməldə ifadə olunan və yaxud cinayət hadisəsindən sonra təqsirləndirilən şəxsin davranışında ifadə olunan əlamətləri araşdırılmalıdır.

Cinayətin məqsədi təqsirləndirilən şəxsin törədəcəyi əməllə onun əldə edəcəyi nəticə ilə bağlı təsəvvürüdür. Ona görə də motivlə məqsəd arasında üst-üstə düşən və ya ziddiyət təşkil edən məqamlar aydınlaşdırılmalıdır.

**Təqsirkarın cinayətin törədilməsində rolu** CM-in 62-ci maddəsində müstəsna halların araşdırılacağı hallardan biri kimi qeyd olunmuşdur.

Təqsirkarın cinayətin törədilməsində rolu dedikdə, çox zaman iştirakçılıqla törədilən cinayətlərdə onun üzərinə götürdüyü vəzifənin yerinə yetirilməsində dinamikliyi, mövqeyi və sair başa düşülür.

Sözügedən maddədə ayrıca göstərilən cinayətin törədilməsi zamanı və bundan sonra təqsirkarın davranışı ilə bağlı müstəsna hallar dedikdə onun şəraitdən asılı olaraq fəallığı və cinayətin törədilməsindən sonra onun atdığı konkret addımlar nəzərdə tutulur.

Qeyd edilən maddədə “habelə cinayətin **ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan** başqa hallar olduqda, eləcə də iştirakçılıqla törədilmiş **cinayətin iştirakçısı həmin cinayətin açılmasına fəal kömək etdikdə**” şərtləri də nəzərdə tutulmuşdur ki, burada da təqsirləndirilən şəxsin cinayət əməlinin ictimai münasibətlərə daha az zərər vurulmasına yönələn, iştirakçısı olduğu cinayətin açılmasına istiqamətlənən fəaliyyəti önə çəkilir.

Maddədə qeyd edilən istiqamətlərin sırasına nəzər yetirdikdə görürük ki, cinayət hadisəsinin inkişaf dinamikası nəzərə alınmışdır. Yəni, əvvəlcə təqsirkarın psixikasında motiv və məqsədin yaranması, onun hadisənin baş vermə fonunda və hadisədən sonrakı davranışı ardıcıllıqla qeyd edilmişdir.

Cinayət törədən şəxsin hadisədən sonrakı davranışı bütün hüquq sistemlərində cəzanın fərdiləşdirilməsində önəmli bir faktordur. Xüsusilə, cinayət nəticələrinin aradan qaldırılması, cinayətin açılmasında iştirak etmək, peşmançılıq nümayiş etdirmək kimi hallar cinayətin ictimai təhlükəliliyinin azaldılması kimi qəbul edilir və cəzanın yüngülləşdirilməsi

üçün əsas yaradır. Almaniyada və Fransada bu cür davranışlar xüsusi hüquqi müddəalarla təsbit edilmişdir.

Qeyd olunanlardan belə nəticə çıxarmaq nümkündür ki, cinayətin obyektiv cəhətini və subyektiv cəhətinin fakultativ elementlərini ifadə edən hallardan aşkar edilən məqamlar **əgər müstəsnalıq təşkil edirsə nəzərə alınmalıdır**.

Lakin gəlmiş olduğumuz bu nəticə ilə Cinayət Məcəlləsinin 62.2-ci maddəsinin məzmunu məntiqi ardıcıllıq ifadə etmir. Sözügedən maddənin məzmunu aşağıdakı kimidir. CM-in 62.2-ci maddəsinə görə cəzanı yüngülləşdirən həm ayrı-ayrı hallar, həm də bu cür halların məcmusu müstəsna hal hesab edilə bilər.

Qeyd etmək lazımdır ki, CM-in 62.1-ci maddəsində göstərilən çərçivədə nəzərə alınmalı olan müstəsna hallar CM-in 59-cu maddəsində əksini tapan cəzanı yüngülləşdirən halların hamısını əhatə etmir.

Yəni vurğulamaq lazımdır ki, baş vermiş cinayət əməlinin **yalnız obyektiv və subyektiv cəhətini təşkil edən hallardan müstəsna hallar müəyyən edilməli olduğu halda,** CM-in 59-cu maddəsində göstərilən hər hansı cəzanı yüngülləşdirən halı və ya bu cür halların məcmusunun fərq qoyulmadan müstəsna hal kimi nəzərə alınması sözügedən maddənin tətbiqində ziddiyyət yaradır.

Məsələn, CM-in 59.1.2-ci maddəsində göstərilən cinayətin yetkinlik yaşına çatmayan şəxs tərəfindən törədilməsi, CM-in 59.1.3-cü maddəsində göstərilən cinayətin hamilə qadın tərəfindən törədilməsi, CM-in 59.1.4-cü maddəsində göstərilən cinayət törətmiş şəxsin himayəsində azyaşlı uşağın olması və digər bu kimi CM-in 59-cu maddəsində göstərilməyən cəzanı yüngülləşdirən hallar CM-in 62.1-ci maddəsinin təsiri altına düşə bilməz.

Belə ki, təqsirləndirilən şəxsin şəxsiyyəti, ailə vəziyyəti, yaşı, uşaqlarının sayı, sağlamlıq vəziyyəti ilə bağlı hallar CM-in 62.1-ci maddəsi prizmasından araşdırılmalı və nəzərə alınmalı predmetlər sırasına daxil deyildir. Eləcə də cinayətin ictimai təhlükəliliyini əhəmiyyətli dərəcədə azaldan başqa hallar da qeyd edilən kateqoriyaya aid hallarla əlaqələndirilə bilməz.

CM-in 59-cu maddəsində müəyyən edilən və təqsirkarın ailə vəziyyəti, sağlamlıq durumu və sosial vəziyyəti ilə əlaqəli olan hallar CM-in 62-ci maddəsi ilə qarışdırılmamalıdır. Cinayət hüququ sistemlərində cəzaların fərdiləşdirilməsi zamanı təqsirkarın şəxsiyyəti və sosial durumu ilə bağlı hallar yüngülləşdirilən hal qismində nəzərə alınır. Bu məqam ABŞ və Almaniya təcrübəsində də önə çəkilir, lakin ABŞ-da təqsirkarın şəxsi

xüsusiyyətlərinin qiymətləndirilməsi federal təlimatlarla daha da məhdudlaşdırılmışdır.

CM-in 62.2-ci maddəsində sadəcə olaraq cəzanı yüngülləşdirən halların həm də müstəsna hal kimi qiymətləndirilməsi imkanı vurğulanmışdır. Eləcə də bir neçə halın birlikdə müstəsna hal kimi nəzərə alınmasına da yol verilməsi diqqətə çatdırılır. Ona görə də CM-in **62.2-ci maddəsinin 62.1-ci maddəsi ilə əlaqəsiz şəkildə əlahiddə olaraq tətbiq edilməsi yolverilməzdir.**

Cinayətin ağır həyat şəraiti nəticəsində törədilməsi, ilk dəfə törədilməsi, təqsirləndirilən şəxsin müsbət xarakterizə olunması, xüsusi adlara, göstəricilərə, mükafatlara malik olması, təqsirləndirilən şəxsin özünün, himayəsində olan şəxslərin əlil, xəstə, fiziki məhdudiyyətli olması, təqsirləndirilən şəxsin yeganə qazanc gətirən olması və sair bu kimi hallar da özü-özlüyündə Cinayət Məcəlləsinin 62-ci maddəsinin tətbiqi üçün birbaşa əsas ola bilməz.

Cinayətin ilk dəfə törədilməsi halının nəinki müstəsna hal, ümumiyyətlə cəzanı yüngülləşdirən hal olaraq da nəzərə alınması yanlış məhkəmə təcrübəsi və mülahizənin nəticəsidir. Belə ki, CM-in 59.1.1-ci maddəsində hadisələrin təsadüfi axarı zəminində ilk dəfə olaraq böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayətin törədilməsi cəzanı yüngülləşdirən hal kimi göstərilsə də, cinayətin məhz hadisələrin təsadüfi axarı zəminində baş verməsi xüsusi qeyd olunur. Ona görə də cinayətin ilk dəfə baş verməsinə cəzanı yüngülləşdirən hal kimi yanaşmaq yolverilməzdir.

CM-in 62-ci maddəsinin tətbiqi eyni zamanda CM-in 8-ci maddəsinin (ədalət prinsipi) və 58-ci maddəsinin (cəzanın təyin edilməsinin ümumi əsasları) tələblərinin təmin edilməsinə xidmət edir. CM-in 8-ci maddəsinin (ədalət prinsipi) məzmunu aşağıdakı kimidir:

*8.1. Cinayət törətmiş şəxs haqqında tətbiq edilən cəza və ya digər cinayət-hüquqi xarakterli tədbirlər ədalətli olmalıdır, yəni cinayətin xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə, onun törədilməsi hallarına və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyətinə uyğun olmalıdır.*

*8.2. Heç kəs eyni bir cinayətə görə iki dəfə cinayət məsuliyyətinə cəlb oluna bilməz.*

Cinayət Məcəlləsinin 62-ci maddəsinin tətbiqi zamanı müəyyən edilən müstəsna hal "prezumpsiya" xarakterli olmamalıdır. Yəni, cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, onun törədilməsi halları və cinayət törətməkdə təqsirli bilinən şəxsin şəxsiyyəti CM-in 62-ci maddəsinin

tətbiqinə və müvafiq halın müstəsna hal kimi qiymətləndirilməsinə imkan verməlidir.

CM-in 58-ci maddəsində də həmin Məcəllənin 62-ci maddəsi xüsusi olaraq qeyd edilməklə cəzanın təyin edilməsinin ümumi əsasları göstərilmişdir. Maddənin məzmunundan da görünür ki, CM-in 62-ci maddəsinin tələblərinə əməl etməklə müstəsna halların müəyyən edilib qiymətləndirilməsi zamanı cəzanın təyin edilməsinin ümumi əsasları da nəzərə alınmalıdır.

Belə ki, CM-in 58-ci maddəsinə əsasən:

58.1. Cinayət törətməkdə təqsirli bilinən şəxsə, bu Məcəllənin Ümumi hissəsinin müddəaları nəzərə alınmaqla Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hədlərdə ədalətli cəza təyin edilir. Törədilmiş cinayətə görə nəzərdə tutulmuş cəzalardan daha ciddi cəza növü və ya həddi yalnız o halda təyin edilir ki, az ciddi cəza növü və ya həddi cəzanın məqsədlərini təmin edə bilmir.

58.2. Törədilmiş cinayətə görə bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş cəzadan daha ciddi cəza yalnız həmin Məcəllənin 66 və 67-ci maddələrinə uyğun olaraq, cinayətlərin məcmusu və hökmlərin məcmusu üzrə təyin edilə bilər. Törədilmiş cinayətə görə bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş cəzadan daha yüngül cəzanın təyin olunması əsasları həmin Məcəllənin 62-ci maddəsi ilə müəyyən edilir.

58.3. Cəza təyin edilərkən törədilmiş cinayətin xarakteri və ictimai təhlükəlilik dərəcəsi, təqsirkarın şəxsiyyəti, o cümlədən cəzanı yüngülləşdirən və ağırlaşdıran hallar, habelə təyin olunmuş cəzanın şəxsin islah olunmasına və onun ailəsinin həyat şəraitinə təsiri nəzərə alınır

Yəni, qeyd olunan maddələrin təhlilindən aydın olur ki, müstəsna halların müəyyən edilib qiymətləndirilməsi AR CM-in 62-ci maddəsinin tələblərinə uyğun aparılmalı, müvafiq maddədə nəzərdə tutulmuş cəzadan daha yüngül cəza təyin edilərkən isə həmin Məcəllənin 8-ci və 58-ci maddələrinin tələbləri də hər bir halda nəzərə alınmalıdır.

Müqayisə üçün qeyd etmək maraqlı olar ki, **anqlo-sakson hüquq sistemində** (xüsusilə ABŞ və Böyük Britaniya təcrübəsində) hakimlərin cəza təyini zamanı geniş diskresion hüquqları vardır. ABŞ federal məhkəmələrində "Federal Cəza Təlimatları" ("Federal Sentencing Guidelines") çərçivəsində cəzaların fərdiləşdirilməsi mümkün olsa da, hakimlərin tətbiq edəcəkləri cəza hədləri ciddi şəkildə normativləşdirilib. Buna baxmayaraq, ABŞ Ali Məhkəməsinin United States v. Booker (2005)

qərarından sonra hakimlər müəyyən hallarda bu təlimatlardan kənarlaşa bilirlər. Bu hüququn tətbiqi üçün hakimlər motiv, təqsirkarın şəxsi xüsusiyyətləri və cinayətin xarakterini nəzərə almaqda geniş mülahizə imkanına sahibdirlər. Bu hüquq sistemində məhkəmələr "yüngülləşdirici hallar" anlayışı altında cinayətdən sonrakı davranış, sosial və ailəvi hallar, mental səhhət, peşmanlıq, zərərçəkmişlə barışma kimi faktorlar qiymətləndirilir.

**Roman-german hüquq sistemində**, xüsusən Almaniya və Fransa nümunələrində isə cəzaların yüngülləşdirilməsi ilə bağlı müddəalar məcəllələrdə dəqiq şəkildə təsbit olunmuşdur. Alman Cinayət Məcəlləsinin və Fransa Cinayət Məcəlləsinin müvafiq maddələri hakimlərə cinayətin törədilməsi şəraiti, təqsirkarın cinayətə yanaşması və cinayətdən sonrakı davranışı kimi konkret meyarlar əsasında cəzanı yüngülləşdirmək imkanı verir. Burada əsas diqqət cinayətin ictimai təhlükəliliyi və təqsirkarın şəxsiyyətinə yönəlir.

Nəticə etibarilə, Azərbaycan qanunvericiliyində cəzanı yüngülləşdirən "müstəsna hallar" anlayışı ilə bağlı hüquqi qeyri-müəyyənliyin aradan qaldırılması üçün beynəlxalq təcrübədən geniş istifadəyə ehtiyac vardır. Məhkəmələr bu institutun tətbiqi zamanı motiv, məqsəd, cinayətdə iştirak dərəcəsi, cinayətin nəticələrinin aradan qaldırılması istiqamətindəki fəaliyyətləri və cinayətin ictimai təhlükəliliyini azaldan digər halları **konkret və obyektiv meyarlar əsasında** qiymətləndirməlidir. Bu istiqamətdə hüquq sistemlərinin müqayisəli təhlilindən irəli gələn təcrübə həm məhkəmə təcrübəsinin vahidliyini təmin edə, həm də cəzanın fərdiləşdirilməsinin daha ədalətli şəkildə həyata keçirilməsinə şərait yarada bilər.

Fikrimizcə, CM-in 62-ci maddəsinin alt-məzmununun (sub-normativ hissələrinin) açıqlanması üzrə Konstitusiya Məhkəməsinin geniş rəsmi şərhinin verilməsi, həmin maddənin tətbiq meyarlarının Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun qərarı ilə konkretləşdirilməsi, habelə məhkəmə təcrübəsində eyni xarakterli halların qiymətləndirilməsinə vahid yanaşmanı təmin edən üç ulduzlu (vahid məhkəmə təcrübəsini müəyyən edən) qərarların qəbul edilməsi sözügedən maddənin məhkəmələr tərəfindən tətbiqi təcrübəsində hüquqi müəyyənliyin təmin olunması baxımından mühüm əhəmiyyətə malik olardı.

## İstifadə olunmuş mənbələr:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq Yayın Evi, 2024.

2. Psixologiya. Dərslik. / Prof. S.İ. Seyidov və prof. M.Ə. Həmzəyevin redaktorluğu ilə. Bakı: 2007.

3. Səməndərov F.Y. Cinayət hüququ. Ümumi hissə. Bakı: Digesta, 2007.

4. Котов Д.П. Мотивы преступлений и их доказывание. Воронеж, 1975. СПб.

5. Рарог А.И. Квалификация преступлений по субъективным признакам. СПб., 2003

6. Российское уголовное право. Курс лекций: в 3 т. Т. 1. Общая часть / А.В. Наумов. М.: Волтере Клувер, 2007

7. Филановский И.Г. Субъективная сторона преступления и ее установление. Воронеж, 1974.

8. Шаргородский М.Д. Курс советского уголовного права. Часть Общая. Том 2, М., 1970.



# AZAD TRİBUNA

*Mehdi Əliyev*
*Naxçıvan Muxtar Respublikası*
*Ali Məhkəməsinin hakimi*

## Süni intellekt və hüquq: imkanlar və risklər

Müasir dövrümüzdə süni intellekt texnologiyalarının yaranması və inkişafı bütün digər sahələrdə olduğu kimi hüquqi təhlil və hüquq tətbiqetmə təcrübəsinə də yeni dinamika gətirmişdir. Süni intellektin tətbiqi imkanları böyük həcmli məlumat analizindən başlayaraq, mürəkkəb qanunvericilik aktlarının avtomatik interpretasiyasına qədər geniş spektri əhatə edir. Məsələn, e-discovery prosesi[1] illik milyonlarla sənəd dövriyyəsini emal edir, ənənəvi metodlar saatlar tələb edərkən, süni intellekt təxminən 95% vaxt qənaəti ilə bu işi 30 dəqiqəyə qədər sürətləndirə bilir (Mittelstadt, 2019, s. 14). Belə sürət və miqyas hüquq firmalarına və məhkəmələrə qısa zaman içərisində daha çox işi səmərəli idarə etməyə imkan verir. Lakin eyni zamanda qara qutu alqoritmlərindən irəli gələn şəffaflıq, ədalət prinsiplərinə uyğunluq və şəxsi məlumatların məxfiliyi kimi fundamental hüquqi məsələlər yenidən aktuallaşır.

Məqalədə süni intellektin dörd əsas istiqamətdə təhlili aparılacaqdır:

1. Süni intellektin (bundan sonra qısaltmalarda "Sİ") hüquq sahəsindəki imkanları
2. Potensial risklər və problemlər
3. Beynəlxalq hüquqi tənzimləmə və 2025-ci ildə cari tətbiq vəziyyəti
4. Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası

Süni intellektin hüquq sahəsindəki imkanları hazırda beynəlxalq hüquq konfranslarında müzakirə və bir sıra ölkələrdə artıq tətbiqinə başlanılan yeni

[1] e-discovery - məhkəmə proseslərində tərəflərdən elektron formada məlumatların toplanması, emalı, təhlili və təqdim edilmə mərhələlərini ifadə edir.

dövrün çağrışlarından biridir. Süni intellektin hüquq sahəsində tətbiqi aşağıdakı imkanları özündə ehtiva edir:

1. *Hüquqi sənədlərin təhlili*: Müqavilələrin, məhkəmə qərarlarının və qanunvericilik aktlarının avtomatik skan edilməsi kontekstual NLP (təbii dil emalı) vasitəsilə sürətləndirilir. Belə sistemlər sənəddəki əsas maddələri qruplaşdırır, risk göstəricilərini (məs: "əvvəlcədən müəyyən olunmuş zərər haqları")[2] erkən müəyyən edir və hüquqşünaslar tərəfindən məntiqi strukturun formalaşdırılması üçün ayrılan vaxtı kəskin şəkildə azaldır (məs: ROSS Intelligence[3], Legisum[4])

2. *Faktiki halların analizi*: Məhkəmə iclaslarının audio və video yazılarından mətnin çıxarılması, təbii dil emalına əsaslanan xülasə hazırlama, statistika yönümlü klasterləşdirmə, virtual presedent xəritələri məhkəmə aparatına daha obyektiv məlumat bazası təqdim edir. Hazırda dünyada məhkəmə sistemlərində (ABŞ, Çin, Estoniya və.s) tətbiq edilən pilot süni intellekt layihələrinin araşdırma vaxtını əhəmiyyətli dərəcədə azaltdığı iddia edilir.

3. *Tətbiq olunacaq hüququn tapılması*: Hüquqi süni intellekt mühərriki faktları normativ terminologiya ilə bağlayır, tətbiq olunacaq normativ aktları avtomatik olaraq müəyyən edir və insan əməyi ilə müqayisədə bir neçə dəfə daha sürətli nəticə göstərir.

4. *Proqnozlaşdırma və qərar dəstəyi*: Əvvəlki məhkəmə qərarları əsasında öyrədilmiş süni intellekt modelləri işin nəticəsini təqribən 80% dəqiqliklə proqnozlaşdırır (Kroll et al., 2017, s. 203). Hüquq firmaları bu modellərin nəticələrini "nəticəyə görə qiymətləndirmə" [5] strategiyasına inteqrasiya etməklə riskləri daha əvvəlcədən qiymətləndirə bilərlər.

5. *Hüquqa əlçatanlığın təmin edilməsi*: Çoxdilli hüquqi məsləhət modelləri və virtual köməkçilər istifadəçilərə ilkin hüquqi məsləhət verərək ədalət mühakiməsinə çıxışı asanlaşdıra bilər. Dünyada 2024-cü ildə təxminən 987 milyon insan süni intellekt modellərindən istifadə etmişdir (Exploding Topics, 2024).

---

[2] "Əvvəlcədən müəyyən olunmuş zərər haqları" (Liquidated damages) - müqavilə bağlanarkən tərəflərin razılığa gəldiyi, müqavilə şərtlərindən birinin pozulması halında zərərçəkən tərəfə ödəniləcək kompensasiya məbləğidir.

3 ROSS Intelligence 2015-ci ildə yaradılmış ilk kommersiya AI-hüquqi tədqiqat platformalarından biridir.

[4] Legisum qanunvericiliyi tez və effektiv şəkildə ümumiləşdirməyə kömək edən süni intellektlə işləyən proqramdır.

[5] "Nəticəyə görə qiymətləndirmə" (outcome-based pricing) - xidmət üçün ödənişin sərf edilən vaxt və ya xərclərə görə deyil, əldə edilmiş konkret əməliyyat nəticələrinə əsasən müəyyən edildiyi qiymət modelidir.

Bununla yanaşı hüquqi təhlil və tətbiqetmə təcrübəsində süni intellekt modellərindən istifadə olunması müəyyən **risklər** və müzakirə olunmalı **çağırışlara** da yol açır. Bu riskləri aşağıdakı kimi qruplaşdıra bilərik:

1. *Şəxsi məlumatların məxfiliyi*: Kütləvi məlumat toplama metodları "üzvlük nəticəsi" hücumlarına[6] və şəxsi məlumatların sui-istifadəsinə yol aça bilər.

2. *Alqoritmik ayrı-seçkiliyin yaranması:* COMPAS alqoritmi[7] üzərində aparılan ProPublica təhlili "yanlış-müsbət" riskini afroamerikalılarda 45%, ağdərili məhkumlarda isə 23% müəyyən etmişdir (Angwin et al., 2016, s. 6). Belə ki, 2016-cı ildə ProPublica jurnalistləri Julia Angwin, Jeff Larson və digərləri tərəfindən dərc olunmuş araşdırmada 10000-dən çox məhkumun COMPAS risk qiymətləndirməsi ilə onların sonrakı iki il ərzində islah olunma hallarının real nəticələri müqayisə edilmişdir. Belə nəticəyə gəlinmişdir ki, COMPAS alqoritmi qara dərili məhkumlar üçün yanlış-müsbət (false-positive) dəyərləndirmə nisbətini daha yüksək qiymətləndirir, yəni onları həqiqətən residiv etmədikləri halda "yüksək riskli" qrupuna daha tez salır. Ağ dərili məhkumlar üçün isə əksinə, yanlış-mənfi (false-negative) halları çoxalır, yəni yüksək riskli olduqlarını nəzərə almadan "aşağı riskli" kimi dəyərləndirir. Bu nümunə tarixi məlumatlardakı ayrı-seçkiliyin necə sistemli ayrı-seçkiliyə səbəb ola biləcəyini göstərmişdir.

3. *Hüquqi məsuliyyət:* "Qara qutu" alqoritmləri məntiqini açıqlamadığı üçün qərarların yanlışlığından kimin məsul olması dəqiq müəyyənləşdirilməlidir. Avropa Süni İntellekt Aktı (2024) bu məsələni qismən həll edir. Həmçinin Çin və bəzi Avropa ölkələri ənənəvi süni intellekt modellərindən düşüncə prosesini (yəni gəlinən nəticənin analizi prosesini) istifadəçiyə təqdim edən "reasoning modelləri"ni təşviq edir.

4. *Şəffaflıq və hesabatlılıq:* ABŞ-ın Milli Standartlar və Texnologiya İnstitutu (NIST) tərəfindən hazırlanan "Risqin idarə edilməsi çərçivəsi-2023" (Risk-Management Framework - 2023)[8] izah edilə bilənlik və performans testləri təklif edir. Buna səbəb ABŞ hüquq firmaları üçün audit protokollarının hələ tam standartlaşdırılmamasıdır.

---

[6] "Üzvlük nəticəsi" (membership inference) - hücum edən şəxsin bir maşın öyrənməsi modelinə sorğu göndərərək konkret bir məlumat nümunəsinin həmin modelin təlim verilənləri arasında olub-olmadığını təxmin etməyə çalışması üsuludur.

[7] COMPAS - ABŞ-da 1998-ci ildə hazırlanmış mühakimə öncəsi və məhkəmə sonrası risk dəyərləndirmə alqoritmidir. Məhkumların şəxsi və cinayət tarixçəsinə dair 100-dən çox sualdan ibarət anket sorğusunu əsas götürərək üç əsas risk göstəricisini hesablayır.

8 ABŞ-ın Milli Standartlar və Texnologiya İnstitutu (NIST) tərəfindən 26 yanvar 2023-cü ildə çıxarılan könüllü çərçivədir. Məqsədi süni intellekt sistemlərinin dizaynı, inkişafı, tətbiqi və qiymətləndirilməsi zamanı etibarlılıq və riski idarə etmə aspektlərini praktik olaraq inkişaf etdirməyə kömək etməkdir.

5. *Kibertəhlükəsizlik riskləri:* Pis niyyətli inyeksiya (adversarial prompt-injection) hücumları hüquqi süni intellekt məsləhətçilərini yanlış məsləhət verməyə vadar edə bilər. Belə ki, pis niyyətli inyeksiya hücumları böyük dil modelləri (LLM) və digər Sİ sistemlərinin istifadəçi sorğularını emal edərkən təqdim etdiyi "etibarlı" təlimatlarla adi məzmunu ayırd edə bilməməsindən yararlanan kibertəhlükəsizlik texnikasıdır. Bu da həmin sistemlərdə qabaqlayıcı təhlükəsizlik tədbirləri və davamlı monitorinq sistemini zəruri edir.

Süni intellekt 21-ci əsrin ən mühüm və inqilabi kəşflərindən biri hesab olunur və müasir dünyada inkişaf etmiş ölkələr arasında ötən əsrin silahlanma yarışından sonra 21-ci əsrin ən ciddi rəqabət sahələrindən birinə çevrilmişdir. Buna görə də bu sahənin hüquqi tənzimlənməsi, beynəlxalq hüquqi aktların qəbul edilməsi və regionlar və ölkələr arasında hüquqi əməkdaşlığın gücləndirilməsi aktuallıq qazanır. Süni intellektin beynəlxalq hüquqi tənzimlənməsi istiqamətində təşəbbüslər irəli sürülməkdədir.

Hazırda Avropada bu sahədə ilk addımlar atılmaqdadır. Avropa ittifaqı tərəfindən **"Süni intellekt" Aktı** qəbul olunmuş**,** 1 avqust 2024-cü il tarixdən qüvvəyə minmişdir. Aktın ayrı-ayrı müddəalarının 6-36 ay ərzində qüvvəyə minməsi nəzərdə tutulmuşdur.[9] Yeni qaydalar risk səviyyəsindən asılı olaraq provayderlər və istifadəçilər üçün öhdəliklər müəyyən etmişdir.

*Avropa İttifaqında **qadağan edilmiş** süni intellekt tətbiqlərinə aşağıdakılar daxil edilmişdir:*

- İnsanların və ya xüsusi həssas qrupların koqnitiv davranış manipulyasiyası: məsələn, uşaqlarda təhlükəli davranışı təşviq edən səslə aktivləşdirilən oyuncaqlar
- Sosial qiymətləndirmə AI: davranış, sosial-iqtisadi status və ya şəxsi xüsusiyyətlərə görə insanları təsnif etmək
- İnsanların biometrik identifikasiyası və təsnifatı
- Real vaxt rejimində və uzaqdan biometrik identifikasiya sistemləri, məsələn, ictimai yerlərdə sifətin tanınması

Hüquq-mühafizə məqsədləri üçün bəzi istisnalara yol verilir. Məhdud sayda ciddi işlərdə "real rejimdə" uzaqdan biometrik identifikasiya sistemlərinə, identifikasiya əhəmiyyətli gecikmədən sonra baş verən "post" distant biometrik identifikasiya sistemlərinə isə ağır cinayətlərin təqibinə və yalnız məhkəmə qərarı alındıqdan sonra icazə verilə bilər.

---

[9] https://www.europarl.europa.eu/topics/en/article/20230601STO93804/eu-ai-act-first-regulation-on-artificial-intelligence

*Akta əsasən təhlükəsizliyə və ya əsas hüquqlara mənfi təsir göstərən Sİ sistemləri* ***yüksək risk*** *hesab olunur və iki kateqoriyaya bölünür:*

1) Avropa Birliyinin məhsul təhlükəsizliyi qanunvericiliyinə daxil olan məhsullarda istifadə olunan Sİ sistemləri. Buraya oyuncaqlar, aviasiya, avtomobillər, tibbi cihazlar və liftlər daxildir.

2) Avropa İttifaqı məlumat bazasında qeydiyyatdan keçməli olan xüsusi sahələrə aid Sİ sistemləri:

- Kritik infrastrukturun idarə edilməsi və istismarı
- Təhsil və peşə hazırlığı
- Məşğulluq, işçilərin idarə edilməsi və özünüməşğulluğa çıxış
- Əsas özəl xidmətlərə və ictimai xidmətlərə və üstünlüklərə çıxış və istifadə etmək
- Hüquq-mühafizə
- Miqrasiya, sığınacaq və sərhəd nəzarətinin idarə edilməsi
- Qanunun hüquqi şərhi və tətbiqində köməklik.

Bütün yüksək riskli süni intellekt sistemləri bazara çıxarılmazdan əvvəl və həmçinin onların bütün istifadə müddəti ərzində qiymətləndiriləcəkdir. İnsanlar Sİ sistemləri ilə bağlı təyin edilmiş milli orqanlara şikayət etmək hüququna malik olacaqlar.

Akta əsasən **Generativ süni intellekt** (məs: ChatGPT modelləri) yüksək riskli kimi təsnif edilmir, lakin **şəffaflıq tələblərinə** və Avropa İttifaqının müəlliflik hüququ qanunlarına əməl etməli olacaq:

- Məzmunun Sİ tərəfindən yaradıldığını açıqlamaq
- Modelin qeyri-qanuni məzmun yaratmasının qarşısını almaq üçün dizayn edilməsi
- Təlim üçün istifadə edilən müəllif hüquqları ilə qorunan məlumatların icmalının dərci

Akta görə daha təkmil kimi sistem riski yarada bilən yüksək təsirli ümumi təyinatlı Sİ modelləri (GPT-4o, 0-3, 0-4 mini və.s) hərtərəfli qiymətləndirmələrdən keçməli və hər hansı ciddi insident barədə Avropa Komissiyasına məlumat verilməlidir.

Bundan başqa İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) 2019-cu ildə dünyada ilk dəfə "insan-mərkəzli", "etik və etibarlı" süni intellekt üçün beş dəyər-əsaslı və beş praktiki tövsiyə prinsip (**OECD Prinsipləri)** qəbul etmişdir. Bu prinsiplər o cümlədən inklüziv böyümə, insan hüquqlarına hörmət, şəffaflıq, təhlükəsizlik və hesabatlılıq kimi tələbləri ehtiva edir. Nümunə olaraq "İnklüziv böyümə, dayanıqlı inkişaf və rifah" prinsipinə nəzər salaq. Prinsip süni intellektin cəmiyyət üçün faydalı olması, az təmsil

olunan qrupların inklüzivliyini artırması və ekoloji dayanıqlığı qorumasını tələb edir. Bu prinsiplər dünya miqyasında 70-dən çox ölkə və qurum tərəfindən öz milli siyasətlərinə inteqrasiya olunub, bu da qlobal səviyyədə süni intellektin etibarlı, şəffaf və insan hüquqlarına hörmətlə inkişafına təkan verir. [10]

**UNESCO** tərəfindən 23 noyabr 2021-ci il tarixində süni intellekt etikası üzrə ilk qlobal standart olan **"Süni İntellektin Etikası üzrə Tövsiyə"** hazırlanmışdır. Tövsiyə UNESCO-nun bütün 194 üzv dövləti üçün tətbiq edilir. Bu Tövsiyənin əsas məqsədi insan hüquqlarının və ləyaqətinin qorunmasıdır. Bu, şəffaflıq və ədalət kimi fundamental prinsiplərin inkişafına söykənir və Sİ sistemləri üzərində insan nəzarətinin vacibliyini daim ön planda saxlayır. Tövsiyədə 4 əsas dəyər vurğulanır:

1. İnsan hüquqları və ləyaqət: Sİ sistemi insan hüquqlarına hörmət etməli, insan ləyaqətini qorumaq üçün şəffaflıq və hesabatlılıq təmin edilməlidir.
2. Sülh, ədalət və qarşılıqlı əlaqə: Sİ tətbiqləri sülhü, ədalətli cəmiyyətləri gücləndirməli, sosial bağlılığı möhkəmləndirməlidir.
3. Müxtəliflik və inklüzivlik: Hər kəsə bərabər çıxış imkanı, mədəni, etnik, sosial fərqliliklərin qorunması və tərəqqi üçün şərait yaradılmalıdır.
4. Ətraf mühit və ekosistemlər: Sİ sistemlərinin inkişafında ekoloji dayanıqlıq və karbon izinin minimallaşdırılması prinsipləri nəzərə alınmalıdır.

Həmçinin UNESCO-nun "FAT-E" (Fair, Accountable, Transparent, Explainable) modeli hüquq sistemlərində inklüzivlik və açıqlanabilirlik prinsiplərini prioritetə çevirir (UNESCO, 2021, s. 11).

**Süni intellektlərin sertifaktlaşması** sahəsində də addımlar atılmaqdadır. **ISO/IEC 42001** 2023-cü ildə nəşr olunmuş ilk beynəlxalq standartdır ki, süni intellekt (Sİ) sistemlərinin idarə edilməsi üçün sertifikatlaşdırıla biləcək ümumi tələbləri müəyyən edir. Məqsəd təşkilatlara Sİ-lə bağlı riskləri sistemli şəkildə idarə etmək, Sİ layihələrinin etibarlı, şəffaf və davamlı olmasını təmin etmək üçün vahid çərçivə təqdim etməkdir. Hər ölçüdə və hər sektorda fəaliyyət göstərən təşkilatlar üçün nəzərdə tutulub. Sİ layihələrinə daxil olan siyasət və proseslərdən başlayaraq texniki və etik nəzarət mexanizmlərinə qədər bütün həyat dövrü mərhələlərini əhatə edir.

[10] https://www.oecd.org/en/publications/the-state-of-implementation-of-the-oecd-ai-principles-four-years-on_835641c9-en.html

Məhkəmə-hüquq sistemində 2025-ci ildə süni intellektin tətbiqinə də qısa nəzər salmaq maraqlı olardı. **ABŞ federal məhkəmələrində** "e-discovery" sisteminin avtomatlaşdırılmış tətbiqinə başlamışdır. 15 ştat proqnoz sistemlərini test etdiyi barədə mediada məlumatlar paylaşmışdır. **Böyük Britaniyada** HMCTS fakt-icmal modulu ilkin mülki iddiaların 30 %-ni onlayn həll edir. **Çində** 100-dən çox **"Ağıllı məhkəmə"** vahidində video-hakim interfeysi tətbiq edilir.

Ölkəmizdə isə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "**Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası**"[11] və Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə təsdiq edilmiş "**Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası**"[12] və hazırlanmaqda olan qanun layihələri yerli tənzimləməni gücləndirəcək, milli süni intellekt sistemlərinin qanunvericiliyə uyğun qurulması və milli və beynəlxalq tənzimləməyə uyğun fəaliyyəti üçün hüquqi çərçivə yaradacaqdır.

Hesab edirik ki, **qarşıdakı illərdə süni intellektin məhkəmə sistemində tətbiqi** məhkəməyə təqdim edilən sənədlərdən (iddia ərizəsi, ittiham aktı, apellyasiya şikayəti və.s) işin faktiki hallarının süni intellekt tərəfindən öyrənilməsi və icmallaşdırılması nəticəsində hakimlər tərəfindən işin hallarının daha sürətlə öyrənilməsinə, işin faktiki hallarına tətbiq olunmalı hüquq normalarının, plenum qərarlarının və vahid məhkəmə təcrübəsi yaradan məhkəmə qərarlarının daha tez tapılmasına və beləliklə hüquqi araşdırmaya sərf olunan zamana qənaət edilməsinə, hakimin gəldiyi nəticə və verdiyi hüquqi istiqamətlər əsasında süni intellekt tərəfindən hüquqi əsaslandırma layihələrinin tərtibinə, habelə məhkəmə idarəçiliyi baxımından elektron məhkəmə sistemində mövcud olan qərarların öyrənilməsi və ümumiləşdirilməsinin aparılmasına, məhkəmə statistikası sahəsində proqnozlaşdırmanın tətbiqinə, proses iştirakçıları baxımından isə yekun məhkəmə qərarlarının süni intellekt tərəfindən öyrənilərək tərəflərə sadə dildə izah edilməsinə və bu kimi digər innovasiyaların tətbiqini gətirib çıxarmaqla bu sahədə inqilabi dəyişiklərə səbəb olacaqdır.

Ümid edirik ki, ölkəmizdə süni intellektin məhkəmə və hüquq sistemlərində tətbiqi üçün qabaqcıl dünya ölkələrinin təcrübəsinin öyrənilməsi, məhkəmə sistemində süni intellektin mümkün hüquqi tətbiqlərinin siyahısının hazırlanması, qurulacaq süni intellekt modellərinin

---

[11] https://president.az/az/articles/view/67938
[12] https://president.az/az/articles/view/68365

təlim keçməsi üçün keyfiyyətli məlumat və qərar bazasının formalaşdırılması gələcək proseslərin sürətləndirilməsinə mühüm töhfə vermiş olacaqdır.

## Ədəbiyyat siyahısı


1. Angwin, J. et al. *Machine Bias*, ProPublica, 2016
2. European Commission. *Reg. (EU) 2024/1689 (AI Act)* – OJ, 2024
3. Kroll, J.A. et al. *Accountable Algorithms*, UPenn L. Rev 165 (2017)
4. Mittelstadt, B.D. *Principles Alone Cannot Guarantee Ethical AI*, Nat. Mach. Intell. 1 (2019)
5. NIST. *AI Risk-Management Framework*, rev 1, 2023
6. UNESCO. *Recommendation on the Ethics of AI*, 2024
7. Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası, 2025
8. Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt Strategiyası, 2025
9. https://www.oecd.org
10. https://www.europarl.europa.eu



# ALİ MƏHKƏMƏNİN MƏTBUAT XİDMƏTİNDƏN

## 2025-ci ilin yanvar-iyun aylarında keçirilən tədbirlərin xülasəsi

Yanvar ayının 15-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə formalaşmış yeni məhkəmə təcrübəsi ilə bağlı Naxçıvan Şəhər Məhkəməsində qarşılıqlı fikir mübadiləsi həyata keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kollegiya sədri və bir neçə hakiminin, muxtar respublikada fəaliyyət göstərən rayon (şəhər) məhkəmələrinin sədr və hakimlərinin, həmçinin vəkillərin iştirakı ilə baş tutan müzakirədə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2024-cü il 20 dekabr tarixli Qərarı və 2024-cü il 6 dekabr tarixli Qərardadı ilə tənzimlənən hüquq mübahisələri üzrə məhkəmələrə müraciət və işlərə məhkəmələrdə baxılması zamanı diqqət edilməli olan məqamlarla bağlı geniş müzakirələr həyata keçirilib.



Qeyd edək ki, Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2024-cü il 20 dekabr tarixli Qərarı ilə “Nikahın pozulması, boşanmadan sonra yetkinlik yaşına çatmayan uşaqların valideynlərdən hansının yanında qalması və uşaqlar üçün valideynlərdən aliment tutulması tələbi”nə dair işlərə baxılarkən qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi, 2024-cü il 6 dekabr tarixli Qərardadı ilə isə “Paylı mülkiyyətlə bağlı bəzi müddəalarının tətbiqi” məsələləri üzrə mübahisəli məqamlara aydınlıq gətirilib, işlərə tətbiq olunmalı olan maddi və prosessual normaların tətbiqi ilə bağlı vahid təcrübə formalaşdırılıb.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



2025-ci il yanvarın 28-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov 2024-cü ildə məhkəmə-hüquq sahəsində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər barədə məlumat verib. Cari il ərzində qarşıda duran hədəflər diqqətə çatdırılıb, bununla bağlı fikir mübadiləsi aparılıb.

İclasda Hakimlərin Qiymətləndirilməsi Komitəsinin və Məhkəmə-Hüquq Şurasının Apellyasiya Şurasının tərkibi formalaşdırılıb. Eyni zamanda intizam icraatı üzrə işlərə baxılaraq müvafiq qərarlar qəbul edilib.

≈≈≈

Fevral ayının 12-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin videokonfrans formatında geniş tərkibdə iclası keçirilib.

İclasda Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri Kəmalə Abiyeva, Məhkəmənin İnzibati Kollegiyasının hakimi Səyyad Kərimov, Cinayət Kollegiyasının hakimi Vidadi Cəfərov və Mülki Kollegiyanın hakimi Əhliman Xıdırovla yanaşı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin və muxtar respublikada fəaliyyət göstərən birinci instansiya məhkəmələrinin sədr və hakimləri iştirak ediblər.




İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, 2024-ci il Azərbaycan üçün hərtərəfli inkişaf ili kimi əlamətdar hadisələrlə yadda qaldı. Həm ərazi bütövlüyümüz və suverenliyimiz tam

bərpa olunandan sonra keçirilən ilk seçkilər, həm dövlət suverenliyi ilə bağlı atılan addımlar, beynəlxalq konfranslara ev sahibliyi, işğaldan azad olunmuş bölgələrin iqtisadi sosial inkişafı bu ilin dövlətçilik tariximizdəki əhəmiyyətini vurğulayır. Geridə qoyduğumuz il Naxçıvan Muxtar Respublikası üçün də muxtariyyətin 100 ilinin tamamlanması baxımından əlamətdar idi. Bu münasibətlə ölkə Prezidentinin Sərəncamına uyğun olaraq keçirilmiş tədbirlərlə muxtar respublikanın keçdiyi 100 illik şərəfli yol il ərzində xatırlandı.

2024-cü il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində qəbul olunmuş tədbirlər planına uyğun olaraq keçirilmiş silsilə tədbirlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirib ki, il ərzində Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən televiziya layihələri və nəşrlər vasitəsilə hüquqi maarifləndirmə sahəsində diqqətəlayiq işlər həyata keçirilib və keçirilməkdədir. Geridə qoyduğumuz ildə həyata keçirilmiş könüllülük proqramları və müxtəlifyönümlü tədbirlərlə gənclərin ixtisaslı kadrlar kimi formalaşmaları və onların iş mühitinə hazırlanmalarına töhfələr verilib. Ali Məhkəmə tərəfindən müxtəlif səpkili elmi-praktik konfranslar, muxtar respublika məhkəmələrinin sədr və hakimlərinin iştirakı ilə seminarlar keçirilib, seminarlarda təcrübədə hakimlərin qarşılaşdığı problemlər, onların həlli üsulları müzakirə edilib.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin gündəliyinə salınmış məsələlərə baxılıb, muxtar respublikanın ixtisaslaşdırılmış və rayon (şəhər) məhkəmələri tərəfindən baxılıb nəticə verilmiş işlər üzrə məhkəmə aktlarından verilmiş apellyasiya şikayətlərinin nəticələri və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin kassasiya şikayəti verilmiş qərarlarının sabitlik göstəriciləri ətraflı təhlil edilib.

Daha sonra çıxış edən Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri Kəmalə Abiyeva, Məhkəmənin İnzibati Kollegiyasının hakimi Səyyad Kərimov, Cinayət Kollegiyasının hakimi Vidadi Cəfərov və Mülki Kollegiyanın hakimi Əhliman Xıdırov Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən işlərə daha operativ baxılması və vətəndaş məmnunluğunun təmin olunması baxımından vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat verib, vahid təcrübənin tətbiqi ilə bağlı qarşıda duran məsələlər barədə iclas iştirakçılarını məlumatlandırıb, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən baxılmış işlər üzrə verilmiş kassasiya şikayətlərinin sayı və həmin qərarların sabitlik göstəricilərini, qanunun tələblərinə və vahid təcrübənin tətbiqi qaydalarına uyğun təhlil ediblər.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi iclasa yekun vuraraq qeyd edib ki, bu il fəaliyyətinin 100 illiyi tamam olan Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun həyata keçirməklə məhkəmə hakimiyyətinin müstəqilliyinə və ədalət mühakiməsinin səmərəliliyinə, vətəndaş məmnunluğunun təmini və onların hüquqlarının bərpasına, eyni zamanda ədalət mühakiməsinə əlçatanlığın təmini və məhkəmələrin fəaliyyətinin şəffaflığına yönəlmiş fəaliyyətini davam etdirəcəkdir.

≈≈≈

Bakıda Azərbaycan Hakimlərinin I Forumu keçirilib.

400-dən çox məhkəmə hakiminin, həmçinin Məhkəmə-Hüquq Şurası üzvlərinin iştirak etdiyi forumun məqsədi hüquq ictimaiyyətini və cəmiyyəti ölkəmizdə gedən məhkəmə-hüquq islahatları barədə məlumatlandırmaq olub.




Forumda Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Ali Məhkəmənin və muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin bir qrup hakimi iştirak ediblər.

Daha sonra forum panel müzakirələrlə davam edib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi panel müzakirələrdə "İnzibati Məhkəmənin mübahisəni yekunlaşdırma imkanlarından biri: məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla müraciətə yenidən baxılması" mövzusunda çıxış edib.

Forum çərçivəsində Azərbaycan Hakimlər İttifaqının müxtəlif nominasiyalar üzrə təsis etdiyi "İlin hakimi" mükafatının təqdim edilməsi mərasimi olub.

Forum çərçivəsində Hakimlərin Konfransı da təşkil edilib. Konfransda Məhkəmə-Hüquq Şurasının tərkibinə seçkilər keçirilib. Konfrans üzvlərinin yekdil səsi ilə Xankəndi Şəhər Məhkəməsinin sədri İlkin Abdullayev birinci instansiya məhkəmələrini təmsil edən hakim, Azər Cəfərov isə hüquq ictimaiyyətinin nümayəndəsi qismində Məhkəmə-Hüquq Şurasının üzvü seçiliblər.

≈≈≈



Martın 12-də “Konstitusiya və Suverenlik İli” və “Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi vətəndaşları qəbul edib.

Qəbul zamanı vətəndaşları narahat edən məsələlər diqqətlə dinlənilib, qaldırılan problemlərin operativ araşdırılması və qanunamüvafiq şəkildə tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib.

≈≈≈

2025-ci ilin martın 18-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.



İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov görülmüş işlər barədə ətraflı məlumat verib.

İclasda Hakimlərin Seçki Komitəsinin müraciətinə də baxılıb. Komitənin sədri Vidadi Cəfərov hakim vəzifəsinə namizədlərin seçimi prosesi barədə məlumat təqdim edib.

Sonra müsabiqəni uğurla başa vurmuş 38 hakimliyə namizədlə fərdi söhbətlər aparılıb, onlara tövsiyələr verilib və yekunda birinci instansiya məhkəmələrinin hakimi vəzifələrinə təyin olunmaları üçün təkliflərin hazırlanması qərara alınıb.

Daha sonra cari məsələlərə, o cümlədən hakimlər haqqında intizam icraatlarının başlanılması məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

≈≈≈

Martın 19-da "Konstitusiya və Suverenlik İli" və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə Ali Məhkəmənin kollektivi Vətən müharibəsi şəhidlərinin ailələrini ziyarət edib. Məhkəmənin bir qrup əməkdaşı Vətən müharibəsi şəhidləri Rəhman Əjdərovun, Abbasəli İsmayılovun və Şəhriyar Məmmədovun ailələri ilə görüşüb, şəhidlərin əziz xatirələrini yad ediblər. Görüşlər zamanı bildirilib ki, Vətən müharibəsi və Antiterror əməliyyatında Müzəffər Ordumuz Ali Baş komandan İlham Əliyevin başçılığı ilə Qarabağı və ətraf rayonları azad etməklə 30 illik işğala son qoydu. Azərbaycan Ordusunun əsgər və zabitləri, hərbçiləri döyüş meydanında əsl qəhrəmanlıq göstərdilər. Vurğulanıb ki, torpaqlarımızın erməni işğalından azad edilməsində canını fəda edən şəhidlərimizin ruhları qarşısında baş əyirik. Vətən naminə döyüşən və yaralanan qazilərimizlə, canlarından keçən şəhidlərimizlə qürur duyuruq, onları hər zaman yaşatmalıyıq və gələcək nəsillərə tanıtmalıyıq.



Sonra şəhidlərimizin keçdikləri döyüş yolundan, xatirələrindən söhbət açılıb. Hər bir şəhidimizin hələ yeniyetmə yaşlardan milli təəssübkeşliyə, vətənpərvərliyə, mübarizliyə, mərdliyə malik olduqları, cənab Ali Baş Komandanın döyüş əmrinə necə sevinclə qoşulduqları vurğulanıb.

Şəhidlərimizin ailələri dövlətimizin qayğısını daim öz üzərlərində hiss etdiklərini, qazanılan qələbədə övladlarının da payı olduğu üçün fəxr etdiklərini bildiriblər.

Kollektiv üzvləri şəhidlərə Allahdan rəhmət, ailələrinə səbir diləyiblər.

≈≈≈

## *Ali Məhkəmənin mətbuat xidmətindən*



Aprel ayının 19-da Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi tərəfindən ağac əkmə aksiyası keçirilib.

“Konstitusiya və Suverenlik İli” və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə həyata keçirilən aksiya çərçivəsində Pürcuvar Dövlət Meşəsi ərazisində 1 hektar əraziyə 400 ədəd kızılçam, 300 ədəd aylant fidanları əkilib, onlara ilkin aqrotexniki qulluq göstərilib.

Aksiyanın keçirilməsində məqsəd ağac əkməklə ekoloji tarazlığın bərpasına, ətraf mühitin qorunmasına kömək etmək, atmosferi oksigenlə zənginləşdirmək, yaşıllıqların qorunmasına töhfə vermək olub.

≈≈≈

Aprel ayının 30-da “Konstitusiya və Suverenlik İli” və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə Femida könüllüləri üçün “açıq qapı” günü təşkil olunub.

Məhkəmə ilə tanışlıq çərçivəsində sədr müavini Müşfiq Həsənov məhkəmələrin dövlət quruluşunda yeri və rolu, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin fəaliyyəti, funksiyaları və iş rejimi ilə bağlı məlumatlar verib, sualları cavablandırıb.



Qonaqlar Ali Məhkəmənin inzibati binası tanış olub, məhkəmə iclas zallarını, məhkəmənin kitabxanasını ziyarət edib, ayrı-ayrı şöbələrin iş sistemi ilə bağlı məlumatlandırılıblar.

Daha sonra qonaqların məhkəmə prosesini izləmələri üçün şərait yaradılıb.

Sonda xatirə fotoşəkli çəkilib.

≈≈≈




Mayın 6-da "Konstitusiya və Suverenlik İli" ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə "Konstitusiya Marafonu" layihəsinə start verilib.

Naxçıvan Dövlət Universitetində baş tutan layihənin açılış mərasimində giriş nitqi ilə çıxış edən Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov qeyd edib ki, dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" elan edilib və bu çərçivədə Naxçıvan Dövlət Universiteti də muxtar respublikanın bir sıra təşkilatları, nazirlik, komitələri ilə birgə müxtəlif mövzularda planlaşdırdığı tədbirlər planının icrasını davam etdirir. Bildirilib ki, bu il həm də ona görə əlamətdardır ki, Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində Qələbəmizin 5-ci ildönümü qeyd edilir. Naxçıvan Dövlət Universiteti də dövlətçiliyimizi müdafiə edən ideoloji mərkəzlərdən biri kimi il ərzində müəllim və tələbələrin iştirakı ilə tədbirlərini davam etdirəcək.



Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyev çıxış edərək bildirib ki, Ali Məhkəmə ilə Universitet arasında uzunmüddətli qarşılıqlı əlaqələr 2023-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universiteti arasında imzalanmış birgə əməkdaşlıq haqqında anlaşma memorandumu ilə daha da inkişaf etdirilib. Əli Allahverdiyev qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi hüquq ictimaiyyəti üçün əhəmiyyətli hadisədir. "Konstitusiya Marafonu" layihəsinin məqsədi də

Konstitusiyanın əhəmiyyətinin və konstitusion dəyərlərin geniş təbliğinə nail olmaqdır.

Daha sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Surə Qurbanova layihə barədə geniş məlumat verərək, layihənin məqsədlərini və gözlənilən nəticələrini, həmçinin hər bir mərhələ üzrə nəzərdə tutulmuş tədbirləri iştirakçıların diqqətinə çatdırıb.

Tədbir Naxçıvan Dövlət Universitetinin "Ümumi hüquq" kafedrasının müəllimi Əziz Qasımov, həmin kafedranın müəllimi və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin əməkdaşı Yunis Xəlilovun iştirakı ilə panel müzakirələrlə davam edib. Müzakirələr zamanı rəqəmsallaşmanın yaratdığı yeni reallıqların hüquqi münasibətlərə mümkün təsirləri barədə fikirlər səsləndirilib.

≈≈≈

2025-ci ilin mayın 14-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.



İclasda hakim vəzifəsinə namizədlərin seçim prosesinin müasir tələblərə uyğun təkmilləşdirilməsi məqsədilə hazırlanan layihə ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın yenidən işlənilmiş layihəsi müzakirə edilib.

Daha sonra Hakimlərin Seçki Komitəsinə yeni üzv seçilməsi məsələsinə baxılıb.

Sonda təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiklərinə görə fəxri fərmanla təltif ediliblər.

≈≈≈

May ayının 21-də “Konstitusiya və Suverenlik İli” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Konstitusiya Marafonu” layihəsinin “Konstitusiya Olimpiadası” mərhələsi keçirilib.

Tədbir Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Ardınca Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrindən ibarət ümumilikdə altı komandanın yarışdığı olimpiadanın ilk mərhələsində komandalara Azərbaycan Respublikasının Konstitusiyası əsasında hazırlanmış 30 test sualı təqdim olunub. Uğur qazanmış 5 komanda növbəti mərhələdə iştirak etmək hüququ qazanıb. Nə? Harada? Nə zaman? formatında keçirilən növbəti mərhələdə komandaların konstitusion bilikləri təqdim olunmuş 20 sualla yoxlanılıb. İkinci mərhələnin qalibi olan “Respublikaçılar“ və “Həqiqət“ komandalarının iştirakı ilə olimpiadanın final mərhələsi olan debat baş tutub. Debat *“Fərdi hüquqlar və dövlət maraqları arasında balans: üstünlük kimdədir?”* mövzusu ətrafında həyata keçirilib. Debatın qalibi olmuş “Respublikaçılar“ komandası olimpiadanın qalibi statusunu qazanıb.



≈ ≈ ≈

May ayının 23-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş *“Heydər Əliyev və Azərbaycan Respublikası Konstitusiyası – suveren dövlətin hüquqi əsası”* mövzusunda elmi-nəzəri konfrans keçirilib.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin və ölkəmizin suverenliyi uğrunda canından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, daha sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbir

Müstəqil Azərbaycan Respublikası Konstitusiyasının tarixinə həsr olunmuş videoçarxın nümayişi ilə davam edib.



Giriş nitqi ilə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi Azərbaycanın müstəqillik tarixinin mühüm bir hissəsi kimi Konstitusiyanın əhəmiyyəti, onun ölkənin hüquq bazasının, müasir məhkəmə və hüquq sisteminin formalaşması prosesindəki yeri barədə məlumat verib və bildirib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Azərbaycan Respublikasının Konstitusiyası ölkədə insan hüquqlarının, ədalət mühakiməsinin və dövlət idarəçiliyinin prinsiplərini müəyyən etməklə hüquqi mühitin qarantıdır.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Səxavət Novruzov qeyd edib ki, Ulu Öndərin müəllifi olduğu Konstitusiyanın qəbul edilməsi xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsini əks etdirən hadisə idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir səhifə yazıldı, dahi rəhbər Heydər Əliyevin uzunmüddətli gərgin əməyinin məhsulu olan Konstitusiya öz demokratikliyi, humanistliyi ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı.



Daha sonra Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri Hüseyn Məmmədov çıxış edərək bildirib ki, Əsas Qanunun qəbulundan sonra ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə müasir tələblərə cavab verən çoxpilləli məhkəmə sisteminin

yaradılması hər kəsin hüquq və azadlıqlarının daha obyektiv təmin edilməsinə şərait yaradır.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsinin hakimi Tural Əliyev və Şahbuz Rayon Məhkəməsinin sədri Daşqın Səfərov Konstitusiyanın qəbulundan sonra məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan ardıcıl islahatlar və dövlət suverenliyinin hüquqi-siyasi baxımdan tam bərqərar olunmasından sonra azad edilmiş ərazilərdə qurulmuş müstəqil hüquq sistemi barədə məlumat veriblər.

≈≈≈

Mayın 27-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş *"Konstitusiya: hüquqi və demokratik islahatların mənbəyi, suverenliyin hüquqi əsası"* mövzusunda elmi-nəzəri konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və digər konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini ziyarət edib, önünə tər güllər düzüblər.



Heydər Əliyev Muzeyində olan ziyarətçilərə Ümummilli Liderin irsinin dəyərli nümunələrindən ibarət eksponatlar barədə ətraflı məlumat verilib.

Heydər Əliyev Sarayında təşkil olunan rəsm və dekorativ-tətbiqi sənət nümunələrindən ibarət sərgiyə baxış olub. Bütöv Azərbaycan xəritəsinin əks olunduğu xalça, Ümummilli Liderimizin portretləri, tarix və mədəniyyətimizə dair digər əsərlər maraq doğurub.

Konfransda Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra müstəqil Azərbaycan Respublikası Konstitusiyasının tarixinə həsr olunmuş videoçarx təqdim edilib.



Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli konfransda çıxış edərək bildirib ki, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikada yeni inkişaf mərhələsinin başlanğıcını qoyub. Proqram çərçivəsində qarşıya qoyulan prioritetlərdən biri olan institusional islahatların aparılması nəticəsində muxtar respublikanın dövlət orqanları ilə Azərbaycan Respublikasının dövlət orqanları arasında əməkdaşlığın gücləndirilməsi, inteqrasiyanın aparılmasına nail olunub. Bununla yanaşı, proqramda nəqliyyat-logistika infrastrukturunun yenilənməsi, iqtisadiyyatın şaxələndirilməsi, rəqəmsal idarəetmənin tətbiqi, enerji səmərəliliyinin artırılması və əhalinin rifahının yüksəldilməsi də prioritetlər kimi müəyyən olunub.

Səlahiyyətli nümayəndə qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyətli qərarları ilə vətəndaşların pozulmuş mülkiyyət hüquqlarının bərpası istiqamətində sistemli və ədalətli tədbirlər həyata keçirilir. Uzun illər ərzində müxtəlif səbəblərdən mülkiyyət hüquqları pozulmuş minlərlə vətəndaşımızın hüquqları məhkəmə və inzibati qaydada bərpa olunur, kompensasiyalar ödənilir, qanunsuz zəbt olunmuş əmlaklar qaytarılır. Muxtar respublikada artıq 642 nəfərin hüququ bərpa olunub və bu istiqamətdə işlər davam etdirilir. Bu addımlar bir daha



göstərir ki, Konstitusiyada təsbit edilmiş mülkiyyət toxunulmazlığı prinsipi dövlət siyasətinin ayrılmaz tərkib hissəsidir və hər bir vətəndaşın hüququ qorunur.




Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxışında vurğulayıb ki, Naxçıvan tarixin hər bir dövründə Azərbaycanın ictimai-siyasi həyatında öz çəkisi ilə xüsusi olaraq seçilib. Naxçıvan Azərbaycan dövlətçiliyinin formalaşmasında, 1990-cı illərdə xalqımızın yenidən istiqlala qovuşmasında əvəzsiz xidmətlər göstərib. 1990-1993-cü illərdə Naxçıvanda siyasi fəaliyyət göstərən Ulu Öndər Heydər Əliyev dövlətimizin həqiqi müstəqilliyinin bünövrəsini məhz burada qoyub. Ümummilli Liderin fəaliyyətinin Naxçıvan mərhələsində gördüyü işlər, atdığı addımlar 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra müstəqil dövlət quruculuğunda mühüm rol oynadı. Dərin zəkaya malik olan böyük ictimai-siyasi xadim bilirdi ki, Azərbaycanın daimi müstəqilliyinin təminatı üçün yeni ruhda yazılan və azad xalq tərəfindən qəbul edilən müasir Konstitusiyaya ehtiyac var. 1995-ci il noyabrın 12-də Ulu Öndər Heydər Əliyevin şah əsəri – Azərbaycan tarixində ilk müstəqil respublikanın Konstitusiyası ümumxalq səsvermə yolu ilə qəbul edildi. Konstitusionalizm quruculuğunda növbəti mərhələ isə 1998-ci il iyulun 14-də Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılması olub. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi institutunun yaradılmasını olduqca mühüm addım kimi dəyərləndirən Fərhad Abdullayev qeyd edib ki, bu islahat bölgədə idarəetmə üsulunun səmərəliliyinin daha da artırılmasına, həmçinin iqtisadiyyatın inkişafına öz töhfəsini verir.

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi bildirib ki, bu il Azərbaycan Konstitusiyasının qəbulunun 30 illiyi ilə yanaşı, dövlət suverenliyimizin tam bərpasının və ərazi bütövlüyümüzün təmin olunmasının real nəticələrini yaşadığımız dövrdür. O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etməsi təsadüfi deyil. Bu




qərar müstəqil dövlətçilik tariximizin mühüm dövrlərini əhatə etməklə yanaşı, həm də gələcəyə hesablanmış strateji bir çağırışdır.

Tədbirdə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin də çıxışı dinlənilib.

Tədbir bədii hissə ilə davam edib.

Həmin gün tədbir iştirakçıları Naxçıvan şəhərindəki "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksi ilə tanış olublar.

Tanışlıq zamanı ərazidəki XII əsr abidəsi, Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Möminə xatun türbəsi haqqında məlumat verilib. Qeyd olunub ki, Prezident İlham Əliyev dünya əhəmiyyətli tarix-memarlıq abidəsinin bərpası və konservasiyası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncamla orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirən Möminə xatun türbəsi orijinal quruluşu əsasında bərpa olunacaq.

Həmçinin Ümummilli Lider Heydər Əliyevin "Əcəmi Seyrəngahı" Mədəniyyət və İstirahət Kompleksindəki büstü də ziyarət edilib.



Daha sonra Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev və onu müşayiət edən heyətlə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsində görüş təşkil olunub. Görüşdə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə nazirinin müavini Hüseyn Səfərov və Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən məhkəmələrin sədr və hakimləri iştirak ediblər.

Görüş zamanı Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi qonaqları salamlayaraq görüşün muxtar respublikanın hüquq

ictimaiyyəti üçün əhəmiyyətini vurğulayıb, qonaqlara minnətdarlığını bildirib.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev çıxış edərək görüşdən məmnunluğunu ifadə edib, ölkədə aparılan məhkəmə və hüquq islahatlarının effektivliyinin artırılması istiqamətində məhkəmələrə fəaliyyətlərində uğur arzulayıb.

Sonda xatirə hədiyyələri təqdim olunub.

≈≈≈

İyun ayının 5-də “Konstitusiya və Suverenlik İli” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Konstitusiya Marafonu” layihəsinin məhkəmə simulyasiyası mərhələsi baş tutub.

Ali Məhkəmədə keçirilən simulyasiya çərçivəsində Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələri tərəfindən mülki mübahisə üzrə məhkəmə baxışı səhnələşdirilib.

Səhnələşdirilmiş məhkəmə prosesində pul tələbinə dair mülki mübahisəyə baxılması üzrə işin birinci instansiya məhkəməsində baxışı canlandırılıb. Məhkəmə baxışının gedişində sübutların tədqiqi, tərəflərin izahatlarının alınması, şahidlərin dindirilməsi, müşavirə otağında məhkəmə qərarının hazırlanması və elan edilməsi tələbələr tərəfindən əyani şəkildə nümayiş etdirilib.




Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının hakimləri Mehman Allahverdiyev, Zamiq Əliyev və Mehdi Əliyev münsif qismində tələbələrin iştirakını izləyiblər. Məhkəmənin Naxçıvan Dövlət Universiteti ilə imzaladığı Memorandum diqqətə çatdırılıb və qeyd olunub ki, hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin nəzəri biliklərlə yanaşı, təcrübi biliklərinin də artırılması Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin diqqət mərkəzindədir və bu qəbildən layihələr artıq ənənəvi xarakter daşımaqla gələcəkdə də həyata keçirilməsi nəzərdə tutulub.

≈≈≈



İyunun 18-də Bakıda Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 20 illiyinə həsr olunan "Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.

Tədbirdə öncə Məhkəmə-Hüquq Şurasının fəaliyyəti ilə bağlı qısametrajlı sənədli film nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Səadət Bəktaşi və Məhkəmənin bir qrup hakimi ilə yanaşı muxtar respublikada fəaliyyət göstərən bəzi birinci instansiya məhkəmələrinin sədrləri də konfransda iştirak ediblər.

Konfransı giriş nitqi ilə açan Azərbaycan Respublikası Ali Məhkəməsinin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov Şuranın 20 illik fəaliyyətinə nəzər salaraq, qurumun təsis edilməsinin ədalət mühakiməsinin keyfiyyətli həyata keçirilməsinə mühüm töhfə verdiyini qeyd edib. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil məhkəmə sisteminin formalaşması və inkişafı istiqamətində həyata keçirilən islahatlar bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni islahatlar çərçivəsində məhkəmə hakimiyyətinin müstəqilliyi gücləndirilib, Məhkəmə-Hüquq Şurasının statusu və tərkibi beynəlxalq standartlara uyğunlaşdırılıb. Həmçinin hakimlərin seçimi, təyinatı və vəzifədə irəli çəkilməsi sahəsində şəffaflıq və çeviklik prinsipləri əsasında mühüm yeniliklər həyata keçirilib. Məhkəmə islahatlarının davamlılığı, hakimlərin peşəkarlığının artırılması və rəqəmsal transformasiyanın



genişləndirilməsinin gələcək fəaliyyətin əsas prioritetlərini təşkil etdiyi vurğulanıb.




Konfransda Məhkəmə-Hüquq Şurasının fəaliyyətinə, həmçinin məhkəmə sahəsində islahatlara verdiyi töhfəyə görə Şuranın sabiq sədri, Konstitusiya Məhkəməsinin hakimi Fikrət Məmmədov “Azərbaycan Respublikası Məhkəmə-Hüquq Şurasının 20 illiyi (2005–2025)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilib.

Daha sonra “Məhkəmə idarəetməsində qlobal çağırışlar və müasir beynəlxalq həllər”, “Hakim korpusunun komplektləşdirilməsi” və digər mövzularda panel müzakirələr təşkil edilib.

≈≈≈



İyun ayının 21-də “Konstitusiya və Suverenlik İli” ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Konstitusiya Marafonu” layihəsi çərçivəsində Ali Məhkəmənin hakimləri ilə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələrin görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində baş tutan görüşdə Məhkəmə sədrinin müavini Müşfiq Həsənov, kommersiya kollegiyasının sədri Səxavət Bəylərli və cinayət kollegiyasının hakimi Vüqar Quliyev inzibati, mülki, kommersiya və cinayət icraatları üzrə məhkəmə praktikasında rast gəlinən təcrübələri tələbələrlə bölüşüblər.

Diskussiya mühitində baş tutan görüşdə tələbələrin ünvanlandığı suallar hakimlər tərəfindən cavablandırılıb.



Daha sonra, tələbələrin iştirakı ilə *“Konstitusiya və Gənclər: Hüquqlarımızı Bilirikmi?”* mövzusunda panel müzakirə keçirilib. Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə təhsil alan Zeynəbxanım Əhmədovanın moderatorluğu ilə baş tutan paneldə həmin fakültənin tələbələri Aysu Calalova və Gültəkin Mehdizadə mövzu ilə bağlı fikirlərini bölüşüblər.

≈≈≈

2025-ci ilin iyunun 24-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Səadət Bəktaşi iclasda iştirak edib.



İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov görülmüş işlər, o cümlədən Məhkəmə-Hüquq Şurasının fəaliyyətinin 20 illiyinə həsr olunan “Məhkəmə idarəçiliyi sahəsində qlobal çağırışlar” mövzusunda beynəlxalq konfrans və Türk Dövlətləri Təşkilatı Məhkəmə Şuraları sədrlərinin 3-cü iclasında qəbul edilən qərarların əhəmiyyətini və bundan irəli gələrək qarşıda duran vəzifələri diqqətə çatdırıb.

İclasda Məhkəmə-Hüquq Şurasının Aparatı və İşçi qrupları tərəfindən məhkəmə fəaliyyətinə dair hazırlanmış layihələr ətrafında müzakirələr aparılıb.

Dövrün tələblərinə uyğun olaraq olaraq yenidən işlənilmiş “Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat” layihəsi təsdiq edilib. Eyni zamanda “Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası” layihəsi müzakirə olunub.

Daha sonra cinayət, mülki və inzibati mübahisələrə dair ədalət mühakiməsinin səmərəliliyinin təhlili və Məhkəmə-Hüquq Şurası Aparatının fəaliyyəti ilə bağlı işçi qruplar yaradılması qərara alınıb.

≈≈≈

İyun ayının 25-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə “Konstitusiya və Suverenlik İli” nə həsr olunmuş “Konstitusiya Marafonu” layihəsinin bağlanış mərasimi baş tutub.



Naxçıvan Dövlət Universitetində baş tutan tədbirdə çıxış edən Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru Elsevər Əsədov və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Mehdi Əliyev çıxış edib.

Sonda layihədə iştirak etmiş tələbələrə sertifikatlar, layihə çərçivəsində keçirilmiş müsabiqələrdə qalib olmuş komandalara mükafatlar təqdim olunub.

≈≈≈≈≈≈≈≈≈≈
≈≈≈≈≈≈
≈≈≈

# HAKİM STUDİYASI

### “Hakim studiyası” televiziya verilişinin icmalı




2024-cü ilin fevral ayından etibarən Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin yeni televiziya layihəsi start götürülmüşdür. Naxçıvan Dövlət Televiziyasının efirində Məhkəmənin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisinin təqdimatı ilə yayımlanan “Hakim Studiyası” televiziya verilişi əhali arasında hüquqi maarifləndirmə işinin aparılması, cəmiyyətin hüquqa çatımlılığına mümkün töhfənin verilməsi, hüquq ictimaiyyətinin qarşılıqlı fikir mübadiləsi apara biləcəyi və məlumatlanacağı platformanın yaradılması, ictimaiyyətin məhkəmə təcrübəsi barədə məlumatlandırılması, gənc və gələcək hüquqşünasların yararlana biləcəyi video formatlı hüquqi material bazasının zənginləşdirilməsi məqsədilə hazırlanmışdır. Muxtar respublikada fəaliyyət göstərən məhkəmələrin hakimlərinin və aidiyyəti dövlət orqanlarının nümayəndələrinin dəvət olunduğu verilişin hər sayında hüququn müxtəlif sahələri barədə nəzəri məlumatlarla yanaşı qanunvericiliyin tələbləri və formalaşmış məhkəmə təcrübəsi barədə tamaşaçılara ətraflı məlumatlar verilir.



**28 yanvar 2025 – ci il tarixdə** “Hakim Studiyası” verilişinin növbəti sayı təqdim olunub. Şahbuz Rayon Məhkəməsinin sədri Daşqın Səfərov və Naxçıvan Şəhər Məhkəməsinin hakimi Gülsüm Əliyevanın iştirakı ilə əmək münasibətlərindən yaranan mübahisələr müzakirə olunub. Verilişdə işçilərin və işəgötürənlərin təməl hüquqları, hüquqi əsası olmayan faktiki əmək münasibətlərinin nəticələri, iş yerində qısnamaya və ya qeyri-adekvat rəftara məruz qalan işçinin hüquqları, uşağın dünyaya gəlməsi ilə əmək fəaliyyəti ilə məşğul olan valideynlərin hüquqlarının həyata keçirilməsi, iş saatlarından artıq işlədilən işçinin əməyinin ödənilməsi qaydası, əmək müqaviləsinin xitamı əsasları, işçinin özünün əmək funksiyasını və ya əmək müqaviləsi üzrə öhdəliklərini yerinə yetirməməsi, yaxud əmək vəzifələrini kobud şəkildə pozması əsası ilə müqavilələrə xitam verilməsi hallarında mübahisə yaradan məqamlar, əmək hüquqlarının pozulduğunu hesab edən şəxslərin hüquqi müdafiə vasitələri, iddia müddətlərinin əhəmiyyəti, iddia müddətlərinin axımının dayanmasına səbəb olan hallar müzakirə olunmuşdur.

**03 mart 2025 – ci il tarixdə** “Hakim Studiyası” verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri Səxavət Bəylərli və Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin sədri Elşən Salmanovun iştirak etdiyi buraxılışda kommersiya mübahisələrini mülki mübahisələrdən ayıran əsas faktorlar, kommersiya mübahisələri üzrə məhkəmələrə müraciət qaydaları, kommersiya mübahisələri üzrə



məhkəmə aidiyyəti, məhkəmələr arasındakı aidiyyətlə bağlı mübahisələrin həlli qaydaları, vətəndaşın aidiyyət qaydalarına uyğun olmayan müraciətinin nəticəsi, kommersiya mübahisələri üzrə müraciətlər zamanı yol verilən nöqsanlar, kommersiya mübahisələri üzrə sübutların təqdim olunması qaydaları, pretenziya qaydası müzakirə olunmuşdur.



**26 mart 2025 – ci il tarixdə** "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Zamiq Əliyev və Şərur Rayon Məhkəməsinin sədri Mehdi Əliyevin iştirak etdiyi buraxılışda kredit və borc müqavilələri, bu müqavilələrin obyekti, borc müqaviləsinin forma şərtləri, borcun etirafı, faktiki borc müqaviləsinin mövcudluğunun sübut edilməsi imkanları, başqa şəxsin xeyrinə kredit müqaviləsi əsasında borc götürmüş şəxsin hüquqlarının müdafiəsi imkanları, kredit müqavilələri üzrə zaminin hüquq və vəzifələri, zaminin reqress iddiası, borclunun müqavilə üzrə öhdəliklərini tam yerinə yetirmədən öldüyü halda kreditor qarşısındakı öhdəliklərin icrası qaydaları müzakirə olunmuşdur.



**07 may 2025 – ci il tarixdə** "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Əli Allahverdiyevin iştirak etdiyi buraxılış **"Konstitusiya və Suverenlik İli"nə** həsr olunub. Verilişdə "Konstitusiya və Suverenlik ili" ilə bağlı Sərəncamın

əhəmiyyəti və məqsədi, bu Sərəncamın cəmiyyətin həyatına və hüquqi təsisatların işinə gözlənilən təsirləri, Konstitusiyanın əhəmiyyəti və konstitusion dəyərlərin önəmi, suverenliyin konstitusion əsasları, keçmiş SSRİ zamanında qüvvədə olmuş Konstitusiyalarla və hüquq sistemi ilə müasir Azərbaycan Konstitusiyası arasındakı fərqlər, həmçinin Konstitusiyanın qəbulu dövründə yaranmış hüquqi mənzərə, cəmiyyətin bu prosesdə ictimai iştirakçılığı müzakirə olunmuşdur.

**23 may 2025 – ci il tarixdə** "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mülki kollegiyasının sədri Mehman Allahverdiyevin iştirak etdiyi buraxılış aliment mübahisələrinə həsr olunub. Verilişdə alimentin tutulması üçün əsaslar, alimentin uşağın ehtiyacları üçün sərf edilməsinə nəzarət mexanizmi, aliment ödəməli olan şəxsin keçmiş aliment borclarına görə məsuliyyəti, alimentin məbləği müəyyən edilərkən nəzərə alınan məqamlar, uşağın əlavə xərclərində digər valideynin iştirakı, alimentlə bağlı iddia qaldırılarkən təqdim olunmalı sənədlər, aliment öhdəliyinin həyata keçirilməsinin uşaqla qeyd-şərtsiz ünsiyyət tələb etmək hüququ verib-verməməsi və s. müzakirə olunmuşdur.





**19 iyun 2025 – ci il tarixdə** "Hakim Studiyası" verilişinin növbəti sayı təqdim olunub. Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin sədri Hüseyn Məmmədov və Naxçıvan Muxtar Respublikası Hərbi

Məhkəməsinin sədri Polad Həsənovun iştirak etdikləri buraxılış cinayət məsuliyyətindən və cəzadan azadetmənin əsaslarına həsr olunub. Verilişdə cəza, məhkumluq və cinayət məsuliyyəti məfhumlarının fərqi, cinayət məsuliyyətindən azad olunmanın əsasları, cəzaya şərti olaraq məhkum etmə barədə qərar üçün əsaslar, bu qəbildən qərarın ləğv edilməsi əsasları, cəzaya şərti olaraq məhkum edilmiş şəxsin vəzifələri, cinayət məsuliyyətinə və cəzaya məhkum olunmuş şəxsin cəzadan şərti olaraq vaxtından əvvəl azad edilməsinin mümkünlüyü, bu halda əməl olunmalı olan prosessual qaydalar, müraciətlərin edilməsi qaydaları, cəzanın çəkilməsinin təxirə salınması üçün şərtlər və s. müzakirə olunmuşdur.

≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈ ≈ ≈ ≈ ≈
≈ ≈ ≈

**AZƏRBAYCAN RESPUBLİKASI**
**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ**


4700000000
053-2022

Yığılmağa verilmiş: 10.07.2025.
Çapa imzalanmış: 21.07.2025.
Formatı 70x100 1/8 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 8 ç.v.
Sifariş № ___. Tiraj 100 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 14.